Xalqın qəzeti!

# Xalq qəzeti

№ 231 (30347) 22 oktyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

**Biz Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzərində fəal çalışmalıyıq. Əgər biz buna nail olsaq, – mən buna ümidliyəm, – o zaman Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq. İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar.**

# Sənayenin inkişafı idxalı azaldır

## 2003-cü ildən istehsal 22 dəfə artıb



*Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət, eləcə də iqtisadi islahatlar nəticəsində respublikamızda iqtisadiyyatın dayanıqlığının təmin edilməsi, qeyri-neft sənayesinin inkişafı istiqamətində mühüm addımlar atılır. Ölkənin neft amilindən asılılığının azaldılması istiqamətində geniş islahatlar həyata keçirilir.*

*(ardı 7-ci səhifədə)*

# Samvelsayağı Alma-Ata Bəyannaməsi

**Məlum olduğu kimi, bu ilin sentyabrında Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra özünü buraxdığını elan edən Qarabağdakı separatçı rejimin sabiq rəhbəri, hazırda Ermənistanda olan Samvel Şahramanyanın dili açılıb.**



Əslində, onun buna məcbur edildiyini də söyləmək mümkündür. Bir qrup başıpozuq aksiya keçirib və tələblər irəli sürərək deyiblər ki, bəs "artsax" ölməyib filan. Ancaq hər bir halda Şahramanyan sentyabrda imzaladığı sənədlə bağlı deyə bilərdi ki, daha rejim fəaliyyət göstərmir. Amma belə deməyib, əksinə, bildirib ki, heç kəs qondarma "Dağlıq Qarabağ Respublikası"nı ləğv edə bilməz. Sən demə, ortada referendum var imiş.

Əvvəlcə buna diqqət yetirək görək Samvelin haqqında söz açdığı referendum nə deməkdir. Deməli, 10 dekabr 1991-ci ildə azərbaycanlıların boykot etdikləri və yalnız ermənilərin qatıldıqları referendumun nəticəsinə görə "müstəqillik qərarı" çıxarılmış və 1992-ci il yanvarın 6-da "Dağlıq Qarabağ Respublikası"nın "müstəqilliyi" "rəsmən" elan edilmişdi. Buna qədər isə 26 noyabr 1991-ci ildə "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdi. Qanunu Prezident Ayaz Mütəllibov imzalamışdı.

*(ardı 3-cü səhifədə)*

# Ermənistan revanşizmə sürüklənir



**Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasında, sülh müqaviləsinin imzalanmasında, bütövlükdə, Cənubi Qafqazda sabitliyin və əmin-amanlığın yaranmasında maraqlı olmayan bir sıra Qərb ölkələri İrəvanı revanşizmə sürükləməkdən əl çəkməkdə maraqlı görünmürlər. Onlar hər vəchlə çalışırlar ki, Ermənistan sülhə yaxınlaşmasın, bölgədə yeni status-kvo yaransın və bu vəziyyət növbəti onilliklər ərzində davam etsin.**

*(ardı 4-cü səhifədə)*

# Qərbin iflasa məhkum "siyasi şou"su

**Baş verənlər təbii qəbul olunmalıdır. Hərbi gücdən və bölgədəki vəziyyətə təsir imkanından məhrum olan İrəvanın siyasi təxribatlara əl atması çoxdan bizi təəccübləndirmir. Onun özünü saldığı burulğandan qurtulması üçün saman çöpündən yapışması da normal qəbul olunmalıdır. Amma bu zaman beynəlxalq hüquq və diplomatik etiketlə bir araya sığmayan üsul və gedişlərdən yararlanmaqla Azərbaycana qarşı başlatdığı "beynəlxalq yürüşün" heç bir nəticə verməyəcəyini də unutmasın.**




Ölkəmizə qarşı belə "feyk" gedişlərdən birini də Ermənistanın ombudsmanı Anait Manasyan quraşdırmağa çalışır. Paşinyanın təbliğat maşınının dünya ictimaiyyətinə Azərbaycanın Qarabağ ermənilərini "etnik təmizləməyə" və "soyqırımı"na məruz qoymasını sırımaq üçün təsdiqləyici sübutlar üzə çıxıbmış. Hayastanın baş nazirinin bu günlərdə Strasburqda Avroparlamentin iclasında "fitilini yandırdığı" dezinformasiyanı ombudsman gerçəklik donuna bürüməyə cəhd edir: "Azərbaycanın 19-20 sentyabr hərbi təcavüzündən sonra aşkar edilən və Ermənistana gətirilən onlarca Qarabağ sakininin cəsədində işgəncə əlamətləri və bədən xəsarətləri var". Bunu jurnalistlərə bəyan edən Manasyan bu yolla Azərbaycanın Qarabağ ermənilərini "etnik təmizləməyə" məruz qoymasını "sübut etməyə" çalışır. Belə məqamda deyirlər, adımı sənə qoyum, səni də yana-yana. Axı həmin antiterror tədbirlərindən bir gün sonra Ermənistan baş naziri "Qarabağın erməni sakinlərinə qarşı təhdid və təhlükəni görmədiyini" özü bəyan etmişdi. Amma üstündən bir ay keçməmiş Ermənistanın "ictimai-siyasi xadimləri" sanki yuxudan ayılıb Bakıya qarşı yalan və saxtakarlıqla dolu növbəti dezinformasiyanı üfürməyə başladılar. Elə həmin məqamda kimlər tərəfindən öldürüldüyü hələ bilinməyən Qarabağ ermənilərinin "işgəncə izləri tapılmış cəsədləri" ortaya çıxdı. Heç şübhə yoxdur ki, İrəvanın bu uydurma və ittihamları ən çirkin üsulla Bakının beynəlxalq imicinə zərbə vurmaq, dünya birliyinin gözündə Azərbaycanı ləkələmək məqsədini daşıyır. Bu çirkin kampaniyada erməni KİV-i fəal iştirak edir. Ombudsmanın havadan qapdığı, konkret adama və fakta söykənməyən açıqlaması ictimai rəylə manipulyasiyadan başqa bir şey deyil.

*(ardı 3-cü səhifədə)*

# Paris və İrəvanın "minalanmış" sifətləri



Səhifə ⇨ 4

# İqtisadi yüksəliş ölkənin maliyyə imkanlarını genişləndirir

Səhifə ⇨ 7

# Azərbaycan elmini dünyada yüksəldən biokimyaçı

Səhifə ⇨ 8



# Göllər Azərbaycanın görən gözüdür

**Abşeron gölləri vaxtilə öz təbiətinə görə nadir sututarlar siyahısına daxil edilib. Bu su ehtiyatlarından sosial-iqtisadi ehtiyacların ödənilməsində istifadə olunub. Lakin sonrakı illərdə sənayenin, xüsusilə də neft sektorunun inkişafı ilə əlaqədar müxtəlif tullantıların və kimyəvi birləşmələrin təsiri ilə həmin göllər kəskin çirklənməyə məruz qalıb.**



Bu azmış kimi, yarımadada vaxtilə kənd təsərrüfatı məqsədilə istifadə olunmuş torpaqlarda son illərdə salınmış yeni-yeni yaşayış massivlərinin tullantı sularının da ətraf göllərə axıdılması problemi bir qədər də dərinləşdirib. Beləcə, 200-ə yaxın müxtəlif süni və təbii göl baxımsızlıq ucbatından çirkab mənbəyinə çevrilib. Halbuki vaxtilə bu göllərin bir çoxu respublikamızın əsas duz mənbələrindən olub.

*(ardı 10-cu səhifədə)*

# "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" konfransı xarici mediada




**Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Azərbaycan paytaxtında keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfrans bir sıra nüfuzlu xarici KİV-lərdə geniş işıqlandırılıb.**

Türkiyənin Anadolu agentliyinin fransızdilli versiyasında, "TRT World", "Haber Global" televiziya kanallarında konfransla bağlı yayımlanan xəbər və süjetlərdə Azərbaycan Prezidentinin tədbir iştirakçılarına müraciətinə geniş yer verilib. Xəbərlərdə dövlətimizin başçısının Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən səsləndirilən müraciətində əsasən Fransanın işğal etdiyi və müstəmləkə vəziyyətinə saldığı ölkələrdə insanlığa qarşı çoxsaylı cinayətlər törətməsi barədə fikirləri xüsusi vurğulanıb:

Telekanallarda yayımlanan süjetlərdə Bakıdakı konfransda kolonializm siyasətinə məruz qalan ölkələrdən çoxlu sayda nümayəndənin iştirak etdiyi vurğulanıb. Konfrans iştirakçılarının Fransanın Avropadan kənarda, Sakit və Atlantik okeanlarında dənizaşırı icma və ərazilərində yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmədiyi, həmin ölkələri əsrlərdə müstəmləkəçilik siyasəti ilə əsarət altında saxlaması barədə fikirləri diqqətə çatdırılıb. Belə ki, Martinikanın Azadlıq Partiyasının nümayəndəsi Lyuk Frensis Kerolun müsahibəsində aşağıdakı fikirləri təqdim olunub: "Afrikada bir çox ölkə Fransanın neokolonializm siyasətinə qarşı mübarizə aparır. Fransa Sakit okean və Karib dənizində illərdir eyni siyasəti davam etdirir, amma bu gün Azərbaycana, Türkiyəyə və Fələstinə insan hüquqları və azadlıq dərsi verməyə çalışır. Burada danışmaq istədiyimiz mövzu əslində elə budur. Konfrans dünyanın müxtəlif bölgələrində yerləşən və hələ də kolonializm siyasətindən əziyyət çəkən xalqların səsinin beynəlxalq aləmə çatdırılması üçün gözəl imkandır".

"Sputnik"in fransız dili bölməsində yayımlanan xəbərdə Azərbaycan Prezidenti İlham Əliyevin müraciətində BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan istifadə edərək Afrikada qərəzli siyasət yürüdən və Əlcəzairdə milyonlarla mina basdıran Fransanın neokolonial siyasətinin sərt şəkildə pislendiyi vurğulanıb.

KİV-lərdə yayımlanan xəbərlərdə konfrans çərçivəsində açılan sərgidə Fransanın onilliklər ərzində neokolonializm siyasəti həyata keçirdiyi ölkələrdə insan hüquqlarını kobud şəkildə pozması, həmin xalqlara qarşı törətdiyi vəhşilik və soyqırımlarını əks etdirən fotoşəkillərin nümayiş olunduğu bildirilib.

**XQ**

# Bakı Təşəbbüs Qrupunun Ofisi açılıb



**Paytaxtda Bakı Təşəbbüs Qrupunun Ofisinin açılışı baş tutub. "Winter Park Plaza"da keçirilən mərasimində yerli və xarici qonaqlar iştirak ediblər.**

Qeyd edilib ki, Bakı Təşəbbüs Qrupu Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində bu il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılıb. Təşəbbüs Qrupu XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

***

"Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçıları dünən Milli Məclisdə olublar.

Deputat Tural Gəncəliyev konfransın əhəmiyyətini vurğulayıb, onun dünyada hələ də bəzi ölkələr tərəfindən davam etdirilən müstəmləkəçilik siyasətinin qarşısının alınmasına verə biləcəyi töhfələrdən danışıb. Bildirilib ki, BMT tərəfindən neokolonializm qadağan edilsə də, Fransa bu gün hələ də bu siyasəti davam etdirir və bir sıra ölkələr Fransanın bu siyasətindən əziyyət çəkirlər.



Görüşdə Martinikanın Azadlıq Partiyasının nümayəndəsi Lyuk Frensis Kerol, Kaledoniya Birliyi Partiyasının baş katibinin müavini David Uanabo, Yeni Kaledoniya parlamentinin üzvü Mariya Line Sakilya Fransanın onların ölkələrinə qarşı həyata keçirdiyi müstəmləkəçilik siyasətindən danışıblar.

Qonaqlar Azərbaycanın Qoşulma Hərəkatının sədri kimi onların ədalət və azadlıq uğrunda apardıqları haqlı mübarizədə göstərdiyi ardıcıl dəstəyə və konfransın ölkəmizdə təşkilinə görə minnətdarlıqlarını ifadə ediblər.

***

"Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" adlı beynəlxalq konfransın iştirakçıları Azərbaycan Dillər Universitetində tələbələrlə görüşüblər.

Görüşdə Azərbaycanın multikultural ölkə olduğu, ölkədə hər bir dilin inkişaf etdiyi və heç kəsə qarşı ayrı-seçkiliyin edilmədiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, Fransa və onun kimi ölkələr Cənubi Qafqazda yaranan geosiyasi vəziyyətlə bağlı reallıqları qəbul etməkdə çətinlik çəkirlər, birtərəfli mövqe tuturlar.

Qonaqlar öz çıxışlarında Fransanın öz müstəmləkələrindəki təbii resursları mənimsəməsindən, həmçinin ölkələrində gələcək nəsillərin daha sağlam mühitdə, xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün apardıqları mübarizədən bəhs ediblər. Konfrans iştirakçıları bu mübarizədə göstərilən dəstəyə görə Azərbaycana təşəkkürlərini bildiriblər.

Sonda tələbələrin sualları cavablandırılıb.

**XQ**

# Xüsusi təyinatlılar hərbi təlimdə



**Ölkəmizdə keçiriləcək "Mustafa Kamal Atatürk-2023" birgə taktiki təliminin məşqləri zamanı Azərbaycan və Türkiyə xüsusi təyinatlıları yüksək peşəkarlıq nümayiş etdirirlər.**

Birgə təlimin növbəti məşqlərində həyəcan siqnalı ilə qaldırılan xüsusi təyinatlılar verilən tapşırığa əsasən ərazinin qorunma xüsusiyyətləri və maskalanma vasitələrindən istifadə etməklə müxtəlif fəaliyyətləri yerinə yetiriblər.

Plana uyğun olaraq döyüş meydanında qrupun qarşılaşa biləcəyi manevrlər dəf ediləcək şərti düşmənin yerləşmə məntəqəsinə qəfil basqın icra edilib. Düşmənin komanda-idarəetmə məntəqələri, rabitə mərkəzləri sıradan çıxarılıb, eləcə də canlı qüvvəsi zərərsizləşdirilib.

**XQ**

# Heydər Əliyev irsi və Azərbaycan gəncliyi




**Dünən Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Keçmişə ehtiram, gələcəyə inamla: Heydər Əliyev irsindən bəhrələnən müasir Azərbaycan gəncliyi" mövzusunda tədbir keçirilib.**



YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, anadan olmasının 100-cü ildönümünü dərin ehtiramla və böyük minnətdarlıqla qeyd etdiyimiz Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə taleyüklü qərarları ilə ölkəni tənəzzüldən xilas edərək sabitlik və inkişaf yoluna çıxarıb, məqsədyönlü və uzaqgörən siyasəti ilə respublikamızın gələcək inkişaf yolunu müəyyən edib. Ulu öndərin Azərbaycanın parlaq gələcəyi naminə müstəsna xidmətlərindən biri də mükəmməl və milli gənclər siyasətininəsaslarını yaratmasıdır.

YAP İdarə Heyətinin üzvü, ADNSU-nun rektor əvəzi Vazeh Əskərov, Elm və təhsil naziri Emin Əmrullayev, Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və digər çıxış edənlər bildiriblər ki, gənclərin daim inkişaf etməsi və cəmiyyət həyatında öz layiqli yerini tutması məhz Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin inamla davam etdirdiyi gənclər siyasətinin nəticəsidir.

**XQ**

# Azərbaycan – Qazaxıstan: Əlaqələrin inkişafına xüsusi önəm verilir

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Qazaxıstan Prezidentinin müşaviri Kanat Bozumbayev ilə görüşüb.**



Görüşdə hər iki ölkənin dövlət başçılarının qarşılıqlı hörmət prinsiplərinə əsaslanan əlaqələrin müxtəlif istiqamətlər üzrə inkişafına xüsusi önəm verdiyi vurğulanıb.

Bildirilib ki, ikitərəfli iqtisadi əməkdaşlığın genişlənməsində qarşılıqlı səfərlər, imzalanmış sənədlər, keçirilən tədbirlər mühüm rol oynayır. Bununla yanaşı, ölkələrimiz İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli əməkdaşlıq edir.

Tərəflər iqtisadi əlaqələrin inkişafı perspektivləri, ticarət dövriyyəsinin artırılması, investisiyaların təşviqi və nəqliyyat–tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi barədə fikir mübadiləsi aparıblar.

**XQ**

# XİN: Braziliya ilə əməkdaşlığımız genişlənəcək

**Azərbaycan ilə Braziliya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümüdür.**



Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyi sosial şəbəkədə paylaşım edib.

"Bu gün, 30 il əvvəl Azərbaycan ilə Braziliya arasında diplomatik münasibətlər qurulub. Bu əlamətdar günlərlə əlaqədar dost Braziliya xalqına ən xoş diləklərimizi göndərir və ikitərəfli əməkdaşlığımızın daha da genişləndirilməsini səbirsizliklə gözləyirik!", – paylaşımda qeyd olunub.

**XQ**

# Samvelsayağı Alma-Ata Bəyannaməsi

## yaxud “artsax”çıların “cəhənnəm ismarıcları”

(əvvəli 1-ci səhifədə)

Diqqət yetirək: Ermənistan Respublikasının müstəqilliyi 23 sentyabr 1991-ci ildə elan olunub. Əgər 26 noyabr 1991-ci ildə Azərbaycan özünün qanuni ərazisindəki muxtar qurumu ləğv edibsə, belə nəticəyə gəlmək mümkündür ki, Ermənistanın 23 sentyabr 1991-ci ildə elan etdiyi müstəqilliyin əsasını təşkil edən və rəsmi şəkildə bəyan olunmuş baza aradan qalxmış durumdadır. Nəzərə alaq ki, ölkənin istiqlaliyyət bəyannaməsində sənədin hazırlanması barədə qərarın Ermənistan SSR Ali Soveti və Dağlıq Qarabağ Milli Şurası tərəfindən 1 dekabr 1989-cu ildə çıxarıldığı vurğulanıb. Yəni faktiki olaraq hazırda Ermənistan Respublikasının mövcudluğu qeyri-qanunidir. Görünür, həm də buna görə ölkənin baş naziri Nikol Paşinyan bir neçə ay əvvəl respublika üçün şəhadətnamə, loru dildə desək, “kupça” almaqdan söz açırdı. Çünki o, yaxşı bilir ki, Ermənistan üçün yaranma özəyi doğru deyil. Onu da nəzərə alaq ki, hayların istiqlal bəyannaməsində qonşu ölkələrə ərazi iddiası əksini tapıb. Yeri gəlmişkən, Ermənistan konstitusiyası da özünün istinad mənbəyini istiqlal bəyannaməsindən götürür. Bu isə faktiki olaraq o deməkdir ki, ölkənin əsas qanunu Azərbaycana və Türkiyəyə ərazi iddiasını təsdiqləməkdədir.

Bəli, qondarma “DQR” də ərazi iddiasının “məhsulu” kimi meydana çıxan quruluş olub və otuz ilə yaxın müddətdə bu “ampluada” fəaliyyət göstərib. S.Şahramanyanın elan etdiyi qərar isə separatçı mahiyyətli qurumun ləğvini vurğulayırdı. Ancaq dediyimiz kimi, indi Samvel bildirir ki, ləğv-filan yoxdur. Nəinki yoxdur, ona və Azərbaycanda həbsdə yatmaqdan canını qurtarmış beş-altı adama İrəvanda mənzil-qərargah verilib. İndi necə başa düşək? İstər-istəməz belə düşünməliyik ki, Ermənistan öz ərazisində Azərbaycana ərazi iddiası irəli sürən, özünü qanuni əsaslı adlandıran bir qurum, daha doğrusu, qruplaşma bəsləyir. Heç şübhəsiz, bu, Ermənistandan Azərbaycana qarşı təhlükənin olduğu anlamını daşıyır.

Ermənistanın Azərbaycana qarşı təhlükəliliyini təsdiqləyən digər məsələlər də var. Yəni, rəsmi İrəvanın hazırkı fəaliyyəti də bunu söyləməyə əsas verməkdədir. Başqa sözlə desək, Şahramanyanın “Artsax sağdır” deyərək bildirdikləri Ermənistanın həyata keçirdiyi kursdan aydın görünməkdədir. Məlum olduğu kimi, hazırda rəsmi İrəvan bütün beynəlxalq platformalarda Azərbaycanın, guya, Qarabağda etnik təmizləmə gerçəkləşdirdiyi məntiqini irəli sürməkdədir. Mövcud “dəst-xətt” bölgənin erməni sakinlərinin evlərinə qayıtmalarını nəzərdə tutur. Sən demə, bu qayıdış üçün “şərtlər” müəyyənləşməli imiş. Məsələni həm baş nazir Nikol Paşinyanın administrasiyası, həm də xaricdəki ermənipərəstlər öz aləmlərində kifayət qədər korrektə etdiklərini düşünürlər. Formul da fikirləşiblər – təhlükəsiz və ləyaqətli qayıdış. Yəni, təhlükəsizliyi və ləyaqəti BMT sülhməramlıları təmin edəcəkmiş. Görünür, İrəvanda oturub ağlına gələni zoğallayan Şahramanyan da başının dəstəsi ilə yenidən Xankəndiyə qayıdıb indi Dövlət Təhlükəsizliyi Xidmətinin istintaq təcridxanasında olan sabiq separatçıbaşı Arayik Arutyundan “miras qalan” kresloda oturacaqmış. Böyür-başında da BMT-nin sülhməramlı zabitləri əyləşəcəkmiş. Nə gözəl! Arada müstəqillik zəngulələri də vurmaq olar! Nə qədər olmasa, ləyaqəti qoruyan olacaq axı! Ən əsası isə “referendum” var!

Bəli, Ermənistanın istədiyi budur. Baxın, ölkənin xarici işlər nazirinin müavini Vahaan Kostanyan bildirib ki, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıması “Artsax” ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini arxa plana ata bilməz. Yenə də, “Artsax” ifadəsi. Elə bu ifadənin işlədilməsinin özü artıq ərazi iddiasıdır. Sual olunur: bir dövlətin başqasının suveren ərazisindəki bölgəni özü istədiyi tərzdə adlandırması nə deməkdir? İndiki halda bu, tamamilə yolverilməzdir. Çünki ortada böyük münaqişə olub. Deməli, İrəvan tərəfindən suverenliyimizin tanınması mənasız şeydir. Şahramanyanın diqqətə çatdırdığımız fikirləri də həmin mənasızlığın əyani göstəricisidir.



S.Şahramanyanın məlum açıqlaması, əslində, Ermənistan hakimiyyəti ilə yanaşı, xaricdəki anti-Azərbaycan qüvvələrin, ayrı-ayrı Qərb dövlətlərinin müxtəlif orqanlarının, bəzi beynəlxalq təşkilatların qaldırdıqları Qarabağda etnik təmizləmə vay-şivənini də alt-üst edir. Bir daha təsdiqlənir ki, onların sentimentallığa, insan hüquqlarına bürünmüş oyunlarının arxasında Azərbaycan torpaqlarına qəsb niyyəti dayanır. Başqa sözlə desək, bu qüvvələr İrəvanın ölkəmizə qarşı ərazi iddiasının gerçəkləşməsinə dəstək verirlər.

Samvelin “Artsax” sağdır” ritorikası, eyni zamanda, Azərbaycan-Ermənistan sülh danışıqlarına da təsir göstərən amildir. Ermənistan rəhbərliyi bütün platformalarda bəyan edir ki, Azərbaycanın 86,6 min kvadratkilometlik ərazidə suveren hüquqlarını tanıyır və o əraziyə Qarabağ da daxildir. Hər halda separatçıya öz ərazisində sığınacaq vermək və onun ağzına gələni danışmasını tirajlamaq tanıma sayıla bilməz. Belə olan halda İrəvanın Azərbaycanı 29,8 min kvadratkilometrlik ərazidə Ermənistanın suveren haqlarını tanımağı rəsmiləşdirməyə çağırması da yumşaq desək, düzgün deyil. Bakı necə bu tanımaya getsin ki, İrəvan separatçıya imkan və şərait yaradıb, onun çərənləməsinə, hansısa referendumdan danışmasına göz yumur? Hər halda, ölkəmiz özünə qarşı ekstremizm bəsləyən bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşa bilməz.

İndi S.Şahramanyanın məlum açıqlaması ilə bağlı bir vacib məqamın üzərində də dayanaq. Məlum olduğu kimi, Ermənistan rəhbərliyi, o cümlədən baş nazir N.Paşinyan tez-tez ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü 1991-ci ilin Alma-Ata Bəyannaməsinə əsasən tanıdığını vurğulayır. Ancaq vaxtilə İrəvanda bildirirdilər ki, SSRİ dağılandan sonra Azərbaycan necə öz müstəqilliyini elan edibsə, “Dağlıq Qarabağ” da eyni addımı atıb, öz müqəddaratını müəyyənləşdirib və s. Müqəddərat isə Samvelin haqqında söz açdığı “referendum”dan qaynaqlanıb.

O zaman tarixlərə diqqət yetirək. Alma-Ata Bəyannaməsi 1991-ci il dekabrın 21-də imzalanıb. Yəni, separatçıların Qarabağda saxta “referendum” keçirmələrindən 11 gün əvvəl. Bu məntiqlə Paşinyan və komandası deyə bilər ki, Alma-Ata Bəyannaməsinə qədər nə olubsa-olub. Belədə Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıma da, əslində, heç nəyi dəyişmir. Çünki hüquqi baxımdan yanaşsaq, Alma-Ata Bəyannaməsində onun imzalandığı tarixə qədər özünü “müstəqil” adlandırmış Qarabağla bağlı heç nə yoxdur. Əslində, Şahramanyanın “Artsax”ın fəaliyyətini dayandırmasına dair fərmanfason kağız parçası da tam mənasızdır. O anlamda ki, qondarma quruluş nədir ki, onun özünü buraxmaq sənədi də nə ola? Rədd olub getməlidir və gedib də. Vəssalam!

Ancaq yenə də bildirək ki, Samvelin hazırda Ermənistan ərazisində oturub “referendum zəngulələri” vurması və “DQR”in “ölmədiyini” bildirməsi, bax, buna təhlükə mənbəyi kimi yanaşmaq mümkündür. Nəzərə alaq ki, İrəvan otuz ilə yaxın müddətdə Alma-Ata Bəyannaməsinin Azərbaycanın ərazi bütövlüyü məntiqini heçə sayıb. Özü də bunu “DQR”in müstəqilliyi kontekstində edib. Yəqin elə bu məntiqlə də Şahramanyanı mənzil-qərargahla təmin edib. Deməli, Samvelin açıqlaması həm də Paşinyan iqtidarının Azərbaycanla sülh prosesindəki qeyri-səmimiliyinin göstəricisidir və Ermənistanı ölkəmizin ərazi bütövlüyünü təhdid hədəfinə çevirməkdədir. Yaxşı olar ki, rəsmi İrəvan bunu düşünsün. Əks halda, Azərbaycanı təhdidə köklənmiş bütün hədəflərin, onların harada yerləşməsindən asılı olmayaraq, susdurulması məsələsi aktuallaşa bilər.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

---

(əvvəli 1-ci səhifədə)

# Qərbin iflasa məhkum “siyasi şou”su

## Meyitlərlə alver edən İrəvanın Bakıya qarşı körüklədiyi “səlib yürüşü” də faydasız olacaq

### Bəs o cəsədlər kimindir?

Müvəkkil Anait Manasyanın açıqlamasında cəsədlərin konkret kimlərə məxsus olduğu, hansı şəraitdə və harada tapıldığı barədə heç nə deməməsi diqqəti cəlb edən məqamdır. Yəni burada söhbətin heç kim və heç nə barədə getdiyi üzə çıxır. Həlak olan qadın və uşaqlarla bağlı deyilənlərin də nəyə söykəndiyi qətiyyən aydın deyil. Bəli, İrəvanın yeni “feyk” partiyası göz önündədir. Axı, ən düzgün variantda burada söhbət Azərbaycanın Qarabağdakı silahlı quldurları suveren ərazimizdən təmizləmək üçün həyata keçirdiyi 23 saatlıq antiterror tədbirləri zamanı öldürülən erməni əsgərlərin meyitlərindən gedə bilər. Ombudsman təkidlə o tarixi göstərsə də, yalnız mülki şəxslərin ölümündənn danışır. Bəlkə həmin cəsədlər sentyabrın 25-də Xankəndidə yanacaqdoldurma stansiyasında baş vermiş dəhşətli patrtlayış və yanğında ölənlərə məxsusdur? Bu, Qarabağın çoxsaylı dinc erməni sakininin həlak olduğu yeganə faciəvi hadisədir. İrəvan, çox güman ki, həmin dəhşətli hadisə nəticəsində ölənlərin meyitlərini “etnik təmizləmə qurbanlarının” cəsədləri kimi təqdim etməklə, Bakıya qarşı yeni və “səs-küylü” təxribatın baş tutacağına ümid edir. Deməli, Ermənistan hakimiyyəti meyitlər üzərində “siyasi alveri” özünə sığışdıracaq qədər aşağı yuvarlanıb.

Yaxın günlərdə zəruri qrimdən, fotoşopdan istifadə etməklə “tələb olunan” vəziyyətə gətiriləcək cəsədlərin fotoşəkilləri yerli və xarici KİV-də yayımlansa qətiyyən təəccüblənməyəcəyik. Əsas məsələ beynəlxalq miqyasda ajiotaj yaratmaqdır. Amma bu “qurama səhnənin” bir “əmması” da var. Əgər bu “siyasi tamaşada” partlayışda ölənlərin meyitlərindən istifadə ediləcəksə, onda hayların “ideoloji işbazları” ciddi səhvə yol veriblər – yanacaqdoldurma məntəqəsində partlayışın baş verdiyi gün Azərbaycan hərbçiləri hələ Xankəndidə yox idi!

Bir versiya da var. Əgər sabah-birisigün üzə çıxsa ki, cəsədlərini “etnik təmizləmənin əşyayi-dəlili” kimi dünyaya nümayiş etdirəcəkləri həmin Qarabağ ermənilərini özləri işgəncə verərək qətlə yetiriblər, yenə təəccüblənməyə dəyməz. Çünki hayların, yeri gələndə, “milli maraqları naminə” soydaşlarını




da qurban vermələrinin “tarixi ənənəsi” mövcuddur. 1918-ci ilin martında daşnaklar Bakıda Azərbaycan türklərinə qarşı etnik təmizləməni, soyqırımı məhz özlərinin qətlə yetirdiyi bir erməninin cəsədini müsəlman məhəlləsinə atmaqla başlamışdılar.

### Mövsümi tərəfdaşların hay “canfəşanlığı”

Cənubi Qafqazda, Azərbaycan və Ermənistan arasında yaranmış son vəziyyətə, sentyabrın 20-də həyata keçirilən antiterror tədbirlərinin mahiyyətinə və nəticəsinə ədalətlə yanaşmayan Qərbin haypərəst dairələri Azərbaycanı “etnik təmizləmə”də ittiham etməyə girişiblər. Bizi dünya ictimaiyyətinə “işğalçı”, “anti-humanist” ölkə kimi təqdim etmək cəhdləri özünü açıq şəkildə büruzə verir. Bir mərkəzdən təşkil və idarə olunduğu şübhə doğurmayan bu “siyasi şou” Avropa Parlamenti, Avropa İttifaqı, Fransa, Niderland, Kanada, Almaniya və digər ölkələrin sərgilədiyi mövqelərdə aydın görünür. İndi bu “siyasi şou”ya Çexiya parlamenti qoşulub. Bu ölkənin qanunverici orqanı Bakını “Qarabağda yerli əhali ilə davranışı müşahidə etmək üçün beynəlxalq müşahidəçilərin bölgəyə girişinə imkan verməyə, tarixi və dini abidələri qorumağa” çağırır. Mesaj aydındır. İrəvanın və onun xaricdəki havadarlarının düzənlədiyi “Qarabağda etnik təmizləmə” şousuna BMT-dən qəti və birmənalı cavab verilib: bölgəni tərk edən etnik ermənilərə qarşı təzyiq və zorakılıq faktı mövcud deyil. Yəni, BMT Azərbaycanın Qarabağ bölgəsini öz istəkləri ilə tərk edib Ermənistana köçənlərin pis rəftara məruz qalmadığını açıqlayıb. Həm də bu açıqlamanı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İrəvandakı nümayəndəsi Kavita Belani oktyabrın 2-də qurumun Cenevrə ofisinin həftəlik mətbuat konfransında çıxışı zamanı verib: “Bizə məlumdur ki, indiyədək ermənilərə qarşı bir pis rəftar halı, hər hansı insident qeydə alınmayıb. Düzdür, bu, uzun yoldur, həmin vaxt tıxac insanları çətin vəziyyətə salır. Amma azərbaycanlılar tərəfindən pis rəftar faktı qeydə alınmayıb”.

Azərbaycan hakimiyyəti nəinki Qarabağ ermənilərini köçməyə vadar etdi, əksinə, onların reinteqrasiyasını istədiyini bildirdi. Sakinlərə ərzaq paylandı, tibbi yardım göstərildi. Dövlətimizin bu tolerant və humanist mövqeyini hətta bizi istəməyən qüvvələr də rəsmən etiraf etdilər. Fəqət ABŞ və Avropa İttifaqının BMT missiyası və ya beynəlxalq müşahidıçilərin Qarabağa yerləşdirilməsi ilə bağlı təklifinə rəsmi Bakının dolayısı ilə yox deməsi, əlbəttə, Qərbi məyus edib. Bu səbəbdən “etnik təmizləmə” ittihamları, “Qarabağ ermənilərinin təhlükəsiz qayıdışına təminat” tələbi kimi “ssenarilər” dövriyyəyə buraxılıb. Amma Azərbaycana ədalət prinsipindən və beynəlxalq hüquqdan kənar münasibət sərgilədikcə Qərbin bölgədəki mövqeyinin zəifləyəcəyi şəksizdir. Ermənipərəst və fürsətgir xarici aktorları narahat edən Prezident İlham Əliyevin xalqa müraciətində yerli problemləri region dövlətlərinin öz aralarında həll etmək təklifi oldu. Rəsmi Bakının “3+3” formatlı regional əməkdaşlığın tərəfdarı olması, Rusiya, Türkiyə və İranın da buna müsbət yanaşması Cənubi Qafqazın siyasi coğrafiyasını dəyişir. Bu yeni reallıq bölgədən öz paylarını umanların kürkünə birə salıb.

### İnformasiya məkanı çirkləndirilir

Ətraf mühiti zərərli istehsal sahələrinin tullantıları çirkləndirdiyi kimi, hayların ideoloji təxribat və siyasi şantaj “kombaynı” da hazırda Qərbin və dünyanın informasiya məkanını mümkün qədər çox zibilləməklə məşğuldur.

Ümumiyyətlə, ortada aşkar görünən fakt ondan ibarətdir ki, Paşinyan və onun komandası “Qarabağ uğrunda” mübarizənin yeni mərhələsinə keçməyə qərar verib. Hər şeydən göründüyü kimi, bu utopik məsdəqlərinə çatmaqdan ötrü onların əlləri çatan bütün vasitələrdən – saxtakarlıqdan, yalan və böhtandan gen-bol yararlanacağı şübhəsizdir. Bu məqsədə çatmağın yolunda Azərbaycana qarşı pərdələnmiş “səlib yürüşünü” təşkil etməkdən belə çəkinməyən İrəvan və onun himayədarları beynəlxalq səhnəyə çıxara biləcəkləri bütün “arsenalı” işə salıblar. Bu “siyasi hücümün” təşkilində hayların “harayına züy tutan” avropalı siyasətbazlarla yanaşı, müxtəlif beynəlxalq təkilatlarda və ölkələrdəki lobbilər də yaxından iştirak edirlər. Kollektiv təşkilatçılığa informasiya dəstəyi verən ermənipərəst media resursları isə dünyanın xəbər məkanını müxtəlif “tullantılarla zibilləməklə” məşğuldurlar. Bu zaman “feyk” yaratmağın ən müasir, modern üsullarından yararlanmağı da unutmurlar.

### Bakıdan Parisə “çələng” hədiyyəsi

Bu günlərdə dünyanın dörd tərəfindən Bakıya toplaşmış keçmiş müstəmləkə sakinləri maraqlı çıxışlar etdilər. Müxtəlif dövrlərdə Fransanın müstəmləkəçiliyindən əziyyət çəkmiş Əlcəzair, Korsika, Mali, Keniya, Mərakeş, Qvadelupa, Yeni Koledoniya, Polineziya, Fransa Qvineyası və digər ölkələrin rəsmi təmsilçiləri milli tarixlərində ədalətsizlik və haqsızlıq ucbatından çəkdikləri əzab və məşəqqətləri dilə gətirdilər. Onların hamısı bir ağızdan Parisin xüsusilə Afrika qitəsində yürütdüyü neokolonalizm siyasətinin bu gün tamamilə iflasa uğradığını, bir daha müstəmləkə istibdadının qitədə meydan sulamasına yol verilməyəcəyini dedi.

İlk baxışda Bakıda keçirilən neokolonalizmə dair beynəlxalq konfrans mövzumuza aid görünməyə bilər. Amma bu tədbirin indi haylara qucağını açıb, Azərbaycana qarşı hər cür təxribatlara rəvac verən Parisdə necə qarşılanacağı bizi çox maraqlandırır. Ehtimal edə bilərik ki, Bakı konfransına təşrif buyurmuş qonaqların siyahısı ilə tanış olandan sonra Yelisey sarayındakı rəsmilərdən kimsə huşunu itirə bilər. Yoxsa Emmanuel Makron haylara xidmətinə görə Bakıdan “minnətdarlıq çələngi” gözləyirdi?

***İ.HƏSƏNQALA***
***XQ***

# Ermənistan revanşizmə sürüklənir

## Haylar başa düşməlidirlər ki, heç kim onların əvəzinə bizimlə döyüşməyəcək

(əvvəli 1-ci səhifədə)

Ötən yazılarımızda qeyd etdiyimiz kimi, belə ölkələrin başında Fransa dayanır. Paris təsirinin güclü olduğu bəzi Avropa ölkələrini, "qoca qitə"nin müxtəlif təşkilatlarını məlum çirkin işə səfərbər edib. Bu isə bütövlükdə, Qərbin Cənubi Qafqazdakı proseslərə, Azərbaycanla Ermənistan arasında mövcud olan vəziyyətə, sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərinin mahiyyətinə və nəticəsinə ədalətsiz yanaşmasına gətirib çıxarıb. Azərbaycan xalqının və dövlətinin tarixində heç zaman soyqırımı, etnik təmizləmə törədilməsi kimi halların baş vermədiyinə və bunu bütün dünyanın yaxşı bildiyinə baxmayaraq, Qərb dairələri tərəfindən əsassız şəkildə və israrla Azərbaycanı "etnik təmizləmə" siyasəti həyata keçirən ölkə kimi təqdim etmək cəhdləri son vaxtlar özünü açıq büruzə verir. Fransa ilə yanaşı, Avropa Parlamentinin, Avropa İttifaqının, Niderlandın, Almaniyanın və digər bəzi ölkələrin mövqeyində bu xətt aydın görünür.

Xüsusilə Avropa Parlamentinin oktyabrın 5-də keçirilən iclasında ölkəmizlə bağlı qərəzli, birtərəfli və obyektiv reallığı əks etdirməyən qətnamənin qəbulu qitənin digər ölkələri üçün bir növ siqnal rolunu oynayıb. Avroparlamentin qətnaməsi onlar üçün oryentirə çevrilib desək, yəqin ki, yanılmarıq. Məhz Avropa Parlamentinin çıxardığı qətnamədən sonra Avropa Şurası Parlament Assambleyası, İspaniya, Avstriya, Çexiya parlamentləri də buna bənzər fikirlərin yer aldığı sənədlər qəbul ediblər. Onlar sanki Avroparlamenti yamsılamaq yolunu tutublar. Görünür, bu ölkələrin parlamentləri emrənipərəst dairələrin əlində alətə çevrildiklərinin fərqində deyillər. Bu sıraya ATƏT-in fəaliyyətdə olan sədrinin də qoşulması təəssüf doğurur.

Hətta, son zamanlar uzaq Kanadanın ölkəmizə dil uzatması da Fransanın Ottava üzərindəki təsirinin nəticəsidir. Belə ki, Kanada ərazisinin böyük hissəsi bir vaxtlar fransız müstəmləkəsi olub. Bunun nəticəsidir ki, Paris indiyədək Kanada üzərində təsirini qoruyub saxlaya bilib. Bundan əlavə, Kanada fransız dilində danışan ölkələrin cəmləşdiyi Beynəlxalq Frankofoniya Təşkilatında təmsil olunur.

Qərbin Ermənistanı revanşizmə sürükləməsi özünü bir neçə istiqamətdə göstərir. Bura ilk növbədə Ermənistana "humanitar ehtiyaclarının ödənməsi" adı altında ardıcıl maliyyə yardımının göstərilməsi daxildir. Qarabağdan erməni əhalinin Ermənistana köçü Nikol Paşinyan üçün Qərbdən pul qoparmaq vasitəsinə çevrilib. O, bu məqsədinə qismən müvəffəq olub. Xüsusilə Avropa Siyasi Birliyinin oktyabrın 5-də İspaniyanın Qranada şəhərində keçirilən III sammiti Paşinyan üçün göydəndüşmə olub. Baş nazir avropalı həmkarları ilə apardığı qısamüddətli danışıqlarda onlardan Qarabağ erməniləri adına pul istəyib. Zəngin Avropa dövlətləri isə hayların halına acıyaraq, Paşinyanın xahişinə "yox" deməyiblər. Əsas dəstəyi isə Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin göstərdiyi açıqlanıb. Xanım Lyayen Paşinyanla Qranadada görüşdən sonra qeyd etmişdi ki, Avropa İttifaqı Qarabağ ermənilərinin humanitar problemlərinin həllinə kömək etmək üçün Ermənistana lazımi dəstəyi verməyə hazırdır. Görüşün yekunu üzrə qəbul edilən birgə bəyanatda deyilirdi: "Bu həftənin əvvəlində müzakirə etdiyimiz kimi, bizim bilavasitə diqqətimiz Ermənistana qaçmış 100 mindən çox Qarabağ ermənisinin humanitar ehtiyaclarının ödənilməsinə yönəlib. Biz Avropa İttifaqı tərəfindən 10,45 milyon avro təşkil edəcək humanitar yardımın və digər təcili dəstəyin maksimum effektivliyini necə təmin edəcəyimizi müzakirə etdik".

Bundan əlavə, Ursula xanım birgə bəyanatda Avopa Komissiyasının büdcə dəstəyi olaraq Ermənistana illik proqramından 15 milyon avro ayırmaq üçün maliyyə səfərbər etdiyini açıqlayıb. Qeyd olunub ki, bu, Ermənistan hökumətinə təcili sosial-iqtisadi ehtiyacları həll etməyə, ərzaq və yanacaq tədarükünü dəstəkləməyə imkan verəcək.

Əlbəttə, bu maddi dəstək Paşinyan hökumətinə səbəbsiz verilmir. Necə deyərlər, havayı pendir heç siçan tələsindədə olmur. Bu pullar Ermənistana onun son vaxtlar Qərbin bölgədəki maraqlarının təmsilçisinə çevrildiyi üçün ayrılır. Qarşılığında isə Qərb Ermənistandan Rusiyaya qarşı istifadə etməyə çalışacaq. Qərb Paşinyan iqtidarının timsalında bölgədə yeni dayaq məntəqəsi formalaşdırır. İrəvan–Moskva münasibətlərində soyuqluğun yarandığı bir vaxtda Ermənistan Avropa üçün xüsusilə "cəlbedici" ölkəyə çevrilib.

Oktyabrın 23-də Avropa İttifaqına üzv 27 ölkənin xarici işlər naziri Ermənistana yardımın göstərilməsi və onun Aİ-yə yaxınlaşdırılması məsələsini müzakirə edəcəklər. Bu barədə Brüsseldə jurnalistlərə Aİ-nin yüksək vəzifəli nümayəndəsi xəbər verib: "Biz Ermənistanı dəstəkləmək, onun dayanıqlığını möhkəmləndirmək istəyirik. Ermənistan demokratik ölkədir. Biz Ermənistanı Aİ-yə yaxınlaşdırmaq istəyirik".

Diplomatın sözlərinə görə, xarici işlər nazirləri Ermənistan və Azərbaycan arasında danışıqlarda Aİ-nin vasitəçilik səylərini də müzakirə edəcəklər: "İki ölkə arasında sülh danışıqlarını irəli aparmaq lazımdır. Orada bir sıra məsələlər, o cümlədən sərhədin demarkasiyası var".



Mövcud xüsusda son vaxtlar Ermənistanın silahlandırılması istiqamətində atılan addımlar da nəzərdən yayınmır. Burada da əsas canfəşanlıq edən Fransadır. Emmanuel Makron hökuməti İrəvana öldürücü silahlar tədarük edəcəyi vədini verib. Fransanın Ermənistandakı səfirliyində silah tədarükünün əlaqələndirilməsi üçün xüsusi hərbi attaşe təyin olunub.

Bundan əlavə, Avropa İttifaqının bu ölkədəki mülki müşahidə missiyası (EUMA) adlanan, əslində isə hərbiləşdirilmiş missiyasının müddətinin uzadılması və tərkibinin genişləndirilməsi ehtimalı da yüksəkdir. Bunu da Brüsseldə jurnalistlərə Aİ-nin yüksək vəzifəli nümayəndəsi bildirib. Qeyd edib ki, bu addım Azərbaycan tərəfindən respublikanın suverenliyinə və ərazi bütövlüyünə "təhdidlərə" cavab olaraq atıla bilər.

Bəzi Avropa ölkələrində son vaxtlar Paşinyan başda olmaqla Ermənistan rəsmilərinə edilən siyasi reveranslar (Avropanın bəzi ölkələrində incə şəkildə əyilərək salamlamaq, ehtiram ifadə etmək, təşəkkür, görüş və ya xudahafizləşmək jesti-S.H.) da diqqətdən yayınmır. Bütün bunlar Qərbin ikiüzlülüyünə, ikili standartlarına və riyakarlığına heç bir şübhə yeri qoymur.

Halbuki, normalda Avropa dövlətləri və qurumları Azərbaycanın özünün dünya birliyi tərəfindən tanınmış ərazisində Ermənistanın qurub yaratdığı separatçı rejimi ləğv etməsini və qeyri-qanuni erməni silahlı qüvvələri tərəfindən təhlükəsizliyinə əsas təhdidin aradan qaldırılmasını alqışlamalı idilər. Ancaq onlar əvəzində Azərbaycanı ləkələyən məkrli siyasət yürütməkdə davam edirlər. Bu siyasət isə beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də BMT-nin dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə hörmətlə bağlı öhdəliklərini təsdiq edən əsas qərar və sənədlərinə açıq şəkildə zidd olmaqla yanaşı, Ermənistanı Azərbaycana qarşı növbəti təcavüzə və revanşizmə təhrik edir. Qərb ölkələri terrorçuluğa qarşı 24 saatlıq lokal xarakterli tədbirlərə aparan hadisələri də təhrif olunmuş şəkildə təqdim edirlər. Ölkəmizin hər hansı etnik təmizləmə və zorakılıq törətmədiyi isə BMT-nin regiona həyata keçirilən iki missiyası tərəfindən təsdiqlənib. Eyni zamanda, Azərbaycanın beynəlxalq humanitar hüquqa hörmətlə yanaşmasına və erməni mülki sakinlərin ziyan görməməsi üçün həyata keçirilmiş müvafiq tədbirlərə etinasız yanaşılması ölkəmizə qarşı uzunmüddətli qərəzin göstəricisidir.

Ancaq Ermənistanda başa düşməlidirlər ki, hayları revanşizmə sövq edənlər onların əvəzindən bizimlə döyüşməyəcəklər. Zənnimizcə, bu məqamda iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərdən iqtibas gətirmək yerinə düşər: "Əks halda, düşünürəm ki, kiminsə gəlib onların yerinə döyüşəcəyinə indi yalnız sadəlövhlər bel bağlaya bilər. Onların reallıqları anlaya bilməsi və barışması üçün bir neçə mərhələ olub. Onlar müxtəlif instansiyalara, qonşulardan başlayaraq uzaqda yerləşən bəzi ölkələrə qədər müxtəlif dövlətlərə müraciət ediblər. Amma, zənnimcə, ağlı başında olan heç kim Azərbaycanın ərazisində bizimlə döyüşməyəcək. Ona görə də onlar sonunda bu reallıqları başa düşməli və barışmalıdırlar. Artıq söylədim ki, işğal dövründə vasitəçilər mənə dəfələrlə deyirdi ki, "Birinci Qarabağ müharibəsi belə qurtarıb, siz reallıqları qəbul etməlisiniz". Lakin mən onları qəbul etmirdim və etmədim. Ancaq indi mən yenə də deyirəm: gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq. Bu səbəbdən ümid edirəm ki, onlar bu sözləri eşidəcək və düzgün nəticə çıxaracaqlar".

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Sentyabrın 19-da başlanan və bir sutkadan az davam edən lokal antiterror tədbirləri ərazi bütövlüyümüzün təmin edilməsi, suverenliyimizin, Konstitusiya quruluşumuzun bütün ölkə ərazisində bərqərar olunması ilə nəticələndi. Qeyri-legitim, hüquqdan kənar heç bir addım atılmadı. Əksinə, Azərbaycan terrorçuluğa qalib gəldi və beynəlxalq sülhə töhfə verdi. Azərbaycan yalnız terrorçu qrupların və dəstələrin zərərsizləşdirilməsini həyata keçirdi. Antiterror tədbirləri zamanı heç bir mülki infrastruktur dağıdılmadı, dinc şəxsə zərər yetirilmədi. Bu da tədbirlərin peşəkarlıqla keçirilməsinin nəticəsidir.

Qərbi isə Cənubi Qafqazda gedən proseslərdə hər zaman öz marağı düşündürüb. Əgər onlar beynəlxalq hüququ müdafiə edirlərsə, dünyada demokratiya və insan haqlarının carçısıdırlarsa, məntiqlə Azərbaycanı dəstəkləməlidirlər. Amma biz bunun əksini müşahidə edirik. Bu da Qərbin ikili standarlarından və riyakarlığından irəli gəlir.

Əgər əvvəllər onların Ermənistanı müdafiə etməklə bağlı hərəkətləri daha çox siyasi sahədə, diplomatik müstəvidə müşahidə olunurdusa, son dövrlər həm də hərbi və təhlükəsizlik sahəsinə keçid etmək istəyirlər. Bu, əlbəttə ki, regional təhlükəsizlik nöqteyi-nəzərdən təhdidlər formalaşdırır. Avropa İttifaqının Ermənistanda olan və heç də mülki xarakter daşımayan missiyasının fəaliyyətini daha da genişləndirmək, burada xidmət edən insanların sayını artırmaq və texniki təchizatı gücləndirmək istiqamətində fikirlər ifadə olunur. Bu, siyasi spekulyasiyadır, yalanların tirajlanması və geniş xarakter almasına cəhdlər kimi də dəyərləndirilir.

# Paris və İrəvanın "minalanmış" sifətləri

## Azərbaycan ermənilərin mina "əkinləri"ni ölüm "toxum"larından təmizləyir

**Torpaqlarımızı işğalda saxladığı müddətdə, eləcə də 44 günlük Vətən müharibəsindən sonra Ermənistan, onun Xankəndidəki separatçı-xunta rejimi, demək olar ki, Qarabağın hər qarışına mina döşəyib. Bəli, doğma yurdumuzu işğaldan azad etdikdən sonra biz Ermənistanın mina terroru ilə üzləşmişik. Az qala, hər ay, hər həftə hansısa vətəndaşımız mina terrorunun qurbanı olur. Bu barədə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) məlumatlarını ürək ağrısı ilə oxuyur və dinləyirik.**

İşğaldan azad edilmiş ərazilərimizdə Ermənistanın basdırdığı mina sahələrinin miqyası və kütləviliyi birbaşa mina terrorunun təzahürüdür. Məhz mina terroru, mina müharibəsi! Əslində, separatçılar, erməni vandalları buna üç il əvvəl deyil, on il əvvəldən hazırlıq görüblər. Bir gün torpağımızdan rədd olub gedəcəklərinə əmin olduqları üçün.

* * *

"Azərbaycanın Qarabağ bölgəsində əraziyə baxış zamanı içərisində xeyli sayda müxtəlif təyinatlı mina və kustar üsullarla hazırlanmış əldəqayırma partlayıcı qurğularla dolu anbarlar Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən aşkar edilib". Bu, Müdafiə Nazirliyinin üç gün əvvəl yaydığı məlumatdır. Aşkar edilmiş anbarlarda mövcud minaların bir qisminin 2021-ci ildə Ermənistanda istehsal olunduğu, əldəqayırma partlayıcı qurğuların isə artilleriya mərmilərindən kustar üsullarla hazırlandığı müəyyən edilib.

Hamıya məlumdur ki, lokal xarakterli antiterror tədbirlərindən öncə Ermənistandan Qarabağ bölgəsinə dəfələrlə qanunsuz hərbi daşımaların həyata keçirilməsi barədə Müdafiə Nazirliyi tərəfindən rəsmi məlumatlar verilib. Həmin məlumatlarda erməni quldurlarının Ermənistandan Azərbaycanın Qarabağ iqtisadi rayonuna silah-sursat, eləcə də mina daşıyan hərbi yük maşınların bölgədə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingent tərəfindən müşayiət olunduğu da danılmaz faktdır. Azərbaycan Müdafiə Nazirliyi həmin "səyyar əməliyyatların" foto və video görüntülərini dəfələrlə nümayiş etdirib.

Rəsmi Bakının dəfələrlə çağırışlar etməsinə baxmayaraq, İrəvan hələ də Azərbaycana mina xəritələrini verməyib. Mülki vətəndaşlarımız həmin minaların ya qurbanı olur, ya da xəsarət alır, şikəst qalırlar. Buna dünya da susur, beynəlxalq təşkilatlar da. Fransa isə mina terrorçusunu dəstəkləməkdən əl çəkmir.




"Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində basdırdığı minalar nəticəsində təkcə son 3 ildə 340 azərbaycanlı mina qurbanı olub. Onların arasında mülki şəxslər də var. Bu iki ölkəni bir-birinə belə sıx bağlayan səbəblərdən biri də hər iksinin mina terroru ilə məşğul olmaq təcrübəsidir".

Bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin dünən Bakıda "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətində əksini tapıb.

Həmin müraciətdə cənab Prezident bunları da qeyd edib: "Parisin İnsan Muzeyində müstəmləkə müharibələrində XIX əsrdə qətlə yetirilən döyüşçülərin 18 min ədəd kəllə sümüyü saxlanılır və nümayiş etdirilir. Həmin kəllə sümükləri arasında əlcəzairli döyüşçülərin də kəllə sümükləri var. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbi Fransa tərəfindən hələ də tam yerinə yetirilmir. XXI əsrdə dünyanın çox az dövlətində bu cür təfəkkürə rast gəlmək mümkündür".

Fransanın həm də dünyada ən çox minadan istifadə edən ölkələrdən biri olduğunu konfrans iştirakçılarının nəzərinə çatdıran Prezident İlham Əliyev bu ölkənin ancaq Əlcəzair ərazisində 5 milyondan artıq mina basdırdığını söyləyib.

"Nəticədə Azərbaycan kimi Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələr sırasında ön yerlərdən birini tutur",– deyən dövlətimizin başçısı mina terorçularının siyahısında Fransadan sonra onun yaxın müttəfiqi Ermənistanın gəldiyini qeyd edib.

* * *

Təqdirəlayiq haldır ki, mina terroruna məruz qalmış Azərbaycanın səsinə Avropada səs verənlər tapılır. Britaniya parlamentinin üzvü, Partlayıcı Qurğulardan Qaynaqlanan Təhdidlər üzrə parlament qrupunun sədri Metyu Offord London hökumətini Azərbaycanın minatəmizləmə ilə bağlı təşəbbüsünə dəstək verməyə çağırıb. Parlamentdə "Dayanıqlı İnkişaf məqsədlərinə dair müzakirələr"də çıxış edən deputat ötən ilin mayında Azərbaycanda həyata keçirilən minatəmizləmə fəaliyyəti ilə yerində tanış olduğunu bildirib. Cənab M.Offord ərazilərin minalardan təmizlənməsi nəticəsində insanların öz evlərinə qayıda bilməsi üçün imkanın yaradılmasının vacibliyini qeyd edib. Deputat ərazilərin minadan təmizlənməsinin təkcə mövcud Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması deyil, təhsil və məşğulluq kimi sahələrdə də müsbət nəticələrin əldə edilməsinə göstərdiyi təsiri vurğulayıb. Deputat Britaniya hökumətini Azərbaycanın humanitar minatəmizləmənin BMT tərəfindən 18-ci Dayanıqlı İnkişaf Məqsədi elan edilməsi ilə bağlı təşəbbüsünə dəstək verməyə çağırıb. Düşünürük ki, Birləşmiş Krallığın hökuməti parlament üzvünün çağırışına biganə qalmayacaq və Azərbaycanın təşəbbüsünü dəstəkləyəcək.

* * *

Torpaqlarımızı işğalçılardan azad etsək də, Qarabağın hər tərəfinə minaların basdırılması keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə doğma yurdlarına qayıtması üçün ciddi əngəl olaraq qalmaqdadır. ANAMA ilə yanaşı, bir çox qurumlar, eləcə də qeyri-hökumət təşkilatları baş verə biləcək xoşagəlməz halların aradan qaldırılması - minaların aşkar edilərək zərərsizləşdirilməsi üçün gecə-gündüz çalışırlar. Amma, təəssüf ki, həyata keçirilən irimiqyaslı tədbirlərə baxmayaraq, Ermənistan tərəfinin basdırdığı minaların partlaması nəticəsində zərərçəkənlər barədə məlumatlar eşidirik.

Britaniya kimi digər ölkələr, beynəlxalq təşkilatlar, insan hüquqları müdafiəçiləri də Azərbaycana qarşı mina terroruna biganə qalmamalı, mina xəritələrini verməsini İrəvandan tələb etməlidirlər.

*İmran BƏDİRXANLI*
*XQ*

# “Deklarasiya 20-ci maddə olmadan qəbul edilsin”

## Lissabon zirvəsində dönüş və ya vitse-prezident Albert Qor iddiasından necə döndü?






**“Heydər Əliyev xatirələr işığında” layihəmizin qonağı tanınmış ictimai-siyasi xadim Həsən Həsənovla söhbətimiz davam edir.**

**X SÖHBƏT**

***– Sammitin iclas öncəsi ictimaiyyətə məlum olmayan hadisələr nümayəndə heyətimizin həqiqətən gərgin anlar yaşadığını göstərir. Bəs iclas necə keçdi, eyni gərginlik orada da özünü göstərdimi?***

– İclas başlayanda, bizim bəyanatla bağlı Ermənistanın mövqeyi haqqında məlumatımız yox idi. ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin xarici işlər naziri Flavio Kotti Helsinkidə hazırlanan sənədi elan etdi: “Hamınıza məlum olduğu kimi, son iki ildə Dağlıq Qarabağ münaqişəsinin və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsinin həllində irəliləyiş əldə olunmayıb. Təəssüf hissi ilə qeyd edirəm ki, Minsk konfransının həmsədrlərinin nizamlanma prinsipləri ilə bağlı tərəflərin fikirlərini uzlaşdırmağa yönəlmiş səyləri uğur qazanmadı. Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həllinin tərkib hissəsinə çevrilməli olan üç prinsipi tövsiyə ediblər. Bu prinsiplər Minsk qrupunun bütün üzv dövlətlərinin dəstəyini alır. Bunlar: 1) Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; 2) Dağlıq Qarabağın hüquqi statusu, sazişdə müəyyən edilmiş öz müqəddəratını təyinetmə prinsipinə əsaslanan Dağlıq Qarabağa Azərbaycan daxilində ən yüksək özünüidarəetmə dərəcəsi; 3) Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi, o cümlədən nizamlanmanın müddəalarına bütün tərəflərin əməl etməsini təmin etmək üçün qarşılıqlı öhdəliklər”.

Bunları açıqlayandan sonra sədr əlavə etdi: “Təəssüflə qeyd edim ki, bir iştirakçı dövlət bununla razılaşmadı (Ermənistanın vetosu nəzərdə tutulur). Bu prinsiplər bütün digər iştirakçı dövlətlərin dəstəyini alır. Bu bəyanat Lissabon sammitinin sənədlərinə daxil ediləcək”.

Bundan sonra sammitin sədri məlumat verdi ki, Azərbaycan da sammitdə qəbulu nəzərdə tutulan sənədləri tam “mötərizəyə alıb” (yəni veto qoyub). Bundan sonra diqqətlə zala baxıb sual etdi: “İmkan varmı mötərizələr aradan götürülsün?”

Məsələyə aydınlıq gətirmək üçün Heydər Əliyevə söz verildi. Azərbaycan Prezidenti qeyd etdi ki, “Ermənistan Deklarasiyanın 20-ci maddəsinə (Helsinki sənədi) konsensus vermədiyinə görə, Azərbaycan sammitin bütün qəbul olunacaq sənədlərinə konsensus vermir. Bu məsələ ilə bağlı nəzərinizə çatdırıram, əgər Ermənistan Respublikası 20-ci maddənin (Helsinki sənədi) qəbuluna konsensus versə, mən də bütün sənədlərin qəbuluna konsensus verə bilərəm”.

Levon-Ter Petrosyana söz verildi və o veto qərarını geri götürə bilməyəcəyini bir də təsdiqlədi. İclasda Azərbaycan da, Ermənistan da öz mövqelərində qaldılar. Yəni Ermənistan təkid etdi ki, 20-ci maddə (Helsinki sənədi) Deklarasiyanın tərkibindən çıxarılsın, Azərbaycan isə təkid etdi ki, Ermənistan Helsinki sənədinin üzərindən vetonu götürsün. Gərginlik aradan qalxmadı və iclas davam etdi.

Yaranmış belə bir vəziyyətdə ABŞ-ın vitse-prezidenti Albert Qor çıxış edərək, əslində həmin gecə işlədiyimiz və 53 ölkənin razılaşdığı bəyanatı təklif kimi irəli sürdü. Çıxışının sonunda Albert Qor xüsusi vurğuladı ki, “əgər yaranmış şəraitdə bu mümkün olarsa, bəlkə o zaman Azərbaycan bütün Deklarasiyadan kvadrat mötərizəni (yəni vetonu) çıxarmağa razı olsun”.

Bu çıxışından aydın görünürdü ki, Albert Qor Heydər Əliyevlə görüşündəki mövqeyindən fərqli olaraq, Azərbaycandan artıq birtərəfli vetodan imtina etmək tələb etmir, sadəcə, öz düşündüyünü bəyan edirdi ki, Azərbaycanın istəyi nəzərə alınarsa, o vetodan əl çəkə bilər.

İclasın sədri Albert Qora təşəkkürünü bildirdi və qeyd etdi ki, “bu, çox yaxşı fikirdir” və təklifi açıqladı: “Təklif budur: Deklarasiya 20-ci maddə (Helsinki sənədi) olmadan qəbul edilsin. Bununla bağlı şərt irəli sürən ölkə, yəni Ermənistan istisna olmaqla, bütün ATƏT üzvlərinin dəstəyi ilə burada, yəni Helsinki sənədində sadalanan maddələr sədrin bəyanatına, yəni 53-ölkənin bu gecə hazırlanan Bəyanatına daxil edilsin. Belə olan halda Azərbaycan öz şərtlərindən imtina edib “kvadrat mötərizəni” silə bilərmi?”

Heydər Əliyev, çox lakonik çıxış edərək dedi: “Yaranmış şəraitdə Azərbaycan ATƏT-in fəaliyyətinə, ATƏT-in Lissabon zirvə toplantısına, iki gün ərzində burada toplaşan və Avropada çox mühüm təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə edən həmkarlarına hörmətlə yanaşır. Mötərizənin, yəni vetonun götürülməsinə, iclasımızın sədrinin qeyd etdiyi Bəyanat burada iştirak edən dövlət başçılarının adından verilərsə, bütövlükdə maddə ilə bağlı etirazımızı, yəni vetonu geri götürməyə razılaşarıq”.

İclasın sədri bu mövqeyinə görə Heydər Əliyevə müraciət edərək dedi: “Cənab Prezident, bizi başa düşdüyünüz üçün təşəkkür edirik. Biz bu sənədi olduğu kimi qəbul edə bilərik - görüşdə qəbul edilən düzəlişlə “Lissabon Sammitinin Deklarasiyası” qəbul edilir”.

Söz ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kottiyə verilir: “Mən məsələyə çox ciddi yanaşdıqlarına görə Azərbaycan nümayəndələrinə öz təşəkkürümü bildirmək istəyirəm. Hamınız bilirsiniz ki, son iki ildə Dağlıq Qarabağ münaqişəsinin həllində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində heç bir irəliləyiş əldə olunmayıb. Təəssüf edirəm ki, Minsk Konfransı həmsədrlərinin nizamlanma prinsipləri üzrə tərəflərin mövqelərini yaxınlaşdırmaq səyləri uğursuz qaldı. Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həlli üçün üç prinsip təklif ediblər. Bu prinsiplər Minsk qrupunun bütün üzv dövlətləri tərəfindən dəstəklənir. Bunlar: 1) Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; 2) Dağlıq Qarabağın hüquqi statusu, sazişdə müəyyən edilmiş öz müqəddəratını təyinetmə prinsipinə əsaslanan Dağlıq Qarabağa Azərbaycan daxilində ən yüksək özünüidarəetmə dərəcəsi; 3) Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi, o cümlədən nizamlanmanın müddəalarına bütün tərəflərin əməl etməsini təmin etmək üçün qarşılıqlı öhdəliklərdir. Təəssüf edirəm ki, Ermənistan bunu qəbul edə bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfindən dəstəklənir. Bu bəyanat Lissabon Sammitinin sənədlərinə daxil ediləcək”.

Beləliklə Flavio Kotti Helsinki bəyanatına əsasən gecə hazırladığımız “53 ölkənin nümayəndə heyətləri başçılarının Bəyanatını” səsləndirdi və vurğuladı ki, “bu bəyanat Lissabon Sammitinin sənədlərinə daxil ediləcək”, yəni sənəd rəsmi status aldı.

**– Həsən müəllim, əlbəttə, bu sənədin 2020-ci il Zəferindən sonra Azərbaycan üçün elə bir əhəmiyyəti qalmayıb. Amma hər bir hadisənin öz zamanında çox mühüm əhəmiyyəti olur. Həmin illərdə Lissabon sammitində 53 ölkənin qəbul etdiyi Bəyanatın siyasi mahiyyəti nədən ibarət idi?**

– Birinci əhəmiyyəti ondan ibarət oldu ki, qəbul olunan Lissabon Bəyanatı (Helsinki sənədi əsasında) konsensus almasa da, 53 dövlətin mövqeyi olaraq sammitin rəsmi sənədləri siyahısına daxil olundu. İkinci, Lissabon Bəyanatından əvvəl Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq səviyyədə tanınmış hüquqi baza yox idi. Ermənistanı bu qane edirdi, çünki Lissabondan əvvəl Rusiya, ABŞ və dünyanın digər ölkələrindəki lobbisindən istifadə edərək, Dağlıq Qarabağın hüququnu legitimləşdirməyə və müstəqilliyinə nail olmağa ümid edirdi. Lissabon Bəyanatı qəbul ediləndən sonra bu ümidlər puç oldu. Lissabonda qəbul olunan Bəyanatın üç prinsipi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin hüquqi əsası oldu. Ermənistana və onun havadarlarına aydın oldu ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü pozulmadan həll edilməlidir. Yəni Dağlıq Qarabağ olsa-olsa, yalnız Azərbaycan dövlətinin tərkibində ən yüksək özünüidarə statusu ala bilər. Ermənistan bu sənədin qəbulunda iştirak etməməklə ümid edirdi ki, öz istəyinə nail olacaq. Tarixin inkişafı göstərdi ki, ədalət Azərbaycan tərəfindədir. Prezident və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibənin nəticələri Ermənistanın 30 illik gizli oyunlarını alt-üst edib, tarixin zibilliyinə atdı.

**– Yaxşı, bəs Lissabon sammitində qəbul olunan Bəyanatdan sonra danışıqlar prosesində bir dəyişiklik oldumu?**

– Əlbəttə dəyişdi. Vəziyyət bizim xeyrimizə dəyişdi. Ermənistan iqtidarı ağır siyasi duruma düşdü. Ermənistan dünya miqyasında təcrid olundu. Niyə? Çünki Lissabon hadisələrinə qədər ermənilər dünyanı inandırırdılar ki, Azərbaycan onlara heç muxtariyyət də vermir. Lissabon Bəyanatında elan olunurdu ki, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağıq Qarabağa özünüidarə imkanı verilsin. Bu imkandan isə ermənilər imtina edirdilər. Deməli ermənilər daha çox, yəni müstəqillik istəyirdilər, buna isə Avropa ölkələri hazır deyildilər. Onu da qeyd etməliyəm ki, ermənilər sözsüz, Dağlıq Qarabağın müstəqilliyi istəyində idilər, lakin bunu kağızda yazmadılar. Ermənistanın daxili vəziyyəti də gərginləşdi. Robert Koçaryan tərəfdarları ilə birlikdə fürsətdən istifadə edərək Ter-Petrosyanı istefaya getməyə məcbur etdi və konfliktin həlli yolunda yeni siyasi vəziyyət yarandı. Bu haqda isə xüsusi danışmaq lazımdır.

**– Heydər Əliyev Ermənistan hakimiyyəti ilə Azərbaycana ziyan gətirməyəcək sülh müqaviləsinin danışıqlar yolu ilə imzalamasının mümkün olmasına inanırdımı?**

– Daxilimizdə inanmırdıq, çünki erməni siyasətçilərinin riyakarlığı aydın görünürdü. Bununla yanaşı, danışıqlardan da heç bir vəchlə imtina edə bilməzdik. Axı bilmək olmurdu, zaman bizəmi, onlaramı işləyir? Minsk qrupunun üç həmsədrinin üçü də, büruzə verməsələr belə, əslində gizlində ermənilərə meylli idilər. Ermənilər çox çalışırdılar ki, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi Minsk qrupunun və Azərbaycanın dövlətlərarası sənədlərində əks olunmasın, yəni unudulsunlar. Həmin siyasət Lissabon Bəyanatına da şamil olunurdu. Bu cəhdlər onların sadəlövh siyasətçi, beynəlxalq hüquqdan anlayışları olmadığını, özlərindən müştəbeh olduqlarını və nəhayət, Azərbaycan amilini düzgün dəyərləndirə bilməmələrindən irəli gəlirdi. Əslində Təhlükəsizlik Surasının qətnamələrinin hüquqi taleyi imperativ xarakter daşıyır. Bu o deməkdir ki, heç bir şəraitdə Təhlükəsizlik Şurasının qətnamələri öz qüvvəsini itirmirlər. Göründüyü kimi 1993-cü ildə qəbul olunan qətnamələr 27 ildən sonra baş verən hadisələrin hüququ əsasını təşkil etdilər. Bununla yanaşı, zamandan istifadə etməkdə, həm Heydər Əliyevin dövründə, həm də İlham Əliyevin dövründə Azərbaycanın siyasəti daha effektli idi və uğurlu nəticə də verdi. Hər iki Prezidentin fəaliyyəti nəticəsində zaman məhz bizim, Azərbaycanın xeyrinə işlədi.

Təkrar edirəm, Lissabon sammitindən sonra Ermənistan bir müddət beynəlxalq aləmdən təcrid edildi. Çünki 53 dövlət mövqeyini bildirdi ki, Qarabağ Azərbaycanın ərazisində qalmalıdır və ona mədəni muxtariyyat verilməlidir. Ermənistan bundan imtina etdi. Biz bütün diplomatiya cəbhəsi boyu tam hücuma keçdik...

...Lissabon sammitindən təxminən 7 ay sonra, 1997-ci ilin yayında Strasburqda Azərbaycan və Ermənistan dövlət nümayəndələrinin iştirakı ilə tədbir keçirilirdi. Ter-Petrosyan Heydər Əliyevə yaxınlaşıb dedi: “Heydər Əliyeviç, olarmı yığcam tərkibdə toplaşaq, mənim sizə bir açıqlamam olacaq”. Heydər Əliyev razılaşdı.

Yadımdadır ki, kiçik bir otağa toplaşdıq. O, öz xarici işlər naziri ilə, Heydər Əliyev də mənimlə birlikdə danışıqlara başladılar. Ter-Petrosyan dedi: “Heydər Əliyeviç, mən çox ölçüb-biçdim, görürəm Qarabağ məsələsi bizim istədiyimiz kimi baş tutan iş deyil. Ona görə də mən belə qərara gəldim ki, Qarabağdan kənar bütün torpaqları azad edim. Bu haqda mən rəsmi bəyanat da verəcəyəm”. Həqiqətən elə bu görüşdə Heydər Əliyevlə Ter-Petrosyan bəyanat diktə etdilər, mən yazdım. Görüşdən sonra çıxıb həmin qeydləri media nümayəndələri qarşısında oxudum. Doğrudur, orada hər şey açıq yazılmamışdı. Amma yazılmışdı ki, artıq tərəflər real addımlar atılmasının vaxtının çatdığını başa düşürlər.

Doğurdan da bu görüşdən sonra Ter-Petrosyanın Rusiya mətbuatında– “Nezavisimaya qazeta”da böyük bir məqaləsi dərc edilmişdi və orada yazmışdı ki, “bu müharibəni bitirməyin vaxtı çatıb. Bəsdir biz xəyallarla yaşadıq. Biz gərək Azərbaycanın torpaqlarını azad edək”.

Sonra məlum oldu ki, prezident Ter-Petrosyanın bizimlə birgə verdiyi bəyanat və qəzetdəki açıqlamalarından sonra baş nazir Koçaryanla Ermənistanın müdafiə naziri Ter-Petrosyanın qəbuluna gəlirlər. Ondan soruşurlar ki, “sənin doğurdanmı belə bir fikrin var?” Deyir, “bəli var”. Deyirlər: “Heydər Əliyevlə görüşüb razılaşmısan?” Deyir: “Görüşmüşəm”. Deyirlər: “Onda sənin iki çıxış yolun var. Birinci odur ki, sən istefa verirsən, biz də sənin, ailənin və komandanın təhlükəsizliyinə təminat veririk. İkinci variant odur ki, sən istefaya getmirsən, torpaqları Azərbaycana qaytarırsan, Ermənistanda vətəndaş müharibəsi başlayır. Əmin ol ki, biz qələbə çalacağıq, səni də, sənin ailəni və komandanı da məhv edəcəyik”. Petrosyan da qorxub birinci variantı seçir və istefaya gedir.

**– Həsən müəllim, Koçaryan haqqında nə deyə bilərsiniz?**

– Koçaryan hakimiyyətə gələrkən dünya siyasətinin yeniyetməsi idi, lakin o öz aləmində, Qarabağda və Ermənistanda hakimiyyəti asanlıqla əldə etdiyinə görə özünü usta, şahmat terminindən istifadə etsək, dünya siyasətinin “qrossmeysteri” sayırdı.

Bir misal gətirim. Moskvada Azərbaycan və Ermənistan rəhbərlərinin görüşü keçirilirdi. Moskva təklif etdi ki, yaxşı olar Dağlıq Qarabağın başçısı kimi Koçaryan da, bu görüşdə iştirak etsin. Heydər Əliyev razılıq verdi. Səbəb də bəlli idi, çünki ölkədə vəziyyət çox gərgin idi. Atəşkəs haqqında hələ razılığa gəlməmişdik. Müharibə davam edirdi, ermənilərin işğalçı hücumları ara vermirdi. Ermənistan nümayəndə heyəti ilə üz-üzə oturmuşduq. Bir başda da Rusiyanın xarici işlər naziri oturmuşdu. Digər tərəfdə isə Koçaryan gəlib oturdu. Danışıqlara sədrlik edən Rusiya xarici işlər naziri birinci Koçaryana müraciət etdi ki, danışsın. Koçaryan dedi, mən burda danışmayacağam. Soruşdular, niyə? Dedi: “Həsən Həsənov durub getsin, o bizim xalqın düşmənidir”. Heydər Əliyev dərhal dedi: “Getsək, hamımız gedəcəyik. Həsən Həsənov tək getməyəcək. Danışmaq istəmirsən, danışma. Kimsə səni zorla danışdırmır”. Ruslar dərhal onu başa saldılar və bununla da onun təkəbbürü bitdi. Heydər Əliyevin vaxtında Koçaryanla başqa rastlaşdığım olmayıb. Düşünürəm, Koçaryanın bu görüşə dəvəti Rusiyanın təşəbbüsü idi və söylədiyim insident də razılaşdırılmış addım idi.

Koçaryanla 1991-ci ildə Şimali Qafqazın Jeleznavodsk şəhərində mənim də iştirak etdiyim Boris Yeltsin, Nursultan Nazarbayev, Ayaz Mütəllibov və Levon Ter-Petrosyanın iştirakı ilə keçirilən tədbirdə rastlaşmışıq. Koçaryan bu görüş haqqında öz xatirələrində belə yazır: “Jeleznavodskidə tədbirdən sonra Həsən Həsənov məni yanına çağırdı. Dedi: “Koçaryan, indi rusların hesabına xoruzlanırsız, rus olmayanda görək siz harada olacaqsınız”. İndi mən Həsənova demək istəyirəm ki, rus yoxdur, amma biz elə həmin yerdəyik, qalibik”.

Jeleznovodsk görüşü 1991-ci il sentyabrın 23-də oldu, mənə mesaj göndərdiyi xatirələrini isə Koçaryan 2018-cı ildə rus dilində nəşr etdi. İndi mən 2023-cü ilin oktyabr ayında ona mesaj göndərirəm: “Koçaryan, Rusiya yanınızda yoxdur, özünüzün də əlinizdən bir şey gəlmir. Nə ordunuzu düzəltdiniz, nə iqtisadiyyatınızı, nə də dövlətçiliyinizi. Hər şey batdı getdi. İndi sizi həmin yerdə görmürəm, məğlubsunuz! Qarabağı isə görürəm ki, Prezidentimiz, müzəffər Ali Baş Komandan, İlham Əliyev addım addm gəzir, sevərək abadlaşdırır və təhlükəsizliyini gücləndirir. Müstəqillik xülyası ilə yaşadığınız Dağlıq Qarabağın baş şəhəri Xankəndidə isə indi məhz Prezident İlham Əliyevin qaldırdığı Azərbaycan bayrağı dalğalanır. Qarabağ həmişəki kimi yenə Azərbaycandır!”.

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Ulu öndər qədim Qəbələni “məhv olmaqdan” necə xilas etdi?



**2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli sərəncamında qeyd edilir ki, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.**

Bəli, biz milli tariximizin müxtəlif mərhələlərini əks etdirən muzeylərin, bədii qoruqların və arxeoloji mərkəzlərin əməkdaşları müasir tarixşünaslığın hansı səhifəsinə baxırıqsa, mütləq orada ulu öndərin qayğısının, diqqətinin izlərini görür və onu ehtiramla təbliğ edirik. Mən bu qayğı və diqqəti doğulub – böyüdüyüm Qəbələ rayonunun timsalında çox görmüşəm. Bu da bir xoşbəxtlikdir ki, indi Azərbaycanın ən qədim yaşayış məskənlərindən olmuş Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhərinin indiyədək qorunub saxlanmış dəyərli abidələrinin, arxeoloji tapıntılarının qorunduğu dövlət müəssisəsində çalışıram.

Biz hələ orta məktəbdə oxuduğumuz illərdə dərsliklərlə yanaşı, tarixə aid kitablarda, əyani vəsaitlərdə qədim Qəbələ şəhərinin Qala bürcləri əks olunmuş fotolarını görürdük. Böyüyəndən sonra isə fəxr etdik ki, həmin bürclər Azərbaycanın qədim mədəniyyətinin danılmaz sübutlarıdır. Çünki həmin bürclərlə tariximizin, mədəniyyətimizin bir çox şərəfli səhifəsi açılır.

Son zamanlar müxtəlif kitablarda, elmi əsərlərdə oxuyuruq ki, Ulu öndərin səyi, millətə xidməti, uzaqgörənliyi sayəsində qədim Qəbələ şəhəri indi də tariximizin dərinliklərindən xəbər verir. Bununla biz Azərbaycanın qədim şəhər mədəniyyətini, dövlətçilik tarixini bütün dünyaya göstərə bilirik. Görkəmli alimlər yazırlar ki, Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dönəmdə ölkəmizdə qədim mədəniyyətimizin öyrənilməsi, arxeoloji, etnoqrafik tədqiqatların aparılması işinə böyük diqqət yetirilmişdir. Elə həmin dövrdə də qədim Qəbələ şəhərinin yerləşdiyi ərazidə arxeoloji tədqiqatlar genişləndirilmişdir.

Xatırladaq ki, təqribən 800 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələdə arxeoloji tədqiqatlar 1926-cı ildən başlayaraq müəyyən fasilələrlə, 1959-cu ildən isə ardıcıl şəkildə davam etdirilir. Burada toplanan zəngin eksponatlar bir daha sübut edir ki, Qəbələnin tarixi keçmişi təbiəti qədər zəngindir və Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. 2400 illik tarixi olan, qədim “İpək yolu”nun üzərində yerləşən Qəbələ şəhərinin adı hələ eramızın I əsrində yaşamış italiyalı alim Böyük Plininin “Təbii tarix” əsərində Kabalaka adlandırılıb. Yunan coğrafiyaşünası Ptolemey Qəbələni Xabala, ərəb tarixçisi Bəlazuri isə Xəzər kimi təqdim edib. Arxeoloji qazıntılar əsasən Qəbələnin antik şəhər yeri, Səlbir və Qala ərazilərində aparılır.

***

Yazının əvvəlində bu tarixi məkana, daha doğrusu, milli sərvətimizə ulu öndərin böyük qayğı və diqqət göstərdiyini xatırlatmışdıq. Həmin arqumentimizi əsaslandırmaq üçün xatırladaq ki, ötən əsrin 70-ci illərinin sonlarında qədim Qəbələnin taleyi ciddi sınaq qarşısında qalmışdı. Həmin illərdə Azərbaycanın, eləcə də Qəbələnin həyatında çox ciddi və təhlükəli hadisələrdən biri təkcə keçmiş Sovet İttifaqında deyil, bütün dünyada çox məşhur olan Radiolokasiya Stansiyasının tikintisi ilə bağlı idi. O vaxtın sənədlərində oxuyuruq ki, SSRİ Silahlı Qüvvələrinin ən güclü radiolokasiya stansiyalarından biri 1976-cı ildə Qəbələ rayonu ərazisində inşa edilməyə başlanmışdı.

Mərhum akademik Teymur Bünyadov yazırdı ki, dünyanın siyasi-ideoloji-hərbi cəbhələrə bölünüb mübarizə apardığı bir zamanda RLS-in tikintisinə hansısa formada əngəl törədilməsi, irad bildirilməsi ağlasığmaz, qeyri-mümkün sayılırdı: “Elə radiolokasiya stansiyasının hərbi göstəricilərini, imkanlarını sadalamaq kifayət idi ki, bu tikintinin dünyanın təşvişlə baxdığı sovet ordusu üçün nə qədər böyük əhəmiyyət daşıdığını görəsən”.

Qəbələ rayonu ərazisində yerləşən bu hərbi obyektə 1977-ci ildə Mingəçevir Su Elektrik Stansiyasından çəkilən yüksək gərginlikli elektrik xətti qədim Qəbələ şəhərinin ərazisindən keçməli idi. Sovet generalları, hərbi mühəndisləri o dövrdə stansiyaya yüksək gərginlikli elektrik xətti çəkilməsini planlaşdırarkən xalqımızın tarixini, qədim abidələrini nəzərə almırdılar. Bildirilir ki, elektrik xəttinin bir neçə qurğusunun tikintisi qədim Qəbələ şəhərinin ərazisinə, daha doğrusu, Qala qapıları üzərinə düşürdü. Alimlərin fikrincə, bu faktların təsadüf, planlaşdırma xətası və s. olmasını düşünmək sadəlövhlük olardı. Çünki xəttin başqa yerlə çəkilməsi, qurğuların bürclərdən uzaqda tikilməsi üçün digər imkanlar da var idi. Yəni qədim şəhərin qalıqlarının məhv olması, tariximizin daha bir əvəzsiz abidəsinin Yer üzündən silinməsi təhlükəsi yaranmışdı.

Mərhum akademik İqrar Əliyevin fikrincə isə ən təhlükəli məqamlardan biri radiolokasiya stansiyasına gedən elektrik xətlərinin, qurğuların, geniş torpaq sahələrinin Sovet Ordusunun mühafizəsi altına verilməsi, qadağa zonasına çevrilməsi idi. Bu da qədim Qəbələnin Qala və Səlbir hissələrində hər hansı arxeoloji tədqiqatın aparılmasının qarşısının alınması, gənc nəslin qədim tariximizlə tanış olmaq imkanlarının əldən çıxması demək idi.

Başqa bir materialda oxuyuruq ki, qazıntı məskəninin sovet ordusunun nəzarətinə verilməsi, qadağa zonasına düşməsi arxeoloji tədqiqatların, demək olar ki, tamamilə dayanmasına gətirib çıxara bilərdi. Baş verənlər arxeoloqların qədim qazıntı yerində işləməsinə ciddi maneçilik törədirdi. Vəziyyəti belə görən arxeoloqlar, Qəbələ ziyalıları birbaşa Heydər Əliyevə müraciət etmişdilər. Elə o illərdə bildirilirdi ki, ümummilli lider bu məsələ ilə əlaqədar SSRİ Hərbi Hava Qüvvələrinin komandanı ilə ciddi söhbət aparmışdır.

Sonra Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri Qurban Xəlilov başda olmaqla Qəbələyə nüfuzlu komissiya göndərilmişdi. Komissiyanın məsələ ilə yaxından tanış olması, problemi həll etmək üçün aparılan gərgin müzakirələr, Azərbaycan rəhbərliyinin tarixi abidənin qorunması üçün göstərdiyi səy bəhrəsini verdi. Reallıq bundan ibarətdir ki, Heydər Əliyev tariximizin, qədim abidələrimizin qorunması üçün milli mövqe ortaya qoydu və bu gün Azərbaycan xalqı Qəbələ şəhərinin simasında qədim tariximizin yaşadığını görür və fəxr edir.

***

1978-ci ilin ilk günlərində qədim Qəbələ şəhərinin xilas olunması Azərbaycan xalqının milli oyanışının mühüm mərhələlərindən biri idi. Heydər Əliyevin Azərbaycanın gələcəyi naminə atdığı addım – qədim abidəmizin qorunması azərbaycanlıların milli şüurunun, milli özünüdərkin inkişafına ciddi təsir göstərmiş, tariximizin, abidələrimizin qorunması uğrunda mübarizə konsepsiyasının əsaslarına çevrilmişdir. Tariximizin mühüm bir səhifəsini Yer üzündən silmək istəyənlər və bununla barışan rayon rəhbərliyinin hərəkətləri 17 yanvar 1978-ci ildə Heydər Əliyevin sədrliyi ilə keçirilən Azərbaycan KP MK-nın bürosunda müzakirəyə çıxarılmış, Qəbələ rayonunda tarixi abidələrin qorunmasına səhlənkar münasibət haqqında qərar qəbul olunmuş, abidəni dağıtmaq istəyən generallar və rayon rəhbərliyi cəzalandırılmışdı. Bununla da, tariximizin minillikləri əhatə edən abidələrindən biri dağıdılmaqdan xilas edilmişdi. Qərara uyğun olaraq, elektrik xətti cənub qapılarından, Qala bürclərindən uzaqlaşdırılmış, çayın kənarına bənd çəkilmiş, arxeoloji tədqiqatlar genişləndirilmişdi.

Bir qədər sonra – 1978-ci il mart ayının 2-də məhz ulu öndərin xüsusi göstərişi ilə Azərbaycan SSR Nazirlər Soveti Qəbələ Tarix Mədəniyyət Qoruğunun yaradılması haqqında qərar vermişdi. Fəxrlə deyə bilərik ki, bu tarix-mədəniyyət qoruğunun yaradılması XX əsrin sonlarına doğru Azərbaycanda milli mədəni irsin, tarixi abidələrimizin qorunması istiqamətində əvəzsiz yeniliklərdən biri kimi mükəmməl örnək oldu. Sonrakı illərdə qədim tarix-mədəniyyət abidələrinin qorunması naminə görülən işlər bir növ sistemləşdirildi, onun hüquqi əsasları yaradıldı.

***

Ən mühüm addımlardan biri də 1978-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin səkkizinci sessiyasında “Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında” Azərbaycan SSR Qanunu layihəsi barədə geniş müzakirələrin keçirilməsi və 21 iyul 1978-ci ildə isə “Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında” Qanun qəbul olunması idi. Eləcə də, Heydər Əliyevin 1978-ci ildə Qəbələyə səfərindən sonra məhz onun təşəbbüsü ilə – 1980-ci il may ayının 15-də Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi, bir qədər sonra isə İsmayıl bəy Qutqaşınlının xatirə ev-muzeyi yaradılmışdır. Qətiyyətlə təkrar edə bilərik ki, ümummilli lider Heydər Əliyevin vətənpərvərliyi, əzmkarlığı, qətiyyəti sayəsində 1978-ci ildə qədim Qəbələnin dağılmaqdan qorunması tariximizin ən şərəfli səhifələrindən biridir.

Nəhayət, bir neçə kəlmə də öz fəaliyyətimiz haqqında. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində olan Qəbələ Dövlət Tarix –Bədii Qoruğu bu gün öz fəaliyyətini genişləndirmək üçün həm Rayon Tarix–Diyarşünaslıq Muzeyi ilə, həm də İlisu Dövlət Tarix–Mədəniyyət, Zaqatala Tarix–Mədəniyyət, “Orta əsr Ağsu şəhəri”, Dövlət Rəsm Qalereyası, İdman və Gənclər İdarəsi və Dövlət Peşə Təhsil Mərkəzi ilə qarşılıqlı əməkdaşlıq memorandumları imzalayıb. Memoranduma əsasən, qarşılıqlı əlaqələr həyata keçirilir, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin müdavimləri qoruqda istehsalat təcrübələri keçirlər.

Bu gün Qəbələ Dövlət Tarix –Bədii Qoruğu təkcə alimlərin və tarixlə maraqlanan mütəxəssislərin deyil, eləcə də, yerli və əcnəbi turistlərin daha çox üz tutduğu məkana çevrilib. 2022-ci illə müqayisədə bu ilin 9 ayı ərzində qoruq ərazisinə gələn turistlərin sayında kifayət qədər artım müşahidə olunub. Qoruq ərazisinə səfər edən əcnəbi turistlər əsasən Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, Türkiyə, İngiltərə, Polşa, Çexiya, Koreya, Avstraliya, Çin, İtaliya və başqa ölkələrin vətəndaşlarııdr.

Onu da xatırladaq ki, 1926 –1990-cı illər ərzində Qəbələ Dövlət Tarix – Bədii Qoruğu ərazisində həm kəşfiyyat, həm də genişmiqyaslı arxeoloji qazıntı işləri aparılıb. Ancaq 15 illik fasilədən sonra – 2005-ci ildən SEBA (Seul-Bakı) Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü, təşkilatçılığı və maliyyə dəstəyi ilə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları, 2009-cu ildən isə Cənubi Koreyadan olan arxeoloqlar qoruq ərazisində arxeoloji qazıntılar apararaq birgə fəaliyyət göstərirlər. 2014-cü il sentyabrın 22-də Prezident İlham Əliyev Qəbələyə səfəri zamanı qoruğu da ziyarət etmişdir. Dövlət başçımız həmin gün SEBA (Seul-Bakı) Azərbaycan – Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşəbbüsü, təşkilatçılğı və maliyyə dəstəyi ilə qoruq ərazisində inşa edilmiş Qəbələ Arxeoloji Mərkəzinin rəsmi açılışını etmiş, belə bir mərkəzin yaradılmasını yüksək qiymətləndirmişdir. Həmçinin cənab Prezident qoruğun arxeoloji ərazilərindən olan Qala ərazisinə də baş çəkmiş, burada günümüzə qədər öz möhtəşəmliyini qorumuş Qala bürclərinə yaxından baxmışdır. Ümumilikdə, cənab Prezidentin səfərindən sonra Qəbələ Dövlət Tarix – Bədii Qoruğunda infrastruktur daha da gücləndirilmiş, burada ictimai iaşə obyektləri fəaliyyətə başlamış, ərazidə yerləşən Qəbələ Arxeoloji Mərkəzində bir çox yerli və beynəlxalq səviyyədə elmi – praktiki konfranslar, tədbirlər keçirilmişdir. Həmçinin Arxeoloji Mərkəzdə Qəbələ Dövlət Tarix – Bədii Qoruğunun əməkdaşları üçün müasir standartlara cavab verən iş otaqları yaradılmışdır.

***

Sonda onu da xatırladım ki, bu il fevral ayının 22-də Qəbələ Dövlət Tarix – Bədii Qoruğunda 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar kollektiv üzvləri tərəfindən iməcilik, martın 17-də Ulu öndərin yubileyinə həsr olunan ağacəkmə aksiyası, ayın 26-da isə qoruqda “Uşaqlar bizim gələcəyimizdir” mövzusunda kütləvi tədbir keçirilmişdir. Mayın 10-da Ümummilli liderin 100 illiyinə həsr olunmuş ictimai-siyasi məzmunlu möhtəşəm tədbir uzun müddət yaddaşlardan silinməyəcək. İyul ayında yubiley münasibətilə Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda rayondakı Çuxur Qəbələ kənd məktəbliləri üçün açıq dərslər, oktyabr ayında isə “Heydər Əliyev və uşaqlar” mövzusunda tədbir keçirilmişdir.

Qeyd etdiyimiz kimi, Heydər Əliyev Azərbaycan tarixinin himayədarı və qayğıkeşi idi. Cənab Prezident İlham Əliyevin xalqımızın tarixinə yazdığı yeni səhifələr də Heydər Əliyev siyasi kursunun uğurla davamı və icra edilməsinin nəticəsidir. 30 il düşmən tapdağında qalan torpaqlarımızı Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu azad etdi. Amma atılan bütün uğurlu addımlarımızın təməlində Heydər Əliyevin siyasi xəttini görürük. Əminik ki. Azərbaycanın bugünkü uğurları ulu öndərin ruhunu sevindirir.

***Zahir KƏRİMOV,***
***Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun direktoru***

# “Heydər Əliyev və Türkiyə”



**Türkiyənin Qars şəhərində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.**

18-19 oktyabr 2023-cü ildə Qars Qafqaz Universiteti, Azərbaycanın Türkiyədəki səfirliyi, Qarsdakı Baş Konsulluğu, respublikamızın Elm və Təhsil Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Elger Elm və Təhsil Mərkəzi, Əskişəhər Azərbaycanlılar dərnəyi, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası, İğdır Azərbaycan evinin təşkilatçılığı ilə keçirilən “Heydər Əliyev və Türkiyə” adlı multidisiplinar beynəlxalq elmi konfransa 12 ölkədən 100-dən çox elm adamı qatılmışdı.

Dövlət müstəqilliyimizin 32-ci ildönümünə təsadüf edən tədbir Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başladı.

Qars Qafqaz Universitetinin rektoru, professor-doktor Hüsnü Kapu və Azərbaycanın Qarsdakı baş konsulu Nuru Quliyevin giriş nitqləri ilə başlanan konfransın plenar iclasında tədbirin təşkilat komitəsinin sədri, dosent İlkin Qulusoy, Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil üzrə müşaviri Nəcibə Nəsibova, Elm və Təhsil Nazirliyinin təmsilçisi Müjdat Həsənov, Əskişəhər Azərbaycanlıları Dərnəyinin sədri Cavid Aydın çıxış etdilər.

Azərbaycan ali təhsil müəssisələri adından Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Dillər Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin prorektorlarının təbrik nitqləri dinlənildi.

Konfransın plenar iclasında professor Toğrul İsmayıl, professor Yusuf Bayraktar və dosent Elman Cəfərli mövzu ilə bağlı məruzələrində Ulu öndərin azərbaycançılıq məfkurəsi və dövlətçilik irsi geniş təhlil olundu.

Üç bölmədə işini davam edən konfransda ümummilli lider Heydər Əliyevin dövlətçilik, elm, təhsil, mədəniyyət, ordu quruculuğu, gənclər siyasəti, multikulturalizm və digər sahələrdə həyata keçirdiyi islahatlarından bəhs olundu, foto və video təqdimatlar edildi.

Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Surə Seyidin "Heydər Əliyev və Şərq qapısı" qəzeti, Azərbaycan Dövlət İdman Akademiyasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Müjkan Məmmədzadənin "Heydər Əliyev və hərbi təhsil siyasəti" mövzusundakı elmi məruzələri də maraqla qarşılandı.

Məruzələrdən sonra konsert proqramı nümayiş olundu, Azərbaycan xalq musiqilərindən seçmələr səsləndirildi.

Konfrans çərçivəsində qonaqlar Qars Qafqaz Universitetində qurulan Heydər Əliyev Mərkəzini ziyarət edib, mərkəzin fəaliyyəti ilə tanış olublar.

Tədbirdən sonra Azərbaycanın Karsdakı Baş Konsulluğunun təşkilatçılığı ilə konfrans iştirakçılarına ziyafət təşkil edildi, Qars Qafqas Universitetində fəaliyyət göstərən Azərbaycan rəqs qrupunun konsert proqramı nümayiş olundu. Qonaqlar Heydər Əliyevin 100 illik yubiley plaketi və diplomlar təqdim edildi.

Onu da əlavə edək ki, ümummilli lider Heydər Əliyevin Qarsa səfəri zamanı onun təşəbbüsü ilə Qars Qafqaz Universitetində Azərbaycan türkcəsi və ədəbiyyatı ixtisası yaradılıb. 18 ildir fəaliyyət göstərən bu ixtisasın bakalavriat pilləsi üzrə bugünədək yüzlərlə məzunu olmuşdur. 2014-cü ildən ixtisas magistratura pilləsi üzrə də kadr hazırlığı işi həyata keçirməkdədir.

***Surə SEYİD***

**Naxçıvan**

# Sənayenin inkişafı idxalı azaldır

## 2003-cü ildən istehsal 22 dəfə artıb



(əvvəli 1-ci səhifədə)

Hazırkı dövrdə sənayenin yeni modellərin tətbiqi ilə inkişafı mühüm önəm daşıyır. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın daha da azaldılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına yeni imkanlar açır. Dövlət başçısının sənayeləşmə siyasətinin ölkənin iqtisadi inkişafının əsas istiqamətlərindən biri elan olunması və sözügedən istiqamətdə mühüm tədbirlərin icrasının daha da sürətləndirilməsi məhz bununla bağlıdır.

İqtisadiyyat Nazirliyinin məlumatına görə, son 20 il ərzində respublikamızda istehsal olunan sənaye məhsullarının illik dəyəri 21,6 dəfə artaraq 4 milyard manatdan 86,4 milyard manata çatıb. Məhsul buraxılışının ümumi həcmində özəl sektorun payı 2002-ci ildə 54,9 faiz olduğu halda, keçən il 87,6 faiz təşkil edib. Belə yüksək göstəricilərin əldə olunmasında isə iqtisadi diversifikasiyada sənayenin innovativ üsullarla inkişafı və şaxələndirilməsi önəmli rol oynayıb. İdxalı əvəz edən, yeni ixrac imkanları yaradan, eləcə də müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması da sənayenin inkişafını sürərləndirib.

Nazirliyinin məlumatında respublikada sənayenin inkişafına yönələn əhəmiyyətli mexanizmlər sırasında dövlət başçısının təşəbbüsü ilə sənaye zonalarının– sənaye parkları və məhəllələrinin yaradılması xüsusi qeyd edilir. Bununla əlaqədar mövcud 7 sənaye və 5 sənaye məhəlləsində, ümumilikdə, 10,23 milyard manatlıq məhsul istehsal olunduğu, bunun 3,35 milyard manatlıq hissəsinin ixraca yönəldildiyi vurğulanır. Eyni zamanda, cari ilin ilk yarısında sənaye zonalarında fəaliyyət göstərən müəssisələr tərəfindən 1,4 milyard manatlıq məhsulun satılması diqqətə çatdırılır.

Statistik göstəricilərə əsasən, bu ilin birinci yarısında sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 16,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 20,7 faiz (470,6 milyon manat) olub. Bu dövrdə sənaye zonalarında buraxılan məhsullar isə 50-dən artıq ölkəyə göndərilib.

Ölkədə yaradılan əlverişli biznes və investisiya mühiti də sənayenin inkişafında əhəmiyyətli rol oynayıb. Başqa sözlə, respublikamızın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, əlverişli coğrafi mövqeyə malik mühüm tranzit mərkəz olması davamlı investisiya qoyuluşunu şərtləndirməklə sənayedə məhsul istehsalına müsbət təsir göstərib. 2004-2021-ci illərdə Azərbaycana, ümumilikdə, 288,9 milyard ABŞ dolları həcmində investisiya yatırılması da məhz həmin amillərlə bağlı olub. Bir faktı da xatırladaq ki, təkcə ötən il ərzində əsas kapitala yönəldilən vəsaitin məbləğinin 18,3 milyard manata yüksəlməsi, bu sahəyə yatırılan investisiyaların 80,6 faizinin daxili mənbələr hesabına formalaşması da əlverişli biznes və investisiya mühitinin mövcudluğu nəticəsində reallaşıb.

Azərbaycanda investisiya cəlbediciliyinin güclənməsinə təsir göstərən əsas amillərdən biri də mövcud sahədə qanunverici-institusional tədbirlərin həyata keçirilməsidir. Bu baxımdan 1995-ci il 13 yanvar tarixli "İnvestisiya fəaliyyəti haqqında" Qanun böyük əhəmiyyətə malikdir. Bu qanun investisiyaların ölkə iqtisadiyyatına cəlbini stimullaşdırmaqla yanaşı, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Bununla bərabər, "Xarici investisiyaların qorunması haqqında" Qanun da ölkədə sərmayədarların hüquq və mənafelərinin qorunması, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılması ilə bağlı məsələləri tənzimləyir.

Azərbaycan hökuməti tərəfindən bir sıra xarici ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, habelə investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında ikitərəfli və çoxtərəfli sazişlər imzalanması da davamlı investisiya qoyuluşunu sürətləndirir. Bütün bunlarla yanaşı, ixrac rüsumlarının ləğv edilməsi, idxalda rüsumların 15 faizlik maksimal həddinin müəyyənləşdirilməsi də ölkədə investisiya mühitinin liberallaşdırılmasına, sərmayə qoyuluşunun genişlənməsinə böyük təsir göstərən amillərdən biridir.

Sənayenin inkişafından danışarkən iqtisadiyyat naziri Mikayıl Cabbarovun bir neçə gün bundan əvvəl mediyaya məlumatında vurğulan məqamı xatırlatmaq istərdim. Bu, hazırkı mərhələdə sənayenin inkişafında əhəmiyyətli rol oynayan özəl bölmənin davamlı genişlənməsinə müsbət təsir göstərən iş adamlarının səmərəli fəaliyyəti məqsədilə yaradılan əlverişli biznes mühiti ilə bağlıdır. Nazir məhz bu məqamı nəzərdə tutaraq sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaradan və 2016-cı ildən tətbiq olunan investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq müddət ərzində 583 layihənin təşviqi faktını diqqətə çatdırıb. O, həmin layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan artıq investisiya yatırıldığını, bunun hesabına isə 38,6 mindən çox iş yerinin yaradılmasının nəzərdə tutulduğunu bildirib.

Sənaye məhsullarının istehsal artımının davamlı olması ilə bağlı isə onu deyək ki, burada son illərdə müasir, beynəlxalq standartlara əsaslanan müəssisələrin istifadəyə verilməsi əhəmiyyətli rol oynayıb. Qeyd edək ki, indiyədək bu məqsədlə dəyəri 1,8 milyard manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə ölkəyə idxal edilərək müasir istehsal sahələri qurulub. Təşviq edilmiş layihələrin icrası nəticəsində ölkədə yeni məhsullar buraxmaq imkanına malik müəssisələr yaradılıb.

Bütün bunlarla yanaşı, Azərbaycan Prezident İlham Əliyevin 20 dekabr 2022-ci il tarixli fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib. İnvestisiya təşviqi sənədi cari ilin yanvar ayının 1-dən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları, həmçinin müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyənləşdirilən istiqamətlər üzrə strateji təşəbbüslərin gerçəkləşdirilməsinə verilməsi nəzərdə tutulub.

Yeni meyarlara ekoloji nöqteyi-nəzərdən əhəmiyyətli olan tullantıların təkrar emalı fəaliyyət sahəsi əlavə edilib, turizm istiqamətli fəaliyyət sahələri genişləndirilib. Mexanizm çərçivəsində layihələr üzrə idxala yönəldilən texnika, texnoloji avadanlıq və qurğuların əhatə dairəsinin dəqiqləşdirilməsi məqsədilə mal mövqelərinin siyahısı təsdiqlənib. Strateji layihələr üzrə istiqamətlərin müəyyənləşdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsinə də başlanılıb.

***Vaqif BAYRAMOV***
***XQ***



## 20 ildə ölkədə elektrik enerjisi 37 faiz yüksəlib

**Son 20 il ərzində ölkəmizin elektroenergetika sistemi daim diqqətdə saxlanılıb, mövcud sahədə genişmiqyaslı layihələr gerçəkləşdirilib, yenidənqurma, tikinti işləri böyük vüsət alıb.**

Ölkə rəhbərinin 25 oktyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi haqqında" sərəncamı da respublikamızın elektrik enerjisi ilə fasiləsiz təminatını daha da gücləndirmək, təhlükəsizliyin maksimal səviyyədə əldə olunmasını şərtləndirmək baxımından mühüm önəm daşıyıb. Bütün bu tədbirlərin nəticəsidir ki, hazırda ölkədə generasiya gücünün artırılması ilə yanaşı, elektrik enerjisi şəbəkəsində də davamlı uğurlar əldə edilir.

Bu gün ümumi gücü 29 min 256,5 MVA olan 110-500 kV-luq 368 yarımstansiya istismardadır. Həmçinin Gürcüstan, Rusiya, İran və Türkiyə ilə enerji sistemlərinin əlaqələndirilməsi sayəsində elektrik enerjisi mübadiləsi və ticarəti həyata keçirilir. Bütün bunların nəticəsi olaraq ölkəmizdə elektrik enerjisinin istehsalı 2003-cü illə müqayisədə 37 faiz artaraq ötən il 29 milyard 4,3 milyon kVt/saat olub.

Hazırda ölkəmizdə 78 stansiya fəaliyyət göstərir, onlardan 22-si istilik elektrik stansiyası, 39-u su, 5-i külək, 8-i günəş enerjisi ilə işləyir. Həmçinin 3 hibrid elektrik stansiya və 1 bioenerji elektrik stansiyası fəaliyyətdədir.

## Gələn il orta illik inflyasiya 9,5 faizdən 5,3 faizə enəcək



**Maliyyə Nazirliyinin "2024-2027-ci illər üzrə Ortamüddətli Büdcə Çərçivəsi"ndə İqtisadiyyat Nazirliyinin baza ssenarisinə əsaslanaraq bildirilir ki, ölkəmizdə 2023-cü ildə 9,5 faiz, 2024-cü ildə isə 5,3 faiz proqnozlaşdırılan orta illik inflyasiyanın azalan templə 2027-ci ildə 4,2 faizə qədər enəcəyi gözlənilir.**

Respublikamızda inflyasiya mühitinin tənzimlənməsi ilə bağlı atılan addımlar iqtisadi fəallığın artması ilə yanaşı, əhalinin sosial rifahına da müsbət təsir edəcək. Proqnozlara əsasən, ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2027-ci ildə 106 milyard manata, xərclərinin isə 102,6 milyard manata qədər yüksəlməsi proqnozlaşdırılır.

***XQ***



## Böyük Qayıdışın addımları da böyükdür

### *2024–2026-cı illərdə bu məqsədlə 10,6 milyard manat ayrılacaq*

**Maliyyə Nazirliyinin məlumatına görə, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsi Azərbaycanın 2030-cu ilədək 5 Milli Prioritetindən biri kimi müəyyənləşdirilib və bu prioritetin reallaşdırılması üçün 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" ölkə Prezidentinin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiqlənib.**

Məlumata əsasən, adıçəkilən proqram Milli Prioritetlər üzrə iki məqsədə – əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası məqsədlərinə xidmət edir. Sənəd üzrə tədbirlərin infrastruktur, iqtisadiyyatın yenidən qurulması, sosial inkişaf və ətraf mühitin tarazlı inkişafı üzrə müəyyənləşdirilən hədəf göstəricilərinə uyğun həyata keçirilməsi nəzərdə tutulur.

2023-cü ildə icraçı qurumlar tərəfindən təqdim edilən son məlumatlara əsasən, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün 2022-2026-cı illərdə ümumilikdə, təqribən, 30,5 milyard manat məbləğində vəsait tələb olunur. 2020-2022-ci illərin dövlət büdcəsindən bu məqsədə təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb.

Cari ilin dövlət büdcəsində sözügedən proqramın icrası üçün 5,3 milyard manat, 2024-2026-cı illərdə ümumilikdə 10,6 milyard manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulur. Beləliklə, proqnozlaşdırılan vəsait də nəzərə alındıqda proqramın icrası üçün 2020-2026-cı illər üzrə ümumilikdə ayrılacaq vəsaitin həcmi 22,4 milyard manata çatdırılacaq.

***XQ***

# İqtisadi yüksəliş ölkənin maliyyə imkanlarını genişləndirir

## Son 20 ildə vergi daxilolmaları 23 dəfə çoxalıb

**Sumqayıtda ölkə sənayesinin inkişaf məsələlərinin müzakirəsinə həsr olunmuş "Azərbaycanda sənaye həftəsi" biznes forumunda bir sıra məsələlərlə yanaşı, son illərdə vergi sistemində həyata keçirilən islahatlar, reallaşdırılan vergi güzəştləri barədə də ətraflı danışılıb.**



Qeyd olunub ki, 2023-cü il yanvarın 1-dən etibarən yerli qida sənayesi istehsalçıları üçün əmlak, torpaq və mənfəət vergisi üzrə vergi güzəştlərinin tətbiq edilib. Vergi qanunvericiliyində edilən dəyişikliklər, vergi sahəsində aparılan islahatlar sənaye sektorunun inkişafına səbəb olub. Eyni zamanda, vergi gəlirlərinin 55 faizinin məhz sənayenin payına düşdüyü, həmçinin vergi daxilolmalarının 30 faizinin isə qeyri-neft sektorundan daxil olduğu bildirilib.

Xatırladaq ki, qeyri-neft sektoru üzrə ümumi daxili məhsulun (ÜDM) artım tempi 21,6 faiz olduğu halda, qeyri-neft sektoru üzrə vergi daxilolmalarının artım tempi təxminən 28 faizdir. Vergi daxilolmalarındakı artım tempinin ÜDM-in artım tempini üstələməsi həm də "kölgə iqtisadiyyatı"nın azaldılması kimi xarakterizə edilir.

Biznes forumda sənaye texnologiyaları parklarının fəaliyyətinə, onlar üçün tətbiq edilən sənaye investisiya təşviqi alətlərinə də toxunulub. Qeyd edilib ki, təkcə cari il ərzində sənaye texnologiyaları parkının 102 rezidentinə 196 milyon manat məbləğində vergi güzəşti tətbiq olunub. Ümumilikdə, indiyədək rezidentlər tərəfindən 380 milyon manata yaxın vergi güzəştindən faydalanılıb. Eyni zamanda, biznesin inkişafı üçün investisiya qoyuluşunu təşviq etmək məqsədilə 571 investisiya təşviqi sənədi verilib. Bu sənədlər ölkəyə 5,5 milyard manat həcmində investisiya yatırımına imkan verib, 38 mindən çox iş yeri rəsmiləşdirilib.

Yeri gəlmişkən, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli vergi sistemi son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə əsaslı modernləşmə prosesi keçib, bu sistemdə maddi-texniki baza müasirləşdirilib, vergi inzibatçılığı texnoloji cəhətdən yenidən qurulub. Vergi Məcəlləsinə mütəmadi edilən dəyişikliklərlə vergi inzibatçılığı təkmilləşdirilib, vergi sisteminin geniş texniki imkanlara malik texnoloji bazası yenilənib, biznes mühiti münbitləşib. Nəticədə ölkəmizin iqtisadi inkişafında həlledici rola malik, müasir və beynəlxalq standartlara cavab verən müasir vergi xidməti yeni standartlarla zənginləşib.

Bütün bunlar isə vergi daxilolmalarının davamlı artımını şərtləndirib. Dövlət Vergi Xidmətinin məlumatına əsasən, 2002-ci illə müqayisədə vergi daxilolmalarında artım 23 dəfəyə yaxın, qeyri-neft-qaz sektorundan daxilolmalar isə 23,4 dəfəyədək yüksəlib. Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində bölgələrdən daxilolmalarda son 20 il ərzində 35,8 dəfə artım olub.

Vergi inzibatçılığının təkmilləşdirilməsi, biznes mühitinin səmərəliliyinin artırılması, nəticədə isə vergi daxilolmalarının əhəmiyyətli artımı ölkəmizin maliyyə imkanlarının genişlənməsinə, sahibkarların sayının ildən-ilə artmasına gətirib çıxarıb. Belə ki, əgər 2002-ci ildə ölkədə cəmi 180 minə yaxın sahibkarlıq subyekti mövcud idisə, 2022-ci ilin sonuna qeydiyyatda olan vergiödəyicilərinin sayı 1,4 milyondan çox olub, aktiv vergiödəyicilərinin sayı isə 2022-ci ilin sonuna 712 min təşkil edib.

Vergi sistemində həyata keçirilən islahatlar nəticəsində 2022-ci ildə ilk dəfə dövlət büdcəsinə 15,5 milyard manat həcmində vergi daxilolması təmin edilib. Dövlət başçısı İlham Əliyev bununla bağlı deyib: "İqtisadi sahədə aparılan islahatlar imkan verdi ki, 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldı, çünki şəffaflıq var, dürüstlük var, hesabatlılıq var. Biznes dairələrinə bir neçə il bundan əvvəl möhlət verilmişdi ki, onlar da normal relslərə keçsinlər, daha o kölgə iqtisadiyyatından əl çəksinlər. Onlara himayədarlıq edənlərə də, necə deyərlər, dərs verildi. Ona görə 6 ayda 2 milyard manat əlavə ancaq vergi orqanları yığıbdır və biz bundan istifadə edirik. İlin sonuna hələ təxminən 6 ay var. Budur, bizim maliyyə-iqtisadi imkanlarımızın əsas faktoru".

Qarşıdakı dövrdə vergi siyasətinin, ilk növbədə, iqtisadi təşviq, səmərəli nəzarət, rəqəmsallaşma prinsipləri əsasında həyata keçirilməsi nəzərdə tutulub. Bundan başqa, iqtisadiyyatın şaxələndirilməsi və investisiyaların cəlb olunmasında vergi siyasətinin tənzimləyici rolunun davam etdiriləcəyi, "kölgə iqtisadiyyatı" ilə sistemli mübarizənin miqyasının genişləndiriləcəyi planlaşdırılıb.

Hazırda vergi inzibatçılığının keyfiyyətinin artması şəraitində qarşıda duran fiskal öhdəliklər üzrə proqnozların icra edilməsi, vergiödəyicilərinə xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması, risk əsaslı nəzarət sisteminin genişləndirilməsi, ortamüddətli perspektiv üçün vergi siyasəti üzrə hədəflərin həyata keçirilməsi əsas istiqamətlərdir. Beləliklə, vergi siyasətinin iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafında, böyüməsində və güclənməsində iştirakı artmaqda davam edir.

***XQ***

Xalq TV-nin qonağı

# Azərbaycan elmini dünyada yüksəldən biokimyaçı

## Onun rəhbərliyi ilə Türkiyədə COVID-19-a qarşı təsirli peyvənd hazırlanıb



**Xalq TV-nin daha bir qonağı Türkiyənin Ağdəniz Universitetinin professoru, AMEA-nın müxbir üzvü Tərlan Məmmədovdur.**

Müsahibimiz AMEA-nın müxbir üzvü, Türkiyə Prezidenti yanında Vaksin Şurasının üzvü, Ağdəniz Universitetinin professoru Tərlan Məmmədov Azərbaycanda molekulyar biologiya ixtisası üzrə doktorluq dissertasiyası müdafiə edən ilk alimdir. 210 elmi əsərin, 15 müəlliflik şəhadətnaməsinin müəllifidir. Soydaşımızın rəhbərliyi altında 16 fəlsəfə doktoru hazırlayıb.

Həmyerlimiz dünyanın bir sıra universitetlərində, elmi mərkəzlərində, əsasən də, ABŞ-da və Yaponiyada yeni nəsil vaksinlərin hazırlanması sahəsində uğurlu tədqiqatlar aparıb. Çoxsaylı patentlərin və məqalələrin müəllifidir. Azərbaycanlı alim Türkiyədə TÜBİTAK-ın maliyyələşdirdiyi yüksək rəqabətli qrant layihələrin rəhbəridir. Redaksiyamızın qonağı olan məşhur alimlə, onun fəaliyyəti ilə oxucularımızı daha yaxından tanış etmək istədik.

**– Tərlan müəllim, Azərbaycanda və qardaş Türkiyədə çalışdığınız sahənin elm adamları sizi yaxşı tanıyırlar. İstərdik ki, oxucularımız da sizin kimliyinizdən xəbərdar olsun.**

– Azərbaycanda doğulmuşam. Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirdikdən sonra Azərbaycan Milli Elmlər Akademiyasında aspirantura təhsili almışam. Məşhur alim Cəlal Əliyevin rəhbərlik etdiyi Bioloji Mərkəzdə çalışmışam. O dövrdə akademik Cəlal Əliyevin yaratdığı bu mərkəz istedadlı gənclər cəlb edilirdi. Burada aparılan tədqiqatlar ölkə xaricindəki elmi mərkəzlərin də maraq və diqqətində idi. Burada biokimya sahəsində namizədlik, molekulyar biologiya üzrə doktorluq disertasiyası müdafiə etdim. 1998-ci ilə qədər AMEA-da çalışdım.

O dövrdə alimlərimizi davamlı olaraq xaricdə çalışmağa, ortaq layihələrdə işləməyə dəvət edirdilər. Mən də bu sırada olan tədqiqatçılardan idim və dəvət aldığım elmi mərkəzlər sırasında Yaponiyanın Tohoku Kənd Təsərrüfatı Elmi Mərkəzinin, Kiyoto Universitetinin və Kənd Təsərrüfatı Elmləri üzrə Yaponiya Beynəlxalq Tədqiqatlar Mərkəzinin adlarını çəkə bilərəm. 4 ildən cox bu ünlü tədqiqat mərkəzlərinin əməkdaşı olmuşam. 2002–2009-cu illərdə ABŞ-ın Nebraska – Linkoln Universitetində professor və daha sonra bu ölkənin Molekulyar Biotexnologiya Mərkəzində 5 il qrup rəhbəri kimi fəaliyyətimi davam etdirmişəm.

Dünyanın cox nüfuzlu elm və təhsil mərkəzlərində və universitetlərində molekulyar biologiya və molekulyar biotexnologiya sahəsində apardığım tədqiqatların nəticəsi olaraq və doğma akademiya ilə sıx əlaqə saxladığıma görə 2014-cü ildə AMEA-nın müxbir üzvü seçildim. Bundan sonra fəaliyyətimi Azərbaycanla bağlamağı qərara aldım. Doğma məmləkətimdə kadr hazırlığına, bilik və bacarığımı gənclərimizin yetişməsinə sərf etməyi daha məqsədəuyğun hesab etdim. Elə həmin il də Türkiyənin Ağdəniz Universitetinə dəvət olundum və hazırda bu ali təhsil və elm mərkəzində professor olaraq çalışıram.

**– Qardaş ölkədə fəaliyyətiniz nədən ibarətdir?**

– Xaricdə, eləcə də Türkiyədə universitetlər təkcə təhsil vermir, həm də çox zəngin elmi mərkəzlərdir. Ağdəniz Universiteti də ölkənin belə mötəbər təhsil və elm mərkəzlərindən biridir. Burada işə başlamağım uğurlu olub: bir çox qrant layihələri qazandım. Bu layihələr çalışdığım sahədə Türkiyənin ən böyük elmi-tədqiqat mövzusunu əhatə edir. Tədrislə yanaşı, professor olaraq burada Molekulyar Biotexniki Mərkəz yaratmağa nail oldum. İnsan sağlamlığı ucun çox önəmli elmi tədqiqatlar aparırıq, vaksin və dərmanların hazırlanması ilə məşğuluq.

**– Professor, sizin elmi fəaliyyətinizdə dünya alimlərinin, eləcə də, Yaponiya, Amerika kimi dünya nəhənglərinin diqqətini çəkən nə idi?**

– Əsasən fotosintetik tədqiqatlar yaponları çox maraqlandırırdı və bu sahədə ciddi nailiyyətlərinin olmaması onlarda mənim elmi fəaliyyətimə xüsusi maraq yaratmışdı. Uzun illər çox önəmli fotosintetik gen tədqiqatları ilə məşğul olsalar da, bu sahədə uğur qazana bilməmişdilər. Amma mən orada çalışdığım 3 ay içərisində bu uğura nail oldum. Bundan sonra mən Yaponiya hökumətinin istəyi və zəmanəti ilə növbəti dəfə ikiilliyə Yaponiyaya dəvət olundum. Beləliklə, bu 3 ayın böyük töhfəsi olaraq 3 qrant layihəsini qazandım və 5 il gündoğar ölkədə elmi tədqiqatlarla məşğul oldum.

**– Yəqin, yeni texnologiyarın tətbiqi, elmi fəaliyyətə verilən yüksək dəyər və digər amillər sizin əlavə elmi potensialınızın üzə çıxmasında mühüm rol oynayıb.**

– Təbii ki, yeni texnologiyalara tələbatın sürətlə artmasının elmin inkişafında böyük rolu var. Mən Amerikaya gedəndə də yeni DNT texnologiyaları ilə çalışmağa başladım. Buradakı fəaliyyətim insan sağlamlığı, milli və qlobal təhlükəsizlik üçün önəmli olan layihələrlə bağlı idi. Nobel mükafatçısı Georgi Bidelin adını daşıyan, Nebraska–Linkoln Universitetində “Bidel mərkəzi”ndə və sonra həmin universitetin kimya və biomolekulyar mühəndislik şöbəsində qrup rəhbəri və professor kimi çalışdım. Qeyd edim ki, bu dövrdə insan sağlamlığı üçün gərəkli, irsi və xərçəng kimi ağır xəstəliklərə qarşı önəmli dərman və vaksinlər hazırladıq.

**– Bu fəaliyyətinizin məqsədini, elmi mahiyyətini və praktik önəmini qısaca açıqlayın.**

– Şübhəsiz ki, məqsəd insanların sağlamlığını və milli təhlükəsizliyini təmin etmək, bəşəriyyətə sağlam həyat bəxş etməkdir. Burada vaksin məsələsinin xüsusi önəmi var. Düzdür, vaksin adı gələndə adamlar ciddi bir narahatlıq keçirir və hardasa haqlıdırlar. Ona görə də vaksin vurdurmağa meyilli deyillər və daha çox onun zərərlərindən danışırlar. İnsan bədəninə vurulan hər bir antigenin bir yad cisim kimi də təsiri var. Amma bizim başqa yolumuz varmı?

Birmənalı olaraq deyim ki, yoxdur. Misal üçün, pandemiya başlayanda, ilk mərhələdə, ölüm sayı 50 milyon idi, sonraki statistik hesablamalara görə, bu rəqəm 100 milyon oldu. İndi baxın, vaksin olsa idi belə kütləvi ölümun qarşısını almaq olmazdımı?! Ona görə də vaksin hazırlamaq, adamlarda immunitet yaratmaq pandemiyadan qurtarmağın yeganə yoludur. Həm də son illərdəki hadisələr, xüsusən də COVID-19 pandemiya dövründə yaşadıqlarımız bizə çox şeyləri öyrətdi.

**– Məsələn, nələri?...**

– COVİD-19 Çində yayılmağa başlayanda tədbirlər görülməyə başlandı. Eləcə də çalışdığım Ağdəniz Universitetində laboratoriya şəraitində tədqiqatlara başladıq və çox qısa bir zamanda, 2020-ci ilin avqustunda COVİD-19 vaksini üzərindəki işlərimizi başa çatdırdıq. COVID-19-a qarşı sprey formasında dərman hazırladıq və bu vaksin sınaqlardan uğurla çıxdı. SARS-CoV-2 virusunun genlərini “Nicotiana benthamiana” bitki hüceyrələrinə köçürməklə, qısa bir zamanda COVID-19 vaksinlərini əldə etdik. Heyvan üzərindəki testləri və canlı virusla olan sınaqları da basa çatdırdıq.

Bizim hazırladığımız COVID-19 vaksini dünyada bu gün istifadə edilən digər peyvəndlərdən fərqlidir. Peyvəndimiz zülal əsaslıdır, heyvan və bakterial patogenləri yoxdur. ABŞ FDA-nın tövsiyəsinə əsasən, zülal əsaslı peyvəndlər daha təhlükəsizdir. Uşaqlar və ya hamilə qadınlar üçün daha qorxusuzdur.

**– Tərlan müəllim, bu tədqiqatlarınız bizim də diqqətimizdə idi, qəzetimizdə verdiyimiz yazılar cəmiyyətdə böyük maraq doğurdu.**

– Bu işə biz də böyük həvəslə, gecəli-gündüzlü çalışaraq girişdik. Qarşıya məqsəd qoymuşduq ki, hazırladığımız protein əsaslı vaksin COVID-in bütün mutasiyalarına qarşı təsirli olsun. Dünyaya bəlli olan və insanların qəbul etdiyi vaksinlər müəyyən bir dövrdə baş verənlərin qarşısını aldı. Bəs sonra? COVID-19-un mutasiya olunmuş, daha cox öldürücü “Delta” növü gəldi. Sonra “Omikron” peyda oldu. İstifadə edilən vaksinlər bu variantlara qarsı təsirsiz və səmərəsiz oldu.

Mümkün idi ki, digər mutasiya olunmuş növlər də ortaya çıxsın. Ona görə də biz məsələyə daha qlobal yanaşdıq və ortaya qoyduğumuz vaksin bütün mutasiya olunmuş növlərə qarşı təsirli oldu. Onun gələcəkdə ortaya çıxacaq bütün mutasiyalara qarşı dayanıqlı olacağına inanırıq. Hazırladığımız vaksinin Ümumdünya Səhiyyə Təşkilatının siyahısına salındığını da qeyd etmək istəyirəm.

Bu yaxınlarda prestijli “Frontiers” elmi jurnalında “Bitki tərkibli RBD və kokteyl əsaslı peyvəndlər ortaya çıxan variantlardan asılı olmayaraq SARS-CoV-2-yə qarşı yüksək səmərəlidir” başlıqlı məqaləmiz dərc edildi. Bu məqalə COVİD-in bütün variantlarına qarşı təsirli olan vaksin haqqında dünyada ilk və yeganə hesabat tipli məqalə oldu. Maraqlananlar məqalənin tam mətninə bu linkdən baxa bilərlər: https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC10433747/

Apardığımız tədqiqatlar və uğurlu nəticələr təbii ki, məsələnin çox önəmli tərəfidir, amma digər önəmli məsələ onun istehsalı və dövriyəyə buraxılaraq tətbiq edilməsidir. Bunun üçünsə investisiya lazımdır və investor köməyi olmadan bu mümkün deyil. Koronavirus həmişə olub və bundan sonra da olacaq. Amma onun qarşısını alan universal bir vaksinin hazırlanması lazımdır.

Biz belə peyvənd hazırlamışıq və dediyim kimi həmin vaksin Ümumdünya Səhiyyə Təşkilatının siyahısına salınıb. İnvestor olarsa asanlıqla istehsal edilə bilər. Laboratoriya şəraitində 1 kiloqram “Nicotiana benthamiana” bitkisindən 25 milliqrama qədər, başqa sözlə desək, 5 min insana kifayət edəcək qədər kokteyl peyvənd hazırlanması mümkündür. Vaksin üzərində işlər başa çatdıqda onu tarixi qələbəmizin şərəfinə “Qarabağ” adlandırmağı düşünürük.

**– Sizcə, pandemiyanın yenidən qayıdışı mümkündürmü?**

– Əslində, bu barədə mütləq bir şey söyləmək çətindir, amma bu heç də o demək deyil ki, bu məsələ tam bitib və virus yox olub. Bizi əhatə edən mühitdə COVID-19 virusunun “Omikron” variantı dominatdır. Bunun yeni bir pandemiya dalğası yaratmasına inanmıram, amma onun insanlar üzərində neqativ dalğasının yox olmasına çalışmaq xüsusi önəm daşıyır və buna hazır olmaq lazımdır. Bunun üçün də lazımi dərman pereparatlarının və vaksinlərin istehsalına nail olmaq vacibdir.

Onu da qürurla demək olar ki, əlimizdə belə bir pereparat var və bir az əvvəldə dediyim kimi onu az bir zamanda əldə etdik: 2020-ci ilin yanvarında başladığımız bu işi avqustda uğurla başa çatdırdıq, testlərimizi heyvanlar üzərində uğurla sınaqdan keçirdik. İndi onu insanlar üzərində tətbiq etməyin və kütləviləşdirməyin zamanı çatıb. Bunun üçün də, dediyim kimi, ilk növbədə, Azərbaycan və Türkiyə dövlətinin, iri iş adamlarının dəstəyinə ehtiyac var və layihənin böyük səmərə gətirəcəyindən əminəm.

**(ardı var)**

***Tahir AYDINOĞLU,***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Dünyaya ədalət çağırışı

## *Müstəmləkəçiliyə qarşı Azərbaycan cəbhəsi*

**Ölkəmizdə keçirilən tədbirlər, o cümlədən onların sayının çoxluğu heyrət doğurur. Düzdür, bəzən tədbir xatirinə tədbirlərə rast gəlinir. Sosial şəbəkələrin sayəsində adi, sıradan yığıncaqlar da bəzən elə reklam edilir ki, sanki fövqəladə nə isə baş verib. Qaynar Azərbaycan mühiti, ard-arda eşitdiyimiz xəbərlər, informasiya axını bəzən ciddi, vacib və əhəmiyyətli toplantıların kölgədə qalma reallığını doğurur.**



**Rəşad MƏCİD,**
**Azərbaycan Mətbuat Şurasının sədri**

Bugünlərdə paytaxtımızda Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən “Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik” beynəlxalq konfransı televiziyalarımızda, xüsusən AzTV-də yetərincə işıqlandırılsa da, düşünürəm ki, tədbirin Azərbaycanın indiki mövqeyi baxımından daha dərindən təhlilinə və təbliğinə ehtiyac duyulur.

Əvvəla, Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciəti siyasətçilərimiz və diplomatlarımız tərəfindən diqqətdə saxlanılmalı, müraciətdə ifadə olunmuş tezislər diplomatiyamızın və xarici siyasətimizin ana xəttinə çevrilməlidir. Hesab edirəm ki, dövlətimizin başçısının fikirləri müdrik, ağıllı və kifayət qədər mahir düşünülmüş hücum strategiyasıdır. Müraciətdə əksini tapanlar, eyni zamanda, Azərbaycanın hədəflərinin nümayişi baxımından da müstəsna əhəmiyyətə malikdir.

Həqiqətən, müxtəlif qitələri təmsil edən 14 ölkənin, habelə ədalət uğrunda mübarizə aparan ərazilərin təmsilçilərinin Bakıda belə bir mötəbər toplantıda bir araya gəlmələri adi məsələ sayıla bilməz. Əslində, konfransın mötəbərliyi və bu mötəbərlikdəki Azərbaycan böyüklüyünü düşünərkən yadıma Qoşulmama Hərəkatının Bakıda keçirilmiş mühüm tədbirləri düşdü. Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə vaxtilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın BMT tribunasından səsləndirdiyi “dünya beşdən böyükdür” fikrini əməli fəaliyyət müstəvisinə daşıdı.

Prezident İlham Əliyev “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda bu ilin iyulunda Bakıda keçirilmiş nazirlər görüşünün iştirakçılarını salamlayarkən bildirmişdi ki, hazırda beynəlxalq təşkilatlar, xüsusilə BMT bəşəriyyətin gözləntilərinə cavab vermir. Qurumda ciddi islahatların aparılmasının qaçılmazlığını vurğulayan dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasını keçmişin qalığı adlandırmış və onun hazırkı reallıqları əks etdirmədiyini vurğulamışdı. “Biz Təhlükəsizlik Şurasında daha çox ölkənin təmsil olunması və coğrafi baxımdan daha ədalətli olması üçün onun tərkibinin genişləndirilməsinin tərəfdarıyıq. Şadam ki, bu gün bu ideya ilə bağlı dünyada artan konsensus vardır. Əvvəllər qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməlidir. Zənnimizcə, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələr BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer almalıdırlar”.

Qətiyyətlə demək olar ki, Azərbaycan BMT “beşliyinə” qarşı Qoşulmama Hərəkatını alternativ kimi meydana çıxarmağa müvəffəq oldu. Heç şübhəsiz, bu, ölkəmizin böyük uğurudur və əslində, “Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik” adlı beynəlxalq konfrans da əvvəlki uğurların davamı olaraq əlamətdardır və dünyaya ədalət çağırışımızdır. Əlbəttə, bu missiyada prinsipiallıq ön planda idi.

Mövcud anlamda Azərbaycan Prezidentinin toplantı iştirakçılarına müraciəti üzərində xüsusi dayanılmalı məqamdır: “Bugünkü konfrans kolonializm, onun fəsadları və neokolonializmlə mübarizə ilə bağlı qlobal gündəlikdə dayanan çağırışlar və imkanların müzakirəsi üçün əlverişli fürsətdir. İnanıram ki, konfrans çərçivəsində aparılacaq müzakirələr kolonializmə qarşı mübarizə sahəsində birgə səylərin səfərbər olunmasına, bəşəriyyətin rifahı və gələcək nəsillərə “kolonializmdən azad dünya” miras qoymaq məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir”.

Azərbaycanın Qoşulmama Hərəkatı müstəvisində qoyduğu liderlik təməli o qədər möhkəmdir ki, hərəkatı dünyada ədalətin bərpası platforması kimi də dəyərləndirmək mümkündür. Ədalət isə özlüyündə bəşəriyyətin müstəmləkəçilik siyasəti yürüdən dövlətlərinə, o cümlədən Fransaya qarşı açılmış cəbhədir. Ancaq bu cəbhənin daha böyük mahiyyəti var. İnsanlığa qarşı cinayətlər, soyqırımları törətmiş dövlətlər üzr istəməli, günahlarına görə məsuliyyət daşımalıdırlar. Ölkəmizin istər Qoşulmama Hərəkatı, istərsə də digər müstəvilərdə sürətlə dəyişən dünyada öz mövqeyini və yerini müəyyənləşdirən cəsarətli addımlar atması mövcud istiqamətdəki etibarlı təminatdır. Fikrimcə, dövlətimizin başçısının müraciətindəki “kolonializmdən azad dünya” məntiqi də elə budur. Elə həm də buna görə Azərbaycan Prezidenti bildirir: “Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir. Sizin 2023-cü ilin 6 iyulunda Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Bakıda keçirilən nazirlər toplantısı zamanı, daha sonra 22 sentyabrda Nyu-Yorkda BMT Baş Assambleyasının qərargahında, bu gün isə yenidən Bakıda bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən kolonializm, onun fəsadları və neokolonializmlə mübarizəyə həsr olunmuş tədbirdə iştirakınız Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi bu məsələyə göstərdiyi dəstəyinin əyani göstəricisidir”.

Əlbəttə, “Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik” adlı beynəlxalq konfrans barədə təəssüratlarım kifayət qədər zəngindir və onların hər birini diqqətə çatdırıb müxtəlif nəticələrə gələ bilərəm. Həm də o səbəbdən ki, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin təbirincə desək, toplantıda müstəmləkəçiliklə



mübarizə ilə bağlı çoxlu fikir eşidildi. Hikmət müəllim, eyni zamanda, vurğuladı ki, Azərbaycan siyasi azadlıq sahəsində səylərini, mübarizəsini və ambisiyalarını davam etdirəcək, tədbirdə səslənmiş fikirləri BMT və digər beynəlxalq təşkilatlar səviyyəsinə qaldıracaqdır. Çünki ölkəmiz də uzun illər müstəqillikdən məhrum vəziyyətdə yaşayıb, işğalla üzləşib.

Deməli, Azərbaycan, Fransa başda olmaqla, müasir dünyanın kolonialist sisteminə mübarizə ruhunu aşılayır. Bu, son dərəcə böyük hadisədir və bu hadisədə, heç şübhəsiz, başlıca motiv bir yandan dünyaya, belə demək mümkünsə, ədalət ixracıdır, digər yandan isə ölkəmizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü əbədi görmək əzmi, qətiyyəti və iradəsi var. Düşünürəm ki, bu gün Prezident İlham Əliyev başda olmaqla, dövlətimizin həyata keçirdiyi çoxşaxəli, çoxxassəli siyasətin motivində dayanan başlıca vəzifə məhz budur.

Ölkəmizin belə yanaşması, ümumiyyətlə, fundamental mövqeyi yüksək qiymətləndirilir. Bunu “Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik” mövzusunda beynəlxalq konfransın iştirakçılarının Azərbaycan Prezidenti İlham Əliyevə müraciətindən də görmək mümkündür. Onlar ədalət və azadlıq uğrunda apardıqları haqlı mübarizədə göstərdiyi ardıcıl dəstəyə görə dövlətimizin başçısına təşəkkürlərini bildirərək, ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə gördüyü işləri, irəli sürdüyü təşəbbüsləri və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımları, xüsusilə kolonializmə qarşı mübarizədə qətiyyətli mövqeyini alqışlayıblar: “Biz əminik ki, birgə apardığımız haqlı mübarizə və bu xüsusda dünya ictimaiyyətinin artan tələbləri dekolonializmlə bağlı zəruri addımların atılmasına və təbii haqqımız olan hüquq və azadlıqlarımızın təmin olunmasına kömək edəcək”.

Bütün bunlara görə “Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik” adlı konfransın, habelə bu kimi digər toplantıların cəmiyyətimizdə daha geniş təbliğinə son dərəcə böyük ehtiyac var. İnsanlarımız, ümumən mütərəqqi beynəlxalq ictimaiyyət Azərbaycanın həyata keçirdiyi işin nəinki böyüklüyünü görməli, eyni zamanda, o böyüklük anti-bəşəri meyillərə qarşı dirəniş, təbii immunitet formalaşdırmalıdır. Bu isə həm yaşadığımız Cənubi Qafqaz regionunda, həm də bütövlükdə dünyada əbədi sülhə mühüm töhfədir.

# Nobel mükafatçısı Əziz Səncər ilə onlayn görüş

**Dünən "Naxçıvan" Universitetində Nobel mükafatçısı, ABŞ-nin Şimali Karolina Universitetinin professoru Əziz Səncərin onlayn iştirakı ilə görüş keçirilib.**

Tədbiri giriş sözü ilə açan rektor Anar Kazımov bildirib ki, Əziz Səncər şəxsiyyəti elm sahəsində Nobel mükafatı alan ilk türk alimi kimi Azərbaycan xalqı üçün çox əzizdir. Natiq onu da diqqətə çatdırıb ki, Universitet Elmi Şurasının 21 sentyabr 2023-cü il tarixli qərarı ilə Elmi Kitabxanada "Əziz Səncər adına oxu zalı" təsis edilib.

Tədbirdə UNEC rektorunun müşaviri, dosent Elşən Bağırzadə, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Türkiyə Cümhuriyyəti Atatürk Universitetinin professoru Kerem Karabulut, Qars Qafqaz Universitetinin professoru Hacalı Nəcəfoğlu çıxış edərək bildiriblər ki, Əziz Səncərin ürəyi hər zaman Azərbaycanla döyünüb.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin



2021-ci il 10 sentyabr tarixli sərəncamı ilə Nobel mükafatçısı, görkəmli alim Əziz Səncər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Çıxışlarda Nobel mükafatçısının Şuşa səfərindən danışılıb. İkinci Qarabağ müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində hər iki valideynini itirmiş 3 yaşlı Xədicə Şahnəzərovanın təhsil xərcləri üçün yardım ayırması vurğulanıb. Qismət olarsa, Naxçıvana səfər edəcəyini bildirən Nobel mükafatçısı Əziz Səncər gənclərə tövsiyələrini verərək uğura gedən yolun formulunu onlarla bölüşüb. Alim qeyd edib ki, istənilən uğura yalnız zəhmət və fədakarlıqla nail olmaq mümkündür.

"İstər Amerika olsun, istərsə də başqa ölkələr, dünyanın heç bir yerində zəhmətkeş insanın qarşısında heç kim dura bilməz", - deyən professor həyatda şansa inanmadığını, bütün nailiyyətlərə alın təri ilə sahib olduğunu diqqətə çatdırıb.

Ömrünü, demək olar ki, bütünlüklə elmə həsr edən alim gəncləri davamlı mütaliə və elmlə məşğul olmağı tövsiyə edib. Tədbir Nobel mükafatçısına tələbələr tərəfindən ünvanlanan suallar və "Əziz Səncərdən elm və milli inkişaf haqqında aforizmlər" adlı kitabın imza mərasimi ilə başa çatıb.

*XQ*

---

**Yadımdadır, 1970-ci illərin ikinci yarısında Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində mənimlə milliyyətcə balkar olan Boris Berbekov adlı bir tələbə təhsil alırdı. Kabarda-Balkarın paytaxtı Nalçik şəhərindən idi. Çox şən, həyatsevər gənc idi. Aramızda dostluq münasibətləri yaranmışdı.**

# Balkarlar qədim türkdilli xalqdır

Boris Azərbaycanın, bütövlükdə türk dünyasının tarixi ilə yaxından maraqlanırdı, mənə də yeri düşdükcə bu barədə çoxlu suallar verirdi. Təbii ki, onun suallarını həvəslə cavablandırmağa çalışırdım.

Biz söhbət zamanı Azərbaycan və balkar xalqlarının dillərində eyni, yaxud oxşar sözlərdən də tez-tez söz açırdıq. Hər dəfə hər iki dildə işlənən yeni bir söz "kəşf edəndə" bundan çox məmnun qalardıq. Vahid türk dil ailəsinə məxsus olmağımız biz bir-birimizə daha yaxından bağlayırdı.

O dönəmdən məndə qədim və şanlı tarixi olan balkar xalqının mədəniyyətinə, bu xalqın istedadlı sənət və incəsənət adamlarının fəaliyyətinə dərin maraq oyanmışdı.

Dostumun söhbətlərindən öyrənmişdim ki, balkarlar (çox vaxt özlərini alanlar adlandırırlar-müəllif) — Şimali Qafqazda yaşayan və qumuqlar, qaraçaylılar ilə birlikdə türk xalqları ailəsinin qıpçaq qoluna aid olan qədim xalqdır.

Balkarlar onlarla qonşuluqda yaşayan qaraçaylılara dil və adət-ənənələr baxımından çox yaxındırlar. Bəzi araşdırmaçılar qaraçaylılarla balkarları hətta eyni xalq hesab edirlər. Belə ki, yaylaq-qışlaq maldarlığı ilə məşğul olan bu xalqın bir hissəsi Şimali Qafqazın düzənliyində (qışlaqda) daim məskunlaşaraq qaraçay, dağlarda (yaylaqda) qalanlar isə balkar və yaxud "malkarlar" adlanmağa başlayıb. Xatırlayıram ki, bu versiya ilə tələbə dostum da razılaşırdı.

Tarixən Şimali Qafqazın dağlıq ərazilərində yaşadıqları üçün balkarlar özlərini "davlular" (dağlılar) da adlandırırlar. Balkarlar Kabarda-Balkar Respublika-



sında kabardinlərdən sonra ikinci böyük xalqdır.

Balkarların dəqiq sayları barədə səhih məlumatlar azdır. Onların ümumi sayının təxminən 170 min olduğu bildirilir. Balkarların əsas hissəsi, təxminən 110 min nəfəri, tarixi vətənləri olan Kabarda-Balkarda yaşayır. Onların Türkiyə, Suriya və Misirdə mühacir adı ilə böyük diasporları mövcuddur.

Təəssüf ki, 1944-cü ildə balkar millətindən olan zabit və əsgərlər cəbhədə faşist Almaniyasına qarşı vuruşarkən, onların ailələri sovet hökuməti tərəfindən ağır repressiyaya məruz qaldı. Balkar xalqı Qazaxıstan çöllərinə deportasiya olundu.

Balkarlar sürgünlük illərində ağır məhrumiyyətlərə məruz qalıblar. Nəhayət, 1957-ci ildə onların hüquqları qismən bərpa olunub. Balkar ədəbiyyatı və incəsənətində bu mövzuda bir çox təsirli əsərlər yaranıb.

***Məsaim ABDULLAYEV***
***XQ***

---

Türküstanı gəzə-gəzə...

# Surxandəryada buddizmin izləri – Dalvarzintəpə



**(Birinci yazı)**

***Özbəkistanın Surxandərya vilayətinin mərkəzi Termez şəhərinin 60 kilometrliyində, Baysuntau və Babadağ dağ silsilələri arasında məhsuldar bir vadidə Dalvarzintəpə adlı qədim bir şəhər var. Şəhər xərabələri desək, daha düzgün olar. Uzun illərdir ki, arxeoloqlar bu şəhərdə qazıntı işləri aparırlar. Qazıntılar nəticəsində məlum olub ki, şəhərin antik dövrdən başlayan bir tarixi var.***

Bir vaxtlar Dalvarzintəpə regionun mərkəzi şəhəri olub. Tapıntılar deməyə əsas verir ki, şəhər qədim Kuşan səltənəti dövründə - e.ə. I əsrdən başlayaraq eramızın VI-VII əsrlərinə qədər özünün çiçəklənmə dövrünü yaşayıb.

Dalvarzintəpə şəhəri antik dövrdə inkişaf etməyə başlayıb. Burada əhali heyvandarlıqla məşğul olub. Şəhər inzibati bölgələrə ayrılıb, burada inkişaf etmiş infrastruktur, hərbi mühafizə dəstələri, vergi sistemi fəaliyyət göstərib. Şimali Baktriyanın mədəni mərkəzi olan Dalvarzintəpə Aleksandr Makedonskinin bu əraziləri fəthindən sonra daha da inkişaf edib.

Arxeoloji qazıntılar nəticəsində məlum olub ki, şəhərin əsas hissəsi böyük su xəndəkləri ilə əhatə olunub, bu da düşmən hücumundan müdafiə vasitəsi idi. Şəhərin mühafizə divarlarının uzunluğu 2,5 km, eni 10 metr olub. Dalvarzintəpənin şimal-qərb hissəsində Baktriya ilahəsinin məbədi yerləşib. Məbəddə divarüstü rəsmlər, ağacüstü oymalar, kahin və körpə uşaq şəkilləri tapılıb.

Şəhərdə suvarma sistemləri olub, əyanların evləri mərkəzdə yerləşib. Sadə insanlar şaxrastan adlanan ərazidə yaşayıb, sənətkarların ayrıca məhəlləsi olub. Şəhərin şərq hissəsində müsəlman məzarlığı aşkar edilib.

1972-ci ildə arxeoloqlar böyük salonu, müxtəlif otaqları olan zəngin bir evdə 36 kiloqramlıq xəzinə tapıblar.Saxsı qabın içində yüzdən çox qızıl, gümüş, qiymətli daşlar, fil sümüyündən şahmat fiqurları, zinət əşyaları olub. Xəzinə bizim eranın I əsrinə aid edilir. Dünya əhəmiyyətli bu xəzinə Orta Asiya xalqlarının əcdadlarının mədəniyyəti, incəsənəti, bədii sənətkarlıq üslubları, Şimal-Qərbi Hindistan ilə əlaqələri haqqında məlumat almağa imkan verir.

Bu vaxta qədər elə hesab edilirdi ki, şahmat oyunu VI əsrdə Xosrov Ənuşirəvan dövründə İranda yaranıb. Xəzinədəki miniatür fil və öküz şəklində şahmat fiqurları sübut edir ki, hələ eramızın I əsrinin ortalarında Şimali Baktriyada şahmat haqqında məlumat var imiş.

Şəhər qazıntılarından çıxan xoşbəxtlik və uğur ilahəsi Fortunanın serdalikdən hazırlanmış fiquru isə Dalvarzintəpənin Roma imperiyası ilə ticarət əlaqələrinin olmasından xəbər verir.

Şəhərin əsas hissəsi yüksəklikdə yerləşdiyi üçün Vışqorod adlanıb.Vışqorodun mərkəzində eramızın II-III əsrlərinə aid buddist məbəd aşkar edilib.Şəhər divarlarından kənarda eramızın I əsrinə aid daha bir buddist məbədin qalıqları üzə çıxarılıb. Qazıntılar zamanı Buddanın 3 insan boyu hündürlüyündə heykəlləri, buddizm mifologiyasının qəhrəmanlarını əks etdirən fraqmentlər, hökmdarın və onun varisinin, varlı qadın və nökərinin büstləri, saxsı əşyalar aşkarlanıb. Bu yerdə heykəllər, rəsmlər, zinət əşyaları, əlində arfa tutan musiqiçi fiquru da tapılıb. Alimlərin fikrincə, Özbəkistandakı ən qədim və böyük buddizm mərkəzi məhz Dalvarzintəpədə yerləşib.

Kuşan səltənətinin tənəzzülü Dalvarzintəpə şəhərindən də yan keçməyib. Çiçəklənən, inkişaf edən şəhər ərəblərin istilası nəticəsində məhv olub. Bu haqda xalq arasında belə bir əfsanə dolaşır. Dalvarzintəpənin müdrik, bütpərəst, Dal adlı sehrbaz hökmdarı, onun isə gənc bir qızı olub. Həmin dövrdə ərəblər artıq Surxan vadisinə hücum etmişdir. Ərəb ordusunun başında Məhəmməd peyğəmbərin əmisi oğlu Əli dururdu. Qələbə çala-çala gələn ordu Termezi ələ keçirib, Dalvarzintəpəyə çatıb, lakin şəhəri fəth edə bilməyib. Səbəb isə şəhərin ətrafındakı su xəndəkləri idi. Əli heç cür suyun qarşısını kəsə bilmirdi. Hökmdarın qızı olduğunu öyrənən Əli tez-tez qızın eyvanının altından keçir, qızın diqqətini cəlb etməyə çalışır. Gəncin gözəlliyi, yaraşıqlı qədd-qaməti qızın xoşuna gəlir. Bunu hiss edən Əli oxun ucunda qıza məktub göndərir, ona sevgisini etiraf edir. Bir müddət məktublaşırlar. Bir gün Əli qızdan soruşur ki, niyə xəndəklərə gələn suyun qarşısını almaq mümkün olmur? Qız ona deyir ki, şəhərdən bir qədər aralıda su buruğları var, ordan su yerin altı ilə gəlib xəndəklərə dolur, sadəcə onun ağzını bağlamaq lazımdır.

Əlinin adamları suyun mənbəyini bağladıqdan sonra hücum edib şəhəri alırlar. Lakin görürlər ki, şəhərdə yalnız heyvanlar var, insanlardan əsər-əlamət yoxdur. Əli anlayır ki, Dal öz sehri ilə insanları heyvana döndərib. İri heyvanları öldürmək əmri verən Əli düşünür ki, yəqin hökmdar onların arasında olar. Lakin Dal balaca it cildində Quzar şəhərinə qaça bilir.

Hökmdarın qızı deyir ki, Quzar hər tərəfdən hündür qamışlarla əhatə olunub. Külək əsən səmtdən onları yandırsan şəhəri ala bilərsən. Əli belə də edir, şəhəri yandırıb hökmdarı, sonra isə qızını öldürür, çünki atasına xəyanət edən qıza etibar olmaz. Beləliklə, Əli Curxandərya və Qaşqadəryada müsəlmanlığın əsasını qoyur.

Bir vaxtlar Baktriyanın mərkəzi olan möhtəşəm Dalvarzintəpə şəhəri ərəblərin gəlişi ilə darmadağın olur. İnsanlar şəhərdən uzaqlaşır, qan tökülən yerdə yaşamaq istəmirlər. Yaşanmayan yer isə gec-tez xarabazara çevrilir.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Termez**

---

# Xalqları mənəvi tellərlə bağlayan mahnılar...

**Əziz oxucular, yəqin ki, yadınızdadır, respublikanın Əməkdar artisti, mərhum Baloğlan Əşrəfov görkəmli yazıçı-şair Əlibala Hacızadənin sözlərinə bəstələdiyi "Nədəndir?" böyük sevgi və şövqlə ifa edirdi.**



Mahnı qısa müddətdə çox populyarlaşmışdı və qardaş Türkiyədə də bu mahnı sevildi. Baloğlan müəllimin sağlığında mahnını bəstəkarın icazəsi ilə Türkiyənin pop-ulduzu Sərdac Ortac şirin türk ləhcəsində böyük həvəslə oxumağa başladı və insafən hər iki ifa geniş tamaşaçı auditoriyası qazandı.

Maraqlı cəhət həm də bundadır ki, türkiyəli ulduz bu mahnını hər dəfə oxuyanda təkcə bəstəkarın adını deyil, mahnının sözlərinin müəllifini də böyk ehtiramla qeyd edir və bu dəyərli misraların son dərəcə həssas və sevən bir qəlbə sahib olan yaşlı insan tərəfindən yazıldığını xüsusi vurğulayır:

*Gah ağladıb, gah güldürdün sən məni,*
*Hikmətini bilmək olmur nədəndir,*
*Sərun suya qərq elədin cahanı,*
*Göz yaşımı silmək olmur, nədəndir?*

Əziz oxucu, bu yazıda məqsədim "Nədəndir" mahnısının məziyyətləri barədə söz açmaq deyil. Sadəcə, demək istəyirəm ki, uzun onillər boyu bir-birindən ayrı düşmüş qardaş türk xalqlarını bir-birinə bağlayan mənəvi tellərdən biri, bəlkə də birincisi musiqidir.

Bu qeydlərimi bəlkə də burada bitirmək olardı. Lakin bir hadisəni qeyd etməyi özümə borc bilirəm. Bu yaxınlarda redaksiyamıza "Nədəndir" mahnısının sözlərinin müəllifi, yazıçı-şair Əlibala Hacızadənin qızı, uzun illər AZƏRTAC-ın Moskvada müxbiri olmuş Asya Hacızadə təşrif buyurmuşdu.

Ona hörmətli Əlibala müəllim ilə ilk tanışlığım və sonrakı görüşlərim barədə söz açdım. Asya xanım söhbət "Nədəndir" mahnısından düşəndə dedi:

– Atam bu mahnını çox sevirdi və ona hər iki müğənninin ifasında qulaq asmaqdan doymurdu.

***M.HACIXANLI***
***XQ***

---

# "Türk" – "truq", "druq", "dost"

**Türkologiya, türk dilləri, onların arealı, yayıldığı coğrafiya məni daim maraqlandırıb. Hətta rus dilində nəşr edilmiş "Yüz türk etnosu" adlı kitabın tərtibçisiyəm. Bunlar öz yerində.**

Məni bu mövzuda daim bir fikir məşğul edib: Bəs görəsən "türk" sözü öz mənşəyini haradan götürüb?

Əlbəttə, bu istiqamətdə fərziyyələr, şərhlər, mülahizələr, mühakimələr çoxdur. Doğrusu, mövzu ilə bağlı indiyəcən oxuduqlarımın və eşitdiklərimin heç biri məni qane etməyib. Fəqət bu günlərdə söhbətini TV-də dinləyib bir alim-ziyalının qənaətləri məndə böyük maraq hissi doğurdu. Belə ki, Altay Diyarını Xalq şairi, Yazıçılar Birliyinin sədri, türkoloq, şərqşünas, tərcüməçi, Altay xalqının 1912-ci ildə keçirilən qurultayında "El başçı" seçilmiş Brontoy Yanqi oğlu Bedürov öz teleçıxışında bu məsələyə bir xeyli işıq tutdu, aydınlıq gətirdi.

Sən demə, Altaydakı türk xalqlarının dilində (məsələn: telenqut və yaxud telengit (ruslar buna teleut deyirlər-müəllif) "türk" sözünün



konkret anlamı, mənası varmış. Belə ki, türk sözü bu diyarda türkindaş, türköndaş formalarında "doğma", "yaxın", "canbir", "əziz olan" mənalarında işlədilirmiş.

Məsələn, "sən mənim türköndaşımsan". Yəni, sən mənim doğmamsan. Bu leksem dilimizdə möhkəm yer tutmuş "qar(ın)daş", "sirdaş", "yoldaş" sözləri kimi bizə yaxın, həm də gördüyünüz kimi "uzaq" imiş...

Yeri gəlmişkən, bir vaxtlar Altayda Türkeş xaqanlığı da olub. Bəs bu "türköndaş" sözü necə, nə vaxt meydana gəlib?

"Xalq qəzeti"ndə növbəti yazımda bu barədə söhbət açaram.

Burada bir məqamı da xatırlatmağa ehtiyac var. O da budur ki, "türk" sözü bəzi hallarda "truq" kimi də işlənib. Ehtimal etmək olar ki, rusların "druq" sözü də buradan yaranıb. Hərçənd ki, rus izahlı lüğətlərində "druq"un "derjat" sözündən yarandığı iddia olunur. Bu istiqamətdə də araşdırmalar davam etdirilməlidir.

***Firuz MUSTAFA,***
***Əməkdar incəsənət xadimi***

---

# ADPU-da dəyirmi masa



**Türkiyənin Şərqi Aralıq dənizi Universitetinin Siyasət və beynəlxalq əlaqələr fakültəsinin müəllimi, Xalq Partiyasının sədri, Şimali Kipr Türk Respublikasının (ŞKTR) keçmiş xarici işlər naziri, professor Qüdrət Özersayın iştirakı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Son qlobal proseslər fonunda ŞKTR və Azərbaycanın əhəmiyyətinin artması, Zəngəzur dəhlizi məsələsində haqlı mövqe" mövzusunda dəyirmi masa keçirilib.**

Əvvəlcə ADPU-nun rektoru, professor Cəfər Cəfərov qonaq haqqında iştirakçıları məlumatlandırıb.

Professor Qüdrət Özersay çıxışında Şimali Kipr Türk Respublikasının tarixindən, Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyi uğurlardan, işğal altında olan torpaqlarımızın tamamilə düşmən əsarətindən qurtulmasından, həmçinin Zəngəzur dəhlizinin əhəmiyyətindən danışıb.

Görüşdən sonra Qüdrət Özersay ADPU-nun inzibati binası ilə tanış olub.

*XQ*

**Təbiətin yaraları**

# Göllər Azərbaycanın görən gözüdür

## Bəs niyə onları kor qoymuşuq?

**II YAZI**



**(əvvəli 1-ci səhifədə)**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinə Abşeron yarımadasında yerləşən duzlu göllərlə bağlı ünvanladığımız sorğuya cavab olaraq bu sahədə ekoloji vəziyyəti ağırlaşdıran səbəblərdən biri kimi əhalinin sayının getdikcə artması nəticəsində mövcud göllərin ətrafındakı mühafizə zonalarında kortəbii yeni yaşayış massivlərinin salınması göstərilir. Qeyd olunur ki, həmin ərazilərdə sürətlə yaşayış evləri tikilir, məhəllələr salınır, amma mərkəzləşdirilmiş kanalizasiya sisteminin qurulması unudulur. Belə şəraitdə isə əhali məişət-çirkab sularının birbaşa yaxınlıqda olan göllərə və ətraf ərazilərə axıdılması məcburiyyəti ilə qarşılaşır. Nəticədə, həmin su hövzələri zərərli maddələrlə çirklənərək güclü antropogen təsirlərin mərkəzinə çevrilir.

Məlumatda Abşeron yarımadasında həcm baxımından 14 iri gölün–Xocəsən, Qırmızı, Puta, Qu, Masazır, Mirzələdi, Qızılnohur, Pirşağı, Kürdəxanı, Bülbülə, Binəqədi, Zabrat, Zığ və Böyükşorun adları çəkilsə də, onların hansı ekoloji təsirlərə məruz qalmasının üzərindən sükutla keçilir. Halbuki açıqlamanın əvvəlində göllərin sadalanan səbəblər üzündən çirklənməsi bildirilir. Məsələn, min hektara yaxın sahəni əhatə edən Masazır gölünün Bakı şəhərindən 21 kilometrlik məsafədə, Abşeron rayonunun Masazır qəsəbəsinin yaxınlığında yerləşdiyi, suyunda duzluluğun yüksək olması-110 promil təşkil etdiyi vurğulansa da, kənar təsirlərə məruz qalması barədə heç bir söz deyilmir.

Əslində, adıçəkilən nazirliyə ünvanladığımız yazılı sorğuda da məqsəd Masazır gölünün, eləcə də digər su hövzələrinin zərərli maddələrlə çirklənərək antropogen təsirlərə necə məruz qalmasını öyrənmək və qurumun bu barədə gördüyü tədbirlərin nəticəsi barədə oxucuları tanış etmək idi. Lakin məlumatın ilk abzasında göllərin acınacaqlı vəziyyətini ifadə edən ümumi qeydləri nəzərə almasaq, qalan hissədə məlum statistik göstəricilərdən savayı, narahatlıq doğuran vəziyyət barədə heç nə vurğulanmır. Belə olan təqdirdə, materialın hazırlanmasında ümumi müşahidələrimizə, sakinlərin fikirlərinə, ən əsası isə ekspert rəyinə əsaslanmalı olduq.

Masazır gölü ətrafında indi illər əvvəlki mənzərədən əsər-əlamət yoxdur. Evlər duzlu su hövzəsinin, necə deyərlər, artıq bir addımlığındadır. Gölün lap yaxınlığında Badam bağının yerində Villa Badam kimi yeni yaşayış məntəqəsi diqqət çəkir. Binalar və drenajsız sərt örtüklər (asfalt və beton), həmçinin kanalizasiya sisteminin qurulması hövzəyə daxil olan yağış və qrunt sularının azalmasına səbəb olur. Şübhəsiz ki, belə bir vəziyyət gölə su axınına mənfi təsir göstərir və hövzəni quruma təhlükəsi ilə üzləşdirir.

Burada bir məqamı da zəruri olduğu üçün bir daha xatırladırıq. Qeyd edildiyi kimi, Masazır qəsəbəsinin müəyyən hissəsində, eləcə də Novxanı yaşayış sahəsində artıq bir neçə ildir ki, kanalizasiya sistemi işləyir. Mütəxəssislərin fikrincə, bu, adamda gölün ekoloji vəziyyətinin qorunması təsəvvürü yaratsa da, əslində, kanalizasiya sistemi təbii su axınının məhdudlaşdırılmasına, bura daxil olan yağış və qrunt sularının azalmasına, kənar ərazilərdəki tullantı sularının yenidən gölə sızmasına, nəticədə, gölün quruma təhlükəsi ilə üzləşməsinə şərait yaradır.

Beləliklə, gölün quruma ehtimalının qarşısını almaq üçün ən yaxşı həll yolu gölətrafı ərazini əvvəlki vəziyyətə gətirmək, başqa sözlə, hövzəyə istiqamətlənən su axınını təmizləməklə onu yenidən Masazır gölünə yönəltməkdir. Bununla yanaşı, sözügedən coğrafi sahə təmiz saxlanılmalı, ora məişət tullantılarının və plastik torbaların atılmasına imkan verilməməlidir. Çünki küləkli günlərdə həmin tullantılar hava axını ilə gölə tökülür. Bütün bunlar isə təbiətin yaratdığı bu zəngin potensialın–sirli göl ekosisteminin şüurlu insan əli ilə məhv edilməsinin, mədəni və təbii dəyərlərin üzərindən xətt çəkilməsinin, gölün qorunmasına, istismarına laqeyd yanaşılmasının bariz göstəricisidir.

Yeri gəlmişkən, Abşeron rayonunun Masazır qəsəbəsi ərazisində yerləşən su hövzələrindən biri də "Zibilli gölü"dür. Yəqin ki, bu ad ona gözdən-könüldən uzaq düşdüyü, nəzarətsiz qaldığı illərdə verilib. Başqa sözlə, hövzə yaxın ərazidəki evlərin tikintisindən sonra orada yaranan və sürətlə genişlənən yaşayış sahəsinin məişət tullantılarının atıldığı yerə çevrilib. Təbii ki, ərazinin kanalizasiya sistemindən tullantılar da bura axıdılır. Artıq gölün adı tarixə qovuşur, doldurularaq yerində evlər tikilir. Avqust ayında həmin ərazidə olarkən, gölün qurudulması prosesi sürətlə davam etdirilirdi. Müraciət etdiyimiz müvafiq dövlət qurumlarından isə heç biri məişət tullantılarının doldurulması ilə gölün qurudulmasının səbəbini izah etməyə maraq göstərmədi. Sakinlər isə yaxın günlərdə gölün yerində yaşayış sahəsinin salınacağını bildirdilər...

Oxşar problemlərə ölkəmizin müxtəlif bölgələrində yerləşən göllərdə də təsadüf olunur. Əsasən, Şəki–Qax və Aran bölgələrində yerləşən, vaxtilə duzlu göllər kimi tanınan su hövzələri artıq ekoloji fəlakətlə üz-üzə qalıb desək, yəqin, yanılmarıq. Son illər həddindən artıq çirklənməyə məruz qalmış bu göllər hazırda duzlu göl yox, sadəcə, çirkab mənbəyini xatırladır. Üstəlik, həmin göllərin duzçökdürmə səviyyəsi də əvvəlki illərlə müqayisədə xeyli azalıb. Hazırda yerli sakinlər tərəfindən bu göllərdən çıxarılan az miqdarda duzdan heyvanlara yem kimi verilməsi hallarına təsadüf olunur ki, bu da yodlaşdırılmamış məhsul olduğundan qanunsuz sayılır. Belə ki, "Yod çatışmazlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8.3 maddəsinə əsasən, ölkədə yodsuz duzun istehsalı, idxalı, hətta heyvanlara yem məqsədilə verilməsi qadağan edilib.

Göründüyü kimi, Abşeron yarımadasında, eləcə də ölkəmizin ayrı-ayrı ərazilərində təbiətin insanlara bəxş etdiyi zəngin oksigen mənbəyi olan göllər elə insanın öz əli və əməli ilə zaman-zaman ekoloji terrora məruz qalıb. Əvvəllər öz sərvətlərini duz və müalicəvi palçıq şəklində insanlara bəxş edən göllər indi, sadəcə olaraq, zibil poliqonunu xatırladır. Necə deyərlər, kimin əlinə nə keçirsə, bu göllərə və ya onların ətrafına atır. Nəticədə, təbii sərvətlərimiz olan göllər təmiz su mənbəyindən, az qala, kimyəvi elementlər poliqonuna çevrilib. Son illərin ekoloji terrorununun qurbanına çevrilmiş həmin sututarların təmizlənərək əhalinin istifadəyə qaytarılması isə xeyli zaman və vəsait tələb edir.

***Vaqif BAYRAMOV***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Vaqif MƏMMƏDOV,**
**ETN Geologiya və Geofizika İnstitutu hidrologiya və geoekologiya şöbəsinin rəhbəri, coğrafiya elmləri doktoru**

Hazırda ölkəmizin ayrı-ayrı ərazilərində tərkibində müxtəlif miqdarda duzlar olan onlarca göl mövcuddur. Bunlar, əsasən, isti iqlimə malik ərazilərdə yerləşir. Həmin göllərin əksəriyyəti Abşeron yarımadasında, qismən də Şəki və Qax rayonlarının cənub hissələrində, eləcə də Salyan rayonun ərazisində, Kür çayının sol sahilindədir.

Hələ orta əsrlərdə, bəlkə də daha qədim dövrlərdə insanlar Abşeron yarımadasında olan şor göllərdən duz istehsalında istifadə ediblər. Çox təəssüf ki, hazırda bu göllərin bir neçəsi istisna olmaqla qalanları çirklənməyə məruz qaldığından onlardan duz istehsal etmək mümkün deyil. Amma həmin ərazidə yerləşən Böyük Şor, Masazır, Mizələdi, Fatmayı, Kürdəxanı, Qala, Zığ, Məhəmmədi (az miqdarda) su hövzələrindən vaxtilə kifayət qədər duz istehsal olunub. Keçmişdə yerli sakinlər bu göllərdən duzların toplama vaxtını bilirdilər. Hətta 19-cu əsrin məlumatlarında qeyd olunur ki, əhali duzu toplayıb qurudaraq satış məqsədilə istifadə edir və ya başqa əmttə ilə dəyişirdi.

Yeri gəlmişkən, hələ İkinci Dünya müharibəsinə qədər Böyük Şor gölündən xeyli duz çıxarılırdı və orada "Baksol", Bakı Duz Təşkilatı fəaliyyət göstərirdi. Həmin dövrdə "Baksol" gölünün şimal-qərb sahillərində hovuzlar var idi. Günəşin istiliyi nəticəsində quruyan həmin hovuzların dibinə duz çökür və məhsul yaxınlıqda yerləşən istehsal müəssisəsində emal olunaraq satışa çıxarılırdı. Sonralar neft sənayesinin inkişafı ilə əlaqədar Abşeron yarımadasındakı digər göllər kimi, Böyük Şor gölü də çirklənməyə məruz qaldı.

Abşeron yarımadasında yerləşən Böyük Şor gölü ilə yanaşı, Fatmayı, Kürdəxanı, Qala və Zığ gölləri də duz istehsalı əhəmiyyətini çoxdan itiriblər. Çünki quruda neft sənayesinin inkişafı zamanı quyularda çoxsaylı fontanlar baş verirdi. Zaman-zaman həmin fontanların nefti relyefin alçaq yerlərinə yayılıb toplanırdı. Abşeronda da ən alçaq yerlər məhz həmin çökəkliklərdir ki, onların da çoxu bu göllərlə tutulub. Ötən müddətdə həmin göllər o qədər çirklənib ki, indi onlara göl yox, sadəcə, çirklənmiş su hövzəsi demək olar. Digər tərəfdən, həmin göllərə xeyli neft-mədən, lay suları, emal zamanı əmələ gələn tullantı suları yığıldığından artıq orada duzyığılma prosesi baş vermir.

Abşeronun qərb hissəsində, Qobustan sərhədinə yaxın ərazidə də xırda duzlu göllər çoxdur. Bu göllər yeraltı duzlu sularla qidalansa da, hazırda onların heç biri, demək olar ki, duz çökdürmür. Bununla yanaşı, yaxınlıqda yerləşən Şirin nohur, Dadlı çala, Şorlu çala, Meyliqulu çala, Əyriçala şor və s. göllər yayda quruyur. Hələlik həmin ətraflarda sənaye və ya emaledici sənaye sahələri, yaşayış məntəqələri olmadığına görə göllər hazırda təbii vəziyyətdədir. Bu göllər yayda qurusa da, onların dibinə duz çökmür.

Digər iki böyük gölün biri respublikanın cənub hissəsində, Salyan rayonunun ərazisində yerləşən Duzdağ gölüdür. Bu gölün yanında eyni adlı palçıq vulkanı da mövcuddur. Yeraltı duzlu sularla qidalanan gölün sahəsi 4 kvadratkilometrə yaxın, uzunluğu 5, eni isə 1 kilometrdir. Amma duzu istifadəyə o qədər də yararlı olmadığından ondan istifadə edilmir. Bununla yanaşı, orada maqneziumlu acı duzların üstünlük təşkil etməsi də istisna olunmur. Yay fəslində Duzdağ gölü, demək olar ki, tam quruyur və ya quruma həddinə çatır.

Şəki rayonunun asağı, cənub hissəsinə yaxın ərazidə yerləşən Acınohur gölünün də böyük sutoplayıcı hövzəsi var. Burada suyun səthinin hündürlüyü, təqribən, 107 metr səviyyəsindədir. İlin fəsillərindən asılı olaraq gölün səthi 10-12 min kvadratkilometr təşkil edir. Amma göl çox dayazdır. Suyun bol olduğu vaxtlarda heç bir metrə belə çatmır. Ətrafları düzənlik olan ərazilər ağappaq rəngdədir. Bu gölün mənbəyini həm yeraltı sular, həm də ətrafda formalaşan yağış və qar suları təşkil edir.

Bu gün çirklənmə səviyyəsi az olan yeganə duz mənbəyi Masazır gölüdür. Məlum olduğu kimi, hazırda həmin göldən duz çıxarılır və yaxınlıqdakı zavodda istehsal olunaraq satış üçün hazırlanır. Bununla yanaşı, Masazır gölünün yaxınlığında, şərq tərəfdə yerləşən Mirzələdi gölündən də duz çıxarılıb və həmin müəssisədə təmizlənir. Əslində bu gün Masazır və Mirzələdi gölləri də çirklənməyə məruz qalır. Çünki onların ətrafında iri yaşayış məskənləri–Masazır, Novxanı və Saray qəsəbələri yerləşir. Amma bu göllərin çirklənmə səviyyəsi az olsa da, düşünürəm ki, vaxtında tədbir görülməsə, onların suyu da, duzu da çirklənəcək.

Əfsuslar olsun ki, təbii vəziyyətdə duzçökdürən göllərimiz ilbəil azalır. Belə ki, Masazır, Mirzələdini, eləcə də Acınohur və Duzdağı (bir sıra xırda göllərin isə elə bir əhəmiyyəti yoxdur) nəzərə almasaq, başqa duz mənbəyimiz qalmayıb. Abşeron yarımadasında, eləcə də ölkəmizin digər ərazilərində yerləşən duzlu göllərin çirklənməsi respublikamızı duz istehsalında xeyli geri salıb. Əgər həmin göllər çirklənməyə məruz qalmasaydı, Azərbaycanın xeyli sayda duz mənbəyi olardı. Amma vaxtilə bu göllərdən çıxarılan duz məişətdə istifadəyə tam yarayırdı. Digər göllərin, eləcə də Acınohur və Duzdağ su hövzələrinin duzları bir az texniki xarakterli idi. Həmçinin o göllərin dibində bioaktiv maddələrlə zəngin lil kütləsi, palçıq əmələ gəlirdi. Bu isə bir sıra xəstəliklərin sağalmasına kömək edirdi.

Yeri gəlmişkən, Elmi-Tədqiqat Kurortologiya İnstitutu tərəfindən ötən əsrin 30-50 ci illərində götürülmüş çoxsaylı nümunələr də həmin palçığın müalicəvi əhəmiyyətini tam sübuta yetirmişdi. Təəssüf ki, artıq duzla yanaşı, o palçıq da yoxa çıxıb. Çünki göllər çirklənməyə məruz qaldığından əvvəlki bioaktiv qüvvəsini, müalicəvi əhəmiyyətini itirib. Əgər bu göllər çirklənməsəydi, onların sahilində müalicəvi sanatoriyalar təşkil etmək olardı, ətrafdakı duzlu aerozollarla bol hava ilə də nəfəsalma sistemi zəif olan adamlar yaralana bilərdi.

Başqa bir misal. Zığ qəsəbəsinin cənubunda dənizə yaxın yerdə bir balaca göl var. Camaat adına Duzlu göl deyir. Vaxtilə həmin göl dənizin balaca bir körfəzi olub. Sonradan Xəzərin səviyyəsi aşağı düşdüyündən həmin ərazi dənizdən aralanıb və vaxtilə yaxınlıqdakı neft quyularının yodlu-bromlu, bir qədər də yeraltı suları ilə qidalanmağa başlayıb. Əhali gölün suyunun və dib hissəsinə yığılan palçığın müalicəvi xarakter daşıdğını düşünərək yay aylarında ora axın edir.

Düşünürəm ki, həkim-bioloqlar, kurortoloqlar Duzlu gölün ərazisində lazımi tədqiqat aparıb bu barədə rəy verməlidirlər. Əgər sözügedən gölün müalicəvi əhəmiyyəti təsdiqlənsə, onun çirklənməsinin qarşısı dərhal alınmalı və ərazidə hökm sürən antisanitar vəziyyət aradan qaldırılmalıdır.

---

**Qarabağ dirçəliş yolunda**

# Dünya şöhrətli "Ağdam" şərabı istehsala qayıdır

**Üzümçülük aqrar-sənaye kompleksinin ən gəlirli sahələrindəndir. Vaxtilə Azərbaycanda kənd təsərrüfatından əldə edilən ümumi mənfəətin 30 faizi üzümçülüyün payına düşürdü. Keçən əsrin 80-ci illərində isə üzümçülük iqtisadiyyatın aparıcı sahəsi olan neft sənayesi ilə rəqabət apararaq dövlət büdcəsinin formalaşmasında mühüm yer tuturdu.**

1984-cü ildə Azərbaycanda üzümlüklərin ümumi sahəsi 280 min hektara çatdırılmış, həmin il ilk dəfə olaraq 2,1 milyon ton üzüm istehsal edilib. Şamaxı, Cəlilabad, Ağdam, Füzuli, Xanlar, Qazax, Tovuz və Şəmkir rayonlarının hər birində ildə 100 min tona qədər üzüm tədarük edilirdi.

Üzümçülük Ağdam rayonunda da ənənəvi təsərrüfat sahələrindən biri sayılırdı. 1985-ci ildə 21,3 min hektar sahədən 104 min ton üzüm istehsal edilib. 1980–1988-ci illər ərzində rayonda üzüm istehsalı ölkə üzrə istehsalın təqribən 7,2 faizini təşkil edib. Həmin dövrdə Ağdamda şərabçılıq sənayesinin inkişaf etdirilməsinə, şərab məhsullarının keyfiyyətinin yüksəldilməsinə və çeşidinin genişləndirilməsinə dövlət tərəfindən böyük diqqət yetirilirdi. Burada istehsal olunan şərab məhsulları dünyanın müxtəlif ölkələrinə ixrac olunurdu.

Ağdamdan həm də qış aylarında Azərbaycan və SSRİ-nin digər şəhərlərinin əhalisinə təzə üzüm məhsulları tədarük edilirdi. Bu məqsədlə rayondakı "Qarabağ" üzümçülük və şərabçılıq sovxozunda soyuducu tikilmişdi. Bu qurğu o dövrün ən son texnologiyalarına əsaslanırdı. Lakin keçmiş İttifaq rəhbərliyinin alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri haqqında 1985-ci ildə qəbul etdiyi qərar Ağdamda da üzümçülüyün inkişafına ciddi zərbə vurdu. Bu qərəzli qərardan sonra üzüm sahələri azaldılaraq 1988-ci ildə 15,5 min hektara düşdü. 1988-ci ildə üzümlüklərdən 86,1 min ton məhsul əldə edildi.

Digər tərəfdən, 90-cı illərin əvvəllərində ölkədə yaranmış vəziyyət bu sahənin



tənəzzülünə səbəb oldu. İstehsalçılarla istehlakçılar arasında ənənəvi münasibətlər pozuldu və nəticədə bir sıra üzümçülük–şərabçılıq müəssisələri fəaliyyətini dayandırdı. Üzüm sahələrinin bir hissəsi işğal altına düşdü. Rayonun işğal edilməyən ərazilərində isə bir neçə hektar üzüm bağları qaldı. Bu sahəyə maraq tamamilə azaldı və onun yerini taxıl zəmiləri tutdu.

Bu barədə Ağdamdan məcburi köçkün Nadir Alışov dedi:

– Üzümçülük Ağdamın ən gəlirli sahəsi idi. Burada şərabçılığı inkişaf etdirmək üçün bütün imkanlar vardı. 17 şərab zavodu, 50 min hektar üzüm bağının olması dediklərimin təsdiqidir. Bu diyar həm də bazara çıxartdığı şərab və konyakı ilə məşhurlaşmışdı. Yadımdadır, "Ağdam" şərabı Rusiyada satışa çıxarılan kimi mağazaların qarşısında uzun növbələr yaranırdı. Bu içkini digər portveynlərdən fərqləndirən üstünlük onun tərkibində 8 faiz şəkər və spirtin tündlüyünün 19 faiz olması idi.

Sovet İttifaqı dövründə Rusiya bazarına həm ucuz, həm də keyfiyyətli içki lazım idi. Bu səbəbdən "Ağdam" şərabının alıcı qüvvəsi böyük idi. Bu vaxtadək "Ağdam" şərabı ilə bağlı o dövrdə yayılmış bir söhbəti də unutmamışam: "Bir dəfə Ağdamın birinci katibi qurultayda iştirak etmək üçün Moskvaya gedir. Qurultaydan sonra qəzet almaq məqsədilə növbəyə dayanır. Birdən administratorun "Ağdam", "Ağdam" deyə qışqırdığını eşidir. Katib də "buradayam, eşidirəm" deyə cavab verir. Administrator "siz niyə növbəyə dayanmısınız, bütün ruslar sizin şərab üçün növbəyə dayanır" - deyə bildirir. Katib növbədənkənar buraxılır".

Şərab zavodunda işlədiyim dövrdə "Ağdam" portveynin hazırlanmasında "Bayanşirə", "Rkatsiteli" üzüm sortlarından istifadə edilirdi. "Ağdam" konyakı da keyfiyyətinə görə seçilirdi.

Həmin vaxtlar Ağdamın Seyidli məhəlləsindəki həyətimizdə üzüm talvarı düzəltmişdim. Sözün düzü, tingləri şərab zavodundan gətirmişdim. Yaxşı da məhsul verirdi. Şəhəri Ermənistan silahlı qüvvələri işğal etdikdən sonra uzun illər Ağdamı ziyarət edə bilmədim. Bu günə şükür edirəm. Artıq Ağdam 3 ildir azad edilib, iki dəfə doğma şəhərimdə olmuşam. Birinci dəfə evimizin yerini çox axtarsam da tapa bilmədim. İkinci səfərimdə isə evimizi həyətimizdəki üzümdən tanıdım. Əlbəttə, evdən əsər-əlamət yox idi, yerində daş qalağı qalmışdı. Talvarın dəmiri də sökülüb aparılmışdı. Amma üzüm tənəyindəki salxımları gördükdə çox sevindim. Həyəcanla yaxınlaşıb bir salxım qopartdım. Giləleri necə də şirin idi. Sanki, illərlə günəş şüalarını canına çəkmiş, şirinləşmiş və ev sahibini gözləmişdi. Yedikcə o istiliyi hiss edirdim. Doyunca doğma torpağın havasını sinəmə çəkdim. Mənə bir rahatlıq gəldi. Tezliklə ailəmlə Ağdama, öz doğma şəhərimə qayıdacağıma inanıram. Həyətimdəki üzüm tingləri üçün yenidən talvar düzəldəcəyəm. O ayrılıq illərini onlara qulluq etməklə unutmağa çalışacağam. Bir arzum da var: İstərdim ki, Ağdam rayonunda üzümçülük və şərabçılıq yenidən dirçəldilsin.

Üzümçülüyün inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları hazırda Ağdamda öz müsbət nəticələrini verir və salınan üzüm bağlarının sahələri və istehsalı artır. Bunu statistik rəqəmlər də təsdiqləyir. Əgər 2011-ci ildə Ağdamın üzüm sahələrindən 357 ton məhsul yığılmışdırsa, 2019-cu ildə bu göstərici 402 ton, 2022-ci ildə 405 ton olub. 2025-ci ildə isə rayonda 3,8 min ton




üzüm istehsal edilməsi proqnozlaşdırılıb. Bu həm məhsuldarlığın artması, həm də yeni salınmış üzüm bağlarının məhsul verməsi ilə bağlıdır.

Bundan əlavə, "Ağdam" şərabının əvvəlki şöhrətinin qaytarılması istiqamətində addımlar atılır. Ölkə rəhbərliyi İxracın və İnvestisiyaların Təşviqi Agentliyinə (AZPROMO) bu brendi dirçəltmək və populyarlaşdırmaq üçün göstəriş verib.

AZPROMO-un sədri Yusif Abdullayev bildirib ki, bunun üçün İqtisadiyyat Nazirliyinə və rəhbərlik etdiyi quruma "Ağdam"ın coğrafi və əmtəə nişanı kimi qeydiyyata alınması tapşırılıb. Bu məhsul əsasən, yerli avtoxton üzüm sortları ilə istehsal olunacaq.

Hazırda ölkədə "Bayanşirə", "Mədrəsə", "Xindoqnı" kimi yerli sortların yetişdirilməsinə böyük diqqət yetirilir. Bu növlər ağ və qırmızı şərabın istehsalı üçün istifadə olunur. "Ağdam" brendinin dirçəldilməsi də avtoxton "Bayanşirə" sortunun inkişafı üçün səmərəli platforma olacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Yaddaşlarda yaşayanlar

## *Mirzə Babayev:*
# Mən də Mirzəbəylidə doğulmuşam... Hə, nə dəyişdi?




**Ailəmizin nizamının pozulması atamı çox üzürdü. Əvvəl onun anası, sonra böyük qardaşı, daha sonra isə iki qızı – mənim cavan bacılarım dünyalarını dəyişdilər. İkinci dünya müharibəsinin minbir əzabına dözərək, cəbhədən əlil qayıtmış kişi indi bu itkilərə dözə bilmirdi. Atam həmin illərdə Mirzə Babayevin ifasında radioda səsləndirilən “Kimlər gəldi, kimlər getdi...” mahnısını həyəcansız dinləyə bilmirdi. Həmin mahnı televiziyada veriləndə isə, müğənninin jestləri, səhnə hərəkətləri musiqinin də təsirini artırırdı, sözlərin də.**

... Dövlət radiosunda veriliş aparmağa başladığımdan təxminən iki il keçirdi. Atam mənim verilişlərimdə xanəndə Yaqub Məmmədov, müğənni Rəsmiyyə Sadıqova və qaboy ifaçısı Kamil Cəlilovla söhbətlərimi eşitmişdi. Ona görə də, kəndə gedəndə mənə tapşırdı ki, Mirzə Babayevlə də söhbət hazırla, o mahnını sənin verilişindən də eşidim. Söz verdim. Amma düşünürdüm ki, Mirzə Babayev kimi hər günü, hər saatı “zanit”dir deyilən, gah mahnı yazılışında, gah kino çəkilişində, gah da el məclislərində olan sənətkarı o qədər də tanınmamış bir aparıcının verilişinə gətirmək... asan məsələ deyil.

İş elə gətirdi ki, məqsədimə çata bildim. Daha doğrusu, bir neçə görkəmli sənətkara dediyim “Əslində, sizin belə bir təbliğata ehtiyacınız yoxdur, amma mənim sizinlə söhbət etməyə ehtiyacım var” arqumentim Mirzə dayını da yumşaltmışdı. Studiyaya gələnədək çox məsələlərdən, xüsusən, Sovet əsgərlərinin teleşirkətdə törətdiyi təxribatlar haqqında xeyli söhbət elədik.

Səsyazma studiyasında isə onun oxuduğu yeni mahnılar, çəkildiyi filmlər, bəstəkar Tofiq Quliyevlə dostluğu, məmarlığı ataraq estradaya gəlməsi, oradan da kinostudiyaya cəlb edilməsi, gələcək planları və digər mövzularda suallarımı olduqca ciddi şəkildə cavablandırdı. Son üç sualımın cavabı isə birbaşa zarafat idi. Həmin zarafatları da efirə verdik:

– Mirzə müəllim, bir qəzetdə oxumuşdum ki, siz Hökmalıdə doğulmusunuz. Başqa bir yazıda isə qeyd edirlər ki, siz Maştağada dünyaya gəlmisiniz. Özünüz isə demisiniz ki, mən İçərişəhərdəki “ağşalvarlılar” nəslindənəm. Bunların hansı doğrudur?

– Həə... Sən hansı rayonda və ya kənddə doğulub böyümüsən?

– Qutqaşen rayonunun Mirzəbəyli kəndində.

– Mən də Mirzəbəylidə doğulub böyümüşəm. Hə, nə dəyişdi? Heç nə. Sən də deyə bilərsən ki, Dərbənddə doğulmuşam. Əmin edirəm ki, heç nə dəyişməyəcək.

– Bayaq həyətdə söhbət edərkən siz beş-altı dəfə “alə” sözünü işlətdiniz. Mən narahat idim ki, efirdə də o sözü işlədəcəyik.

– Alə, həyətin həyət söhbəti var, efirin efir...

– İndi mən dinləyicilərə sizin məşhur ifalarınızdan birini – Soltan Hacıbəyovun Zeynal Xəlilin sözlərinə yazdığı “Kimlər gəldi, kimlər getdi?” mahnısını təqdim edirəm.

– Sifarişçi kimdir?

– Atam.

– Qonorar nağd olacaq, yoxsa köçürmə ilə?

– Kənddə köçürmə olmur.

– Atana salam söylə!

***

... Allah atama da rəhmət eləsin, Mirzə dayıya da, Soltan Hacıbəyova da, Zeynal Xəlilə də.

Təbii ki, qəzet səhifəsində, bu rubrikada musiqi səsləndirmək olmur. Amma mahnının bir bəndinin sözlərini xatırlatmaq mümkündür:

**Hər dövranda bir gərdiş var,**
**Min rəng çalır bu rüzigar.**
**Hünər göstər, bir şey apar**
**Bu dünyadan, bu dünyadan.**

Aparmaq olmur, qardaş, indiyədək aparan olmayıb. Sadəcə, yaradıcı adamların əsərləri, yaxşı adamların isə söhbətləri qalır.

**P.S.** Həmkarımız İlqar Həsənov mənim 50 yaşım münasibətilə keçirilən tədbirdə bu mahnını bəzi yeni müğənnilərdən yaxşı oxumuşdu.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

Səxavət Məmmədov – 70

# Qərib səs Abdal-Gülablıya qayıtdı

**Azərbaycan mədəniyyətinə Cabbar, Bülbül, Üzeyir bəy, Seyid, Xan və digər dahiləri bəxş edən Qarabağ torpağı Səxavət Məmmədov kimi bir sənətkar da yetişdirib. “Segah”a yatımlı səsi ilə ürəkləri oxşayan gənc xanəndə ilk ifaları ilə sənətə öz möhürünü vura bilib.**



Səxavət Məmmədov 1953-cü il oktyabr ayının 23-də Ağdam rayonunun Abdal-Gülablı kəndində anadan olub. Musiqi aləminə barmaqlarını qarmonun şirmayı dillərində gəzdirə-gəzdirə gəlib. Toylara getməyə utansa da, bəzən səsini zilə çəkib oxumaqdan özünü saxlaya bilməyib. Elə böyük yola da səsinin “bələdçiliyi” ilə çıxıb.

Asəf Zeynallı adına musiqi texnikumunda oxuyub və ustad xanəndə Hacıbaba Hüseynovdan muğamı mükəmməl öyrənib. Bu ərəfələrdə Səxavəti əsgər aparıblar. Jurnalistlər Hacıbaba Hüseynovdan “ən yaxşı tələbəniz kimdir?”, – deyə soruşanda məşhur xanəndə deyib: “Ən yaxşı tələbəm əsgərlikdədir”.

Daha sonra Xalq artisti Əlibaba Məmmədovun "Hümayun" ansmblının solisti olan Səxavətin “Ay bəri bax”, “Yar bizə qonaq gələcək”, “Ay çiçək”, “Sarı bülbül”, “Sona bülbüllər”, “Azad bir quşdum” kimi mahnıları şirin və həzin səslə oxuması onu sənətsevərlərin gözündə daha da ucaldıb. Təəssüf ki, bu gün “Segah” ilbasılı o mahnılar Səxavətsiz ah-zar edir.

...Lənkərandan üzü Bakıya yol gələgələ maşındakı radioqəbuledici vasitəsilə onun haqqında konsert-oçerkə qulaq asırdım. “Uca dağlar”ı ifası ilə sanki bir qədər də ucaldırdı. Mahnıdan sonra Əlibaba Məmmədovla müsahibəni verdilər. Ustad sənətkar belə bir əhvalat danışdı: “Moskvada konsert zamanı Səxavətin çıxışından sonra bir rus musiqişünas professor səhnə arxasına gələrək ondan ağzını açmasını xahiş elədi. Mən: “Nə üçün?”, – deyə soruşdum. Bildirdi ki, inanmıram, insan belə heyrətamiz səslər çıxara bilsin. Yəqin ki, bu cavan oğlanın boğazına nəsə bir aparat qoyulub. Amma heç bir aparatın olmadığını görəndən sonra həmin musiqişünas başını bulaya-bulaya eləcə bunu deyə bildi: “Çox təəccüblüdür! Möcüzədir!”

“Onun səsi, necə deyərlər, uzaqdan seçilirdi, bənzərsiz idi. Elə bil qeybdən gəlirdi. Bu səsin ruhu vardı. Boğazları başqa bir aləm idi”. – Bu fikir də Əlibaba Məmmədova məxsusdur.

1983–88-ci illərdə İncəsənət İnstitutunda təhsil alan Səxavət Məmmədov Azərbaycan muğamını bir çox ölkələrdə layiqincə təmsil edib. Səxavət Qarabağ hadisələrinin ilk illərində özünün yaratdığı “Qarabağ” instrumental ansamblı ilə o, hər tərəfi gəzib dolanır, muğamımızla yanaşı, Azərbaycan həqiqətlərini də dünyaya çatdırırdı. Həmin qarışıq zamanda kənar seyrçi mövqeyində dura bilməyən Səxavət özünün müəyyən əlaqələri və dostları vasitəsilə cəbhə bölgəsinə silah-sursat alıb göndərirdi ki, eloğluları nankor erməni separatçılarına qarşı vuruşa bilsinlər. Özü də hər dəfə Ağdama gedəndə cəbhə üçün alınan silahları, patronları aparırdı.

Hamının yaxşı tanıdığı xanəndə – Əməkdar artist Firuz Səxavət onun kiçik qardaşıdır. Səxavətin adını özünə təxəllüs götürüb. Buradaca qeyd edək ki, bu gün Səxavət Məmmədov dünyasını dəyişmiş digər sənətkarlardan ikiqat artıq xatırlanır: həm vaxtaşırı verilən lent yazıları vasitəsi ilə, həm də Firuz Səxavətin, az qala, eyni səs diaspazonlu ifaları ilə. Bir yadigar videoyazı da var, orada Firuz “Segah” oxuyur, Səxavət isə ona baxıb sanki bir müəllim fərəhi ilə gülümsəyir...

– Bu adı daşımaq böyük məsuliyyətdir, – deyə Firuz müəllim kövrək səslə bildirir. – Çünki Səxavət həyatda da, sənətdə də böyük iz qoyub. Mən də bacardığımız qədər çalışıram ki, onun adını doğruldum. Yeri gəlmişkən, ayın 25-də filarmoniyada onun yubileyi qeyd olunacaq. Siz də gəlin və xalqımızın Səxavəti necə böyük səxavətlə sevdiyini bir daha görün.

Cavabında: “Böyük məmnuniyyətlə gələrik” deyərək, ona görə minnətdarlıq etdim.

Mənə Səxavət Məmmədovun konsertlərinə getmək nəsib olmayıb. Amma o, neçə dəfə görmüşəm. bizim həyətimizə gəlib. Sumqayıtda qonşum olan Əməkdar artist Təhmiraz Şirinovun ailəvi qonağı olanda görmüşəm onu.

– Xeyli vaxt Səxavətlə birlikdə “Hümayun” ansamblında çalışmışam, – deyə Təhmiraz müəllim xatirə “cığır”ını tutub gedir. – Səfərlərdə, qastrollarda çox olmuşuq. Bənzərsiz xanəndə, gözəl insan, əsl dost idi. Sənətdə bir-birimizdən bəhrələndiyimiz hallar da çox olub. Məsələn, mən “Azərbaycan maralı” mahnısını ondan sonra oxumuş və Səxavətin bəzi boğazlarını, necə deyərlər, oğurlamışam. İlahi, necə oxuyurdu?

**Ay qız, gəzmə aralı,**
**Könlüm səndən yaralı.**
**Gözlərinə heyranam,**
**Azərbaycan maralı...**

Heyf ki, Səxavət bizləri çox tez tərk elədi. Bu gün, sözün əsl mənasında, mənim könlüm onun ucbatından yaralıdır, – desəm, ifrata varmaraq. Allah rəhmət eləsin ona...

Səxavət Məmmədov 1991-ci ildə çəkilmiş “Bəxt üzüyü” filmində mahnı ifa edib və qeyri-adi səsi hər kəsi heyrətə gətirib. O mahnı həm də, elə bil, Səxavətin ölümünə yazılıbmış:

**Azad bir quşdum,**
**Yuvamdan uçdum,**
**Torpağa düşdüm**
**Bu gənc yaşımda”.**

Elə həmin il həyatda onun bəxti gətirməyib – gözəl xanəndə Qarabağdan qayıdan zaman Qaradağ yolunda avtomobil qəzasına düşərək, 38 yaşında dünyasını dəyişib. Taleyin istehzasına baxın ki, Qarabağda müharibə vəziyyətinə görə onun adına Bakıda sifariş edilən məzar daşı kənddə gedən gərgin döyüşlər səbəbindən ünvanına çatdırıla bilmədi. Daha sonra isə kənd işğal olundu. Səxavət Məmmədovun üzərində şəkli, doğum və ölüm tarixləri həkk olunmuş başdaşı Bakıdakı evinin həyətində qaldı…

Abdal-Gülablı 3 ildir ki, azadlığına qovuşub. “Azad bir quş” kimi yuvasından ayrı düşmüş Səxavət Məmmədovun qərib ruhu da doğma kəndinə qayıdıb.

Bir də təskinliyimiz budur ki, unudulmaz sənətkarımız Səxavətin yeri hər zaman ürəyimizdədir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Sözün Vətən savaşı




**Cəfər Cabbarlı adına Gənclər Kitabxanasında Azərbaycan Ədəbiyyat Fondu və “Azərbaycan–Türkiyə Sosial Tərəqqiyə Yardım” İctimai Birliyinin təşkilatçılığı ilə “Müharibə dövrü ədəbiyyatı” mövzusunda dinləmələr keçirilib.**

Məclisin ümumi ruhunda özünü qabarıq göstərən başlıca amil o oldu ki, gənclərin Qarabağın azadlığı uğrunda mübarizə ruhunda tərbiyə olunmasında dövlət siyasəti ilə paralel olaraq, milli ədəbiyyatın da mühüm rolu var. Məhz Azərbaycan ədəbiyyatı xalqımızın Vətən müharibəsində tarixi Zəfər qazanmasına mənəvi stimul verib. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhərliyi ilə hər cür igidlik nümunəsi göstərməyə hazır olan yeni nəslin təmsilçiləri üçrəngli bayrağımızı Şuşanın, Laçının, Kəlbəcərin ən uca zirvələrinə taxıblar. Bu isə həm də müstəqillik və Vətən anlayışlarının daha dərindən dərk olunması yönümündə milli ədəbiyyatımızın xalq qarşısında xidməti kimi dəyərləndirilir.

Azərbaycan Ədəbiyyatı Fondunun direktoru, Beynəlxalq Yazıçılar Gildiyasının üzvü, tanınmış yazıçı, Əməkdar jurnalist Varis Yolçuyev dinləmələrin məqsəd və məramını açıqlayaraq dedi ki, 44 günlük Vətən müharibəsində və ondan sonra torpaqlarımızın işğaldan azad olunması mövzusu daha da aktuallaşıb. “Son illərdə bu barədə çoxlu dəyərli əsərlər yazılıb, amma müqəddəs savaşı, xalqımızın mübarizə əzmini, ordumuzun qəhrəmanlığını dünya ədəbi platformasına çıxara biləcək bədii nümunələr hələ yetərincə deyil. Gəlin, müharibə mövzusunun ədəbi müstəvidə daha dolğun işıqlandırılması ilə bağlı qarşıda duran vəzifələrdən danışaq”.

Sonra ictimai birliyin sədri, rəssam Nigar Helmi Abbasbəyli özünün bir sıra ölkədə nümayiş olunan “Qarabağ mirası” sərgisindən bəhs etdi. Qeyd olundu ki, mədəniyyətin bütün sahələrində, o cümlədən də bədii ədəbiyyatda müharibə mövzusunun aparıcı rolu daha da gücləndirilməli, bizə qarşı mənfur düşmənin apardığı mədəni soyqırımı faktları hər vasitə ilə ifşa olunmalıdır.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru Məhərrəm Qasımlı çıxışında görkəmli ədib Mir Cəlal Paşayevin müharibə mövzusunda qələmə aldığı əsərlərini nümunə göstərərək, bunun hazırkı ədəbi nəsil üçün əsl örnək olduğunu konkret misallarla əsaslandırdı.

Xalqımızın mübarizələrlə dolu şərəfli tarixi haqqında bir neçə sanballı əsərin müəllifi olan yazıçı, Əməkdar mədəniyyət işçisi Yunus Oğuz müasir ədəbi prosesdə müharibə mövzusunun tutduğu yerdən, yazılan əsərlərin təbliği, xarici dillərə tərcüməsi kimi məsələlərdən danışdı. Azərbaycan Yazıçılar Birliyi Güney Azərbaycan şöbəsinin rəhbəri Sayman Aruz, filologiya elmləri doktoru Esmira Fuad, filologiya üzrə fəlsəfə doktoru, jurnalist Şərəf Cəlilli, kitabxananın direktoru Aslan Cəfərov, Qarabağ müharibəsi veteranı, Əməkdar jurnalist Əntiqə Qonaq da çıxışlarında mövzuya dair fikirlərini bölüşdülər, maraqlı təkliflər səsləndirdilər.

Gənc şair Cavid Qasımov müharibə mövzusunda yazdığı şeiri oxudu, şəhid ailələrinin üzvləri və başqaları çıxış etdilər. Müharibə mövzusunun ədalət və sülh problemi ilə vəhdət təşkil etdiyinə və yazarların bədii nümunələrə məhz bu aspektdən yanaşmalı olduqlarına diqqət cəlb edildi. Qələbəni bədii dillə əsaslandıran, təsəlli verən müharibə ədəbiyyatının qəlbləri tərpədə bilməsi, hər kəsi yaxşı mənada həyəcanlandırması üçün yazarların bütün istedad və bacarıqlarını səfərbər etməsinin vacibliyi dönə-dönə vurğulandı.

***Ə.ƏLİYEV***
***XQ***

# Sənət xəbərləri




**8 Noyabr - Zəfər Günü münasibətilə bu gündən Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Zəfər” musiqi və teatr festivalı başlanır.**

Nazirlikdən XQ-yə bildirilib ki, “Zəfər” festivalı Bakı şəhəri ilə yanaşı, Gəncə və Sumqayıt şəhərlərinin, İsmayıllı, Biləsuvar, Sabirabad, Xaçmaz rayonlarının bir sıra mədəniyyət ocaqlarında tarixi qələbəmizə həsr olunmuş silsilə tədbirlərlə davam edəcək.

Festival çərçivəsində bədii kollektivlərin və solistlərin iştirakı ilə rəngarəng proqramlar, bəstəkarlarımızın tarixi Zəfərimizə həsr etdiyi simfonik əsərlərdən və vokal-xor nömrələrindən ibarət konsert, Vətən müharibəsindəki şanlı Qələbəmizə həsr olunmuş tamaşalar, muğam axşamı və digər mədəni tədbirlərin təşkili nəzərdə tutulub.

Sözügedən tədbirlərə şəhid ailələri və qazilər, Azərbaycan Dövlət Uşaq Filarmoniyasında və Azərbaycan Dövlət Kukla Teatrında keçiriləcək tamaşalara isə şəhid və qazi övladları da dəvət olunacaqlar.

Festival noyabrın 8-dək davam edəcək.

***

**“PAŞA Həyat” şirkətinin dəstəyi ilə “İRS” silsiləsi çərçivəsində nəşr edilən “Şirvanşahların minilliyi” və “Kəlam və fırça” kitablarının təqdimat mərasimi keçirilib.**

Bu kitablar Azərbaycan, rus və ingilis dillərində yayımlanıb.

Mərasimdə çıxış edən “İRS” jurnalının baş redaktoru Musa Mərcanlı bu gündək “İRS” seriyasından olan bütün nəşrlər haqqında məlumat verib. “PAŞA Həyat Sığorta” ASC-nin İdarə Heyətinin sədri Niyaz İsmayılov bu kitabların ölkə tarixinin, mədəniyyətinin dünyaya nümayiş etdirilməsində önəmli olduğunu əsaslandırıb, rəhbərlik etdiyi qurumun korporativ sosial məsuliyyət fəaliyyətində bu istiqamətin mühüm yer tutduğunu vurğulayıb. O bildirib ki, indiyədək 20-dən çox kitab buraxılıb və bu cür layihələr bundan sonra da davam etdiriləcək.

Digər çıxış edənlər – Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli və tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədov Azərbaycan tarixinin gələcək nəsillərə ötürülməsində kitabların əhəmiyyətindən bəhs ediblər. Bildirilib ki, “İRS” seriyasından olan “Şirvanşahların minilliyi” kitabında Şirvanşahlar dövlətinin iqtisadi, beynəlxalq və digər əlaqələrinə aid yeni yanaşmalar, faktlar qeyd edilib. Kitabın azərbaycançılıq ideyalarını izləyən qiymətli bir nəşr olduğu diqqətə çatdırılıb.




***

**Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində Xalq artisti, Lənkəran Dövlət Dram Teatrının aparıcı aktyoru Qabil Quliyevin yaradıcılıq fəaliyyətinin 50 illiyinə həsr olunmuş “Yarım əsrlik sənət yolu” adlı tədbir keçirilib.**

Teatr Muzeyinin fondunda qorunan, aktyorun həyat və yaradıcılığını əks etdirən eksponatlardan hazırlanmış videoçarx, həmçinin onun oynadığı tamaşa və filmlərdən kadrlar nümayiş olunub.



Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova sənətkarın ömür yolundan danışaraq onu təbrik edib.

Opera və Balet Teatrının solisti, xanəndə Mütəllim Dəmirov və Azərbaycan Milli Konservatoriyası nəzdində Asəf Zeynallı adına Musiqi Kollecinin və İncəsənət Gimnaziyasının tələbələri sənətkarın şərəfinə konsert proqramı ilə çıxış ediblər.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 231 (30347) 22 oktyabr 2023-cü il, bazar

İdman xəbərləri

## Taekvondoçumuz qitə birincisi olub

**Serbiyanın paytaxtı Belqradda keçirilən Avropa çempionatında yeniyetmə taekvondoçulardan ibarət Azərbaycan yığması 1 qızıl və 1 bürünc medal qazanıb.**



Yığma komandanın üzvü Şəms Əlizadə (160 sm) debüt görüşündə isveçli Nazaah Valiulla üzərində 2:0 hesabı ilə qələbə əldə edib. Dörddəbir finalda Barba Strjemkovskanı (Polşa) da eyni hesabla məğlub edən təmsilçimiz yarımfinala yüksəlib. Final uğrunda Laura Kuyaçiçi (Bosniya və Herseqovina) üzərində də qələbə qazanan (2:0) Ş.Əlizadə uğurlu seriyanı həlledici mərhələdə də davam etdirib. Qızıl medal uğrunda serbiyalı Sanya Brkiçlə döyüşən yığma üzvü bu dəfə də hər iki hissəni qələbə ilə başa vurub və Avropa çempionu titulunu qazanıb.

Yığmanın digər üzvü İlyas Hətəmli (160 sm) isə ardıcıl olaraq Natan Degiorgio (Malta) və Dmitri Stepurenkonu (Ukrayna) 2:0 hesabı ilə məğlub edib, yarımfinala çıxıb. Taekvondoçu bu mərhələdə Abubakr Şaxmaqomedova (AİN) 1:2 hesabı ilə məğlub olduğundan Avropa birinciliyini bürünc medalla başa vurub.

## Bakıda Avropa Atıcılıq Assambleyası

**Bakıda Xəzri İstirahət və Sağlamlıq Mərkəzində Avropa Atıcılıq Konfederasiyasının 29-cu Baş Assambleyası təşkil edilib.**



Tədbirə Beynəlxalq Atıcılıq Federasiyasının prezidenti Luçiano Rossi, Avropa Atıcılıq Konfederasiyasının Prezidenti Aleksandr Ratner, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini Mariana Vasileva və Avropanın 50-ə yaxın təmsilçiləri qatılıblar.

Qeyd edək ki, Assambleya iki ildən bir keçirilir və növbəti illərdə Avropa çempionatına ev sahibliyi edəcək ölkələr üçün səsvermə prosesi, həmçinin federasiyaların inkişaf istiqamətləri üzrə müzakirələr aparılır.

## Gimnastlarımız daha 2 qızıl medal qazanıblar

**Bolqarıstanın Varna şəhərində keçirilən 31-ci Avropa çempionatında akrobatika gimnastikası üzrə Azərbaycan yığması 2 qızıl, 1 gümüş medal qazanıb.**



İdmançılarımız çoxnövçülük proqramında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlük, həmçinin, Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyü Avropa çempionu olub.

Komandamızın digər üzvləri Nəzrin Zeyniyeva, Zəhra Rəşidova və Anahita Bashiridən ibarət qadın qrupu (gənclər) isə qitə birinciliyində gümüş medala yiyələnib. Bununla da, yığmamızın qazandığı medalların sayı 6-ya (4 qızıl, 2 gümüş) çatıb.

*L.SABİRQIZI*
**XQ**

# İlmələrə köçən ömür

**Bu gün mərhum xalçaçı rəssam Kamil Əliyevin doğum günüdür. Böyük sənətkar 1921-ci il oktyabrın 22-də İrəvanda anadan olub. 2005-ci il martın 1-də 84 yaşında vəfat edib.**



Xalça təkcə məişət əşyası deyil, xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə əks etdirən əl işidir.

Azərbaycan rəssamlıq, xalçaçılıq sənətini yüksəklərə ucaldan, tanınmış usta sənətkarlardan biri də xalçaçı-rəssam Kamil Əliyevdir. Rəssam xalça sənətinin zəngin ənənələrini qoruyub-saxlayaraq bu sənəti daha da zənginləşdirmiş, bir-birindən gözəl müxtəlif kompozisiya və süjetlər yaratmışdır. Onun yaratdığı xalçalar fitri istedadın, yüksək təxəyyülün təzahürüdür.

Rəssamın ilk portret-xalçası 1958-ci ildə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyinə təqdim etdiyi "Füzuli xalçası" olmuşdur. Xalça rəngbərəng naxışları ilə zəngin Füzuli lirikasına bənzəyir.

Bu xalçanın yaradılması böyük alqışlarla qarşılanır və rəssam yeni portret-xalçalar yaratmağa başlayır. Sənətkar İmadəddin Nəsiminin, Nizami Gəncəvinin, Şota Rustavelinin, A.S.Puşkinin, Məmmədəmin Rəsulzadənin, Mustafa Kamal Atatürkün, Süleyman Dəmirəlin, Ulu öndər Heydər Əliyevin, akademik Zərifə Əliyevanın, Prezident İlham Əliyevin portretlərini xalça üzərində həkk edir, "Mənim anam" adlı möhtəşəm ana əsərini yaradır.

Adlarını saydığım və digər sənət inciləri zərgər dəqiqliyi ilə yaradılmışdır. Hətta o qədər mükəmməl hazırlanmışdı ki, Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl öz portretini xalça üzərində görərkən heyrətlənmiş və demişdir: "Bu, Süleyman Dəmirəldir, onda bəs mən kiməm?"

Bax budur Kamil sənət əsəri!

*Zülfiyyə ZİYA*
**XQ**

Sosial şəbəkələrdən seçmələr




**Bu fotonu uzun illərdir həyatda və "Facebook"da dostluq etdiyim həmkarım, dəyərli ziyalımız Vüqar Ağayev paylaşıb. O, 13 il AzərTAC-ın Yaponiyada xüsusi müxbiri vəzifəsində çalışıb, artıq bir neçə aydır ki, Vətənə qayıdıb. Sosial şəbəkələrdə Yaponiya ilə bağlı unudulmaz xatirələri ilə bağlı maraqlı, diqqətçəkən paylaşımlar edir.**

Qeyd etməyə dəyər ki, Vüqar Ağayev "fb"-də ara-sıra "Gündoğar ölkə"nin əsrarəngiz təbiətini nümayiş etdirən bir-birindən gözəl illüstrasiyalar da yerləşdirir. Onların çoxunu bu ölkədə jurnalist kimi çalışdığı illərdə özü fotoaparatının yaddaşına həkk edib. Sizə bu gün təqdim etdiyimiz fotoda isə Kyoto adasındakı məşhur Byodoin məbədi əks olunub.

*Təqdim etdi:*
*M.HACIXANLI*
**XQ**

# "Qızıl əlcək"də 2 bürünc

**Serbiyanın Çaçak şəhərində keçirilən "Qızıl əlcək" beynəlxalq turnirində Azərbaycan təmsilçiləri Ruslan Rüstəmov (63,5 kq), Kamran Şahsuvarlı (75 kq) bürünc medal qazanıblar.**



Komandamızın digər üzvü Ümid Rüstəmov (60 kq) isə bütün rəqiblərini məğlub edərək finala yüksəlib. Rinq ustası yarımfinalda yerli rəqib Stefan Kamoviçi məğlub edib - 3:0. Həlledici mərhələdə Ü.Rüstəmov rusiyalı Nemət Səfərovla döyüşəcək.

Qeyd edək ki, yarışda 15 ölkənin boksçuları iştirak edirlər.

*L.AZAD*
**XQ**

Hava

# Axşama doğru yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən oktyabrın 22-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin axşama doğru bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 12-15°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir gücləənəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 21-26° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-12° isti olacaq.

*Q. QASIMOV*
**XQ**

Qəhrəmanlıq unudulmur

# Gürcüstanda Rahib Məmmədova abidə qoyulub



**Gürcüstanın Xobi rayonunun Çaladidi kəndi ərazisində azərbaycanlı qəhrəman Rahib Məmmədovun heykəlinin açılış mərasimi keçirilib.**

Tədbirdə Gürcüstanın Zemo-Svaneti bölgə rəhbərliyi, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Türkiyənin Batumi şəhərindəki baş konsulu Rıza Kağan, Rahib Məmmədovun ailə üzvləri, Gürcüstan və Azərbaycan ictimaiyyətinin nümayəndələri, eləcə də media əməkdaşları iştirak ediblər.

Bölgə qubernatorunun müavini Nino Viblianinin sözlərinə görə, əslən Azərbaycanın Ağdam rayonunun Mahrızlı kəndindən olan 19 yaşlı gənc 1987-ci ildə öz həyatı bahasına Çaladidi kəndinin 28 sakinini xilas edib. O deyib ki, Rahib Məmmədovun xatirəsi hər zaman anılır və bu gün ucaldılan heykəl Azərbaycan və Gürcüstan xalqlarının dostluğunun daha bir təzahürüdür.

R.Məmmədovun qardaşı Sahib Məmmədov isə deyib ki, abidənin açılışı onların ailəsi üçün sevindirici və qürurverici hadisədir: "Bu işdə əməyi olan hər kəsə ailəmiz adından şəxsən öz təşəkkürümü bildirirəm. Qəhrəmanlar unudulmur".

**XQ**

Mədəniyyət

**BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) Səmərqənddə keçirdiyi 25-ci yubiley sessiyası başa çatıb. Tədbirə 130-dan artıq ölkədən gələn nümayəndələr-dövlət turizm təşkilatlarının rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri, turizm biznesinin təmsilçiləri qatılıb.**

# Səmərqənddə turizm çağırışları



Azərbaycandan bu tədbirdə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib. Açılış mərasimində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, UNWTO-nun Baş katibi Zurab Pololikaşvili çıxış ediblər. Tədbirə BMT-nin Baş katibi Antonio Qutterişin sessiya iştirakçılarına videomüraciəti də verilib.

Sessiya çərçivəsində keçirilən tədbirlərdə Özbəkistan nümayəndələri turizm sahəsində ölkədə həyata keçirilən layihələr haqqında danışıblar. Bildirilib ki, son iki ildə Özbəkistanda 800 infrastruktur obyekti istifadəyə verilib, Səmərqəndin turizm infrastrukturuna bir milyard dollardan artıq vəsait xərclənib.

Deyilib ki, son bir ildə Özbəkistana gələn turistlərin sayı iki dəfə artıb, bu sahədən gələn gəlir isə dörd dəfə çoxalıb. Son illərdə dünyanın 100 ölkəsi ilə vizasız rejim tətbiq olunub, 55 ölkə ilə isə asanlaşdırılmış elektron viza sistemi həyata keçirilib.

Çıxışlarda qeyd olunub ki, bu ilin sonunadək Özbəkistana gələn turistlərin sayının 7 milyona çatması nəzərdə tutulur. 2030-cu ilədək isə bu rəqəmin 15 milyona çatdırılması proqnozlaşdırılır.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*
**Səmərqənd**

# İndoneziyalı rejissorun "Leyli və Məcnun"u

**İndoneziyalı rejissor Monti Tivanın Bakıda çəkdiyi "Leyli və Məcnun" bədii filmi bu ölkənin ən nüfuzlu mükafatına layiq görülüb.**

Filmin süjet xətti Leyli və Məcnunun əfsanəvi sevgi hekayətilə tam üst-üstə düşməsə də, yaradıcı heyət ekran əsərində tamaşaçıları maraqlı süjet xəttinin cazibəsində saxlamağa çalışıb. Həqiqətən, Monti Tivanın unikal rejissorluğu seyrçilərin filmdən zövq alması şərait yaradır.

Filmdə əsas rolları Aça Septriasa, Reza Rahadian ilə yanaşı, Baim Vonq, Dian Nitami kimi tanınmış aktyorlar canlandırıblar.

**XQ**

Maqazin

# Türkiyəli müğənninin Bakı nişanı

**Türkiyəli tanınmış müğənni və aktrisa Öykü Gürman iş adamı sevgilisi Fatih İçmeli ilə ailə həyatı qurub. Türkiyə mətbuatı xəbər verir ki, cütlüyün nikahı Bakıda baş tutub.**



Təxminən 3 il yarımdır sevgili olan cütlük ötən aylarda nişanlanıb. Ancaq Türkiyədə ötən il baş vermiş dəhşətli zəlzələ və müğənninin gərgin konsert proqramlarına görə, toy bir neçə dəfə ləğv olunub.

Nəhayət, cütlük nişan mərasimini Öykü Gürmanın sözləri ilə desək, "can Azərbaycanın paytaxtı Bakı şəhərində keçirməyi qərara alıb.

**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4818 |
| SİFARİŞ | 2716 |
| QİYMƏTİ | 40 qəpik |

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00